PEYĞƏMBƏRİN ﷺ

# İBN ABBASA VƏSİYYƏTİ

İBN RƏCƏB ƏL-HƏNBƏLİ

*Kitabın adı və müəllifi:*

**“PEYĞƏMBƏRİN ﷺ İBN ABBASA VƏSİYYƏTİ”**

**İBN RƏCƏB ƏL-HƏNBƏLİ**

*Ərəb dilindən tərcümə edən:*

**MƏCİD EMİN**

*Dini mətnlər üzrə redaktor:*

**SAHİB ƏSƏDOV**

*Redaktor:*

**XUMAR ƏRŞADLI**

## *ÖN SÖZ*

بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur. Biz Ona həmd edir, Ondan kömək diləyir, Ondan bağışlanma istəyir və nəfslərimizin şərindən, pis əməllərimizin nəticəsindən Allaha sığınırıq. Allah kimi doğru yola yönəldərsə, onu azdıran olmaz; kimi də azdırarsa, onu doğru yola yönəldən tapılmaz.

Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, Onun şəriki yoxdur. Və şəhadət edirəm ki, Məhəmməd ﷺ Onun qulu və Elçisidir.

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ حَقَّ تُقَاتِهِ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنْتُمْ مُسْلِمُونَ ﴾[1]

**"Ey iman gətirənlər! Allahdan Ona layiq şəkildə qorxun və ancaq müsəlman olaraq ölün!"**

﴿ يَا أَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ مِنْ نَفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالًا كَثِيرًا وَنِسَاءً ۚ وَاتَّقُوا اللَّهَ الَّذِي تَسَاءَلُونَ بِهِ وَالْأَرْحَامَ ۚ إِنَّ اللَّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا ﴾[2]

**"Ey insanlar! Sizi tək bir candan yaradan, ondan da zövcəsini xəlq edən və onlardan bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah üzərinizdə nəzarətçidir".**

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا ۝ يُصْلِحْ لَكُمْ أَعْمَالَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَمَنْ يُطِعِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوْزًا عَظِيمًا ﴾[3]

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət edərsə, böyük bir uğur qazanmış olar".**

Bizi müsəlman olaraq yaradan, bizi haqq yola yönəldən və aləmlərin Rəbbi olan Allaha həmd-sənalar olsun.

---

[1] "Ali-İmran" surəsi, 102
[2] "Nisa" surəsi, 1
[3] "Əhzab" surəsi, 70–71

**Əziz oxucu!**

Hal-hazırda oxuduğunuz bu kitab Peyğəmbərimizin ﷺ İbn Abbasa (Allah ondan və atasından razı olsun) etdiyi məşhur vəsiyyəti ehtiva edən bir hədisinin geniş və əqidəvi şərhidir. Müəllif bu hədisi sadəcə tərcümə etməklə kifayətlənmir, onun daxilində gizlənən tövhid, qədər, təvəkkül və qəlb tərbiyəsi məsələlərini dərin şəkildə izah edir.

Görkəmli bir alimin qələmindən çıxmış bu dəyərli əsərin ərəbcə mətni və təhqiqi Muhəmməd ibn Nasir əl-Əcmi tərəfindən həyata keçirilmişdir. Biz isə onu Azərbaycan oxucusuna çatdırmağı özümüz üçün şərəf və borc bildik.

Şeyx Muhəmməd Nasir əl-Acmi (Allah onu qorusun) bu risaləyə yazdığı şərhdə (səh. 122) belə demişdir: "Əslində müəllifin – Allah ona rəhmət etsin - bu kitabını bir çox hekayələrlə doldurmuşdur ki, onların əksəriyyətinin Quranda və səhih sünnədə əsası yoxdur. Əksinə, bunlar müxtəlif uydurma rəvayətlərə əsaslanır. Halbuki səhih sünnədə və sələflərin sözlərində olan nəsihətlər kifayət qədər ibrət və öyüd üçün yetərlidir. Biz Allahdan diləyirik ki, bizi də, onu da bağışlasın."

Tərcümə etdiyimiz bu kitabın mənasını bacardığımız qədər düzgün və aydın şəkildə sizə təqdim etməyə çalışdıq. Bildiyimiz kimi, hər bir doğru və müvəffəqiyyətli söz Allahın lütfü və yardımı ilədir; baş verə biləcək hər hansı xəta və nöqsan isə nəfsimizdən qaynaqlanır.

Uca Allahdan müəllifə rəhmət diləyir, bu əsərin Azərbaycan cəmiyyəti üçün faydalı olmasını və oxucuların hidayətinə vəsilə olmasını diləyirik.

## *MÜƏLLİFİN HƏYATI*

**İbn Rəcəb Əl-Hənbəli (706–795 h./1306–1393 m.)**

**Nəsəbi**

O, imam, hafiz, mühəddis, fəqih, zahid və vaiz, Hənbəli məzhəbinin şeyxi Zeynəddin Əbul-Fərəc Əbdürrəhman ibn Əhməd ibn Rəcəb ibn Həsən ibn Muhəmməd ibn Məsud əs-Səlami əl-Bağdadi əd-Diməşqi əl-Hənbəlidir.

**Doğulması və boya-başa çatması**

O, Hicri təqvimlə 706-cı ilin Rəbiul-əvvəl ayında Bağdadda anadan olmuşdur. Sonra atası imam, qiraət alimi və mühəddis Şihabəddin Əbul-Abbas Əhməd ibn Rəcəb ilə birlikdə hələ kiçik yaşlarında Dəməşqə gəlmişdir. Hədis elmini atasının xüsusi qayğısı və diqqəti müşayiətində öyrənməyə başlamışdır.

**Fəzilətləri və məziyyətləri**

Hafiz İbn Rəcəb zahid imam və ibadət əhli olan böyük alimlərdən idi. Qəlblər ona məhəbbətlə meyl etmiş, müxtəlif təbəqələr onun fəzilətini qəbul etmişdir. Onun nəsihət və xatırlatma məclisləri insanlara ümumi fayda verər, qəlblərə güclü təsir göstərərdi.

O, çərşənbə axşamı halqasında və Hənbəli mədrəsəsində dərs deyərdi. Dünyəvi işlərə qarışmaz, hakimiyyət sahiblərinin yanına getməzdi. Dəməşqdə Qassain məhəlləsində yerləşən əs-Sukkəriyyə mədrəsəsində yaşayırdı.

**Müəllimləri**

İbn ən-Nəqib ona icazə vermiş, İmam Nəvəvi də ona icazə yazmışdır. Məkkədə Fəxr Osman ibn Yusifdən birbaşa hədis eşitmişdir. Misirdə Əbul-Fəth Muhəmməd ibn İbrahim əl-Meydumidən, Muhəmməd ibn İsmayıl əl-Xabbazdan; Dəməşqdə İbrahim ibn Davud əl-Əttar, Əbul-Həzm ibn əl-Qalanisi və Tirmizidən; həmçinin İbn Buxarinin tələbələri olan bir qrup alimdən hədis rəvayət etmişdir.

**Tələbələri**

Onun tələbələrindən bəziləri bunlardır:

- Qazil-quzat (baş qazı, baş hakim – red.) Şihabəddin Əbul-Abbas Əhməd ibn Əbi Bəkr (İbn ər-Rəssam kimi tanınırdı)
- Qazı Muhibbəddin Əhməd ibn Nəsrullah əl-Bağdadi
- Davud ibn Süleyman əl-Məvsili əd-Diməşqi
- Muhəmməd ibn Əli əs-Salihi əd-Diməşqi
- Əbu Bəkr ibn Əli ət-Tələfəri
- Qazı Əlaəddin İbn əl-Muğli
- Əlaəddin İbn əl-Ləhhəm
- İzzəddin əl-Məqdisi əl-Hənbəli
- Şəmsəddin Muhəmməd ibn Ubadə əs-Sədi əl-Ənsari əl-Hənbəli və başqaları.

**Əsərləri**

İbn Rəcəb (Allah ona rəhmət etsin) bir sıra dəyərli əsərlər qələmə almışdır. Onlardan bəziləri:

- **“Əl-Qəvaid əl-fiqhiyyə”** – məzhəbə dərin şəkildə bələd olduğunu göstərən əsər
- **“Şərhu Cami ət-Tirmizi”**
- **“Şərhu İləl ət-Tirmizi”**
- **“Səhih əl-Buxari”dən bir hissənin şərhi** (“Cənazələr kitabına” qədər çatmış, lakin tamamlamamışdır)
- **“Şərhu Ərbəin ən-Nəvəvi”**
- Qazı Əbul-Hüseyn Məhəmməd ibn əl-Fərranın “Təbəqat əl-fuqəha əl-Hənbəliyyə” adlı əsərinə yazılmış zeyl (əlavə və davam xarakterli əsər)
- **“Əl-Lətaif fil-vəz və əhval əl-qubur”**

**Vəfatı**

Şeyx Zeynəddin İbn Rəcəb Hicri təqvimlə 95-ci ilin Rəcəb ayında vəfat etmişdir. Dəməşqdə Bab əs-Sağir qəbiristanlığında, Hicri təqvimlə 480-ci ildə vəfat etmiş zahid və fəqih Əbul-Fərəc Əbdülvahid əş-Şirazi əl-Məqdisinin qəbrinin yanında dəfn olunmuşdur. Həmin alim İmam Əhməd ibn Hənbəlin məzhəbini əvvəl Beytül-Məqdisdə, sonra isə Dəməşqdə yaymışdır.

Hafiz Şəmsəddin Muhəmməd ibn Əbi Bəkr əd-Diməşqi belə rəvayət edir: “Onun qəbrini qazan şəxs mənə danışdı ki, vəfatından bir neçə gün əvvəl yanıma gəlib dedi: “Mənim üçün burada bir ləhd (çuxur – red.) qaz”. Dəfn olunduğu yerə işarə etdi. Mən qazdım. İş bitdikdə qəbirə düşdü və orada uzandı, xoşuna gəldi və dedi: “Bu yaxşıdır”. Sonra çıxdı. Allaha and olsun ki, bir neçə gün sonra onun vəfat etdiyini və tabutda gətirildiyini gördüm. Onu həmin ləhddə dəfn etdim”.

Allahdan ona rəhmət diləyirik.

**Mərhəmətli və Rəhimli Allahın adı ilə.**

**Ey Kərim olan Rəbbim, bu işi asanlaşdır!**

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Rəbbimizin sevdiyi və razı qaldığı, Vəchinin kərəm və cəlalına layiq şəkildə, gözəl və bərəkətli bir həmd edirəm! Allahın salavat və salamı ümmi (oxumaq və yazmaq bilməyən – red.) peyğəmbəri Muhəmmədin, onun ailəsinin və səhabələrinin üzərinə olsun!

İmam Əhməd (Allah ona rəhmət etsin) Hənəş əs-Sənani yolu ilə Abdullah ibn Abbasdan (Allah ondan razı olsun) belə rəvayət etmişdir:

**قَالَ: "كُنْتُ رَدِيفَ النَّبِيِّ( صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ) فَقَالَ: يَا غُلامُ -أَوْ يَا غُلَيِّمُ- أَلا أُعَلِّمُكَ كَلِمَاتٍ يَنْفَعُكَ اللهُ بِهِنَّ؟فَقُلْتُ: بَلَى، فَقَالَ: احْفَظِ اللهَ يَحْفَظْكَ، احْفَظِ اللهَ تَجِدْهُ أَمَامَكَ، تَعَرَّفْ إِلَى اللهِ فِي الرَّخَاءِ يَعْرِفْكَ فِي الشِّدَّةِ، وَإِذَا سَأَلْتَ فَاسْأَلِ اللهَ، وَإِذَا اسْتَعَنْتَ فَاسْتَعِنْ بِاللهِ، قَدْ جَفَّ الْقَلَمُ بِمَا هُوَ كَائِنٌ، فَلَوْ أَنَّ الْخَلْقَ كُلَّهُمْ جَمِيعًا أَرَادُوا أَنْ يَنْفَعُوكَ بِشَيْءٍ لَمْ يَكْتُبْهُ اللهُ [عَلَيْكَ] لَمْ يَقْدِرُوا عَلَيْهِ، وَإِنْ أَرَادُوا أَنْ يَضُرُّوكَ بِشَيْءٍ لَمْ يَكْتُبْهُ اللهُ عَلَيْكَ لَمْ يَقْدِرُوا عَلَيْهِ، وَاعْلَمْ أَنَّ فِي الصَّبْرِ عَلَى مَا تَكْرَهُ خَيْرًا كَثِيرًا، وَأَنَّ النَّصْرَ مَعَ الصَّبْرِ، وَأَنَّ الْفَرَجَ مَعَ الْكَرْبِ، وَأَنَّ مَعَ الْعُسْرِ يُسْرًا".**

Mən, Peyğəmbərin ﷺ miniyinin arxa tərəfində oturulu ikən o, dedi: **“Ey oğlan, (yaxud ey balaca oğlum) sənə elə sözlər öyrədimmi ki, Allah onların vasitəsilə sənə fayda versin?”** Mən dedim: **“Bəli!”** O buyurdu: **“Allahı qoru ki, Allah da səni qorusun. Allahı qoru, Onu qarşında (yanında) görərsən. Rahatlıq vaxtında Allahı tanı ki, O da səni çətinlikdə tanısın. Əgər bir şey istəsən, Allahdan istə. Əgər kömək diləsən, Allahdan kömək dilə. Bil ki, olacaq hər şey yazılmış və qələm qurumuşdur. Əgər bütün məxluqat bir yerə yığışıb sənə bir fayda vermək istəsə, Allah onu sənin üçün yazmayıbsa, əsla bacarmazlar. Əgər sənə bir zərər yetirmək istəsələr, Allah onu sənin üçün yazmayıbsa, əsla bacarmazlar. Bunu da bil ki, sevmədiyin bir şeyə səbir etməkdə sənin üçün böyük bir xeyir var. Bil ki, qələbə səbirlə, sevinc kədərlə birlikdədir. Hər çətinliklə yanaşı bir asanlıq vardır ”[4].**

İmam Əhməd eyni hədisi bu ləfzlə də rəvayət etmişdir:

**يَا غُلامُ، إِنِّي مُحَدِّثُكَ حَدِيثًا: احْفَظِ اللهَ يَحْفَظْكَ، احْفَظِ اللهَ تَجِدْهُ تُجَاهَكَ، إِذَا سَأَلْتَ فَاسْأَلِ اللهَ، وَإِذَا اسْتَعَنْتَ فَاسْتَعِنْ بِاللهِ، فَقَدْ رُفِعَتِ الأَقْلامُ وَجُفَّتِ الكُتُبِ، فَلَوْ جَاءَتِ**

---

[4] İmam Əhməd, “Müsnəd”, 1/293

الأُمَّةُ يَنْفَعُوكَ بِشَيْءٍ لَمْ يَكْتُبْهُ اللهُ لَكَ لَمَا اسْتَطَاعَتْ، وَلَوْ أَرَادَتْ أَنْ تَضُرَّكَ بِشَيْءٍ لَمْ يَكْتُبْهُ اللهُ لَكَ لَمَا اسْتَطَاعَتْ عَلَيهِ، وَاعْلَمْ أَنَّ فِي الصَّبْرِ عَلَى مَا تَكْرَهُ خَيْرًا كَثِيرًا، وَأَنَّ النَّصْرَ مَعَ الصَّبْرِ، وَأَنَّ الْفَرَجَ مَعَ الْكَرْبِ، وَأَنَّ مَعَ الْعُسْرِ يُسْرًا".

**"Ey oğul, sənə bəzi sözlər deyəcəyəm: Allahı qoru ki, Allah da səni qorusun. Allahı qoru, Onu qarşında (yanında) görərsən. Əgər bir şey istəsən, Allahdan istə. Əgər kömək diləsən, Allahdan kömək dilə. Qələmlər qaldırıldı və kitablar qurudu. Əgər bütün məxluqat bir yerə yığışıb sənə bir fayda vermək istəsə, Allahın sənin üçün yazmadığı faydanı verə bilməzlər. Əgər sənə bir zərər yetirmək istəsə, Allahın sənin üçün yazmadığı bir zərəri verməyə gücləri çatmaz. Bunu da bil ki, sevmədiyin bir şeyə səbir etməkdə sənin üçün böyük bir xeyir var. Bil ki, qələbə səbirlə, sevinc kədərlə birlikdədir. Hər çətinliklə yanaşı bir asanlıq vardır"[5].**

Bu hədis İmam Tirmizinin rəvayətində isə bu şəkildədir:

إِنِّي أُعَلِّمُكَ كَلِمَاتٍ: احْفَظِ اللَّهَ يَحْفَظْكَ، احْفَظِ اللَّهَ تَجِدْهُ تُجَاهَكَ، إِذَا سَأَلْتَ فَاسْأَلِ اللَّهَ، وَإِذَا اسْتَعَنْتَ فَاسْتَعِنْ بِاللَّهِ، وَاعْلَمْ أَنَّ الأُمَّةَ لَوْ اجْتَمَعَتْ عَلَى أَنْ يَنْفَعُوكَ بِشَيْءٍ لَمْ يَنْفَعُوكَ إِلَّا بِشَيْءٍ قَدْ كَتَبَهُ اللَّهُ لَكَ، وَإِنْ اجْتَمَعُوا عَلَى أَنْ يَضُرُّوكَ بِشَيْءٍ لَمْ يَضُرُّوكَ إِلَّا بِشَيْءٍ قَدْ كَتَبَهُ اللَّهُ عَلَيْكَ، رُفِعَتِ الأَقْلَامُ وَجَفَّتْ الصُّحُفُ.

**"Ey oğul, gəl sənə bəzi şeylər öyrədim: Allahı qoru ki, Allah da səni qorusun. Allahı qoru, Onu qarşında (yanında) görərsən. Əgər bir şey istəsən, Allahdan istə. Əgər kömək diləsən, Allahdan kömək dilə. Bil ki, bütün ümmət sənə xeyir vermək üçün əlbir olsa belə, Allahın sənin lehinə yazdığı xeyirdən başqa bir şeylə sənə fayda verə bilməz. Həmçinin onlar sənə zərər vurmaq üçün əlbir olsalar belə, Allahın sənin əleyhinə yazdığından başqa bir şeylə sənə zərər yetirə bilməzlər. Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur"[6].**

İmam Tirmizi dedi: "*Bu, "həsən-səhih" hədisdir"*.

Hafiz əbu Abdullah ibn Məndə dedi: "*Bu hədisin İbn Abbasdan bir neçə yolla rəvayəti vardır və bunların içərisində bu (sonuncu) rəvayət ən səhihidir"*. O dedi: "*Bu isnad (sənəd) məşhurdur və raviləri etibarlıdır"*.

**(Müəllif) deyir:** *Bu hədis İbn Abbasdan bir neçə nəfərin rəvayəti ilə də gəlib. Onlardan oğlu Əlidən, Əta ibn əbi Rabahdan, köləsi İkrimə və başqalarından rəvayət edilmişdir.*
Uqeyli deyib ki, bu hədisin bütün isnadları zəifdir, lakin bəziləri digərlərindən daha düzgündür[7].

---

[5] İmam Əhməd, "Müsnəd", 1/307
[6] Tirmizi, 2516
[7] "Duəfəul-Kəbir", 3/54

Peyğəmbərin ﷺ İbn Abbasa verdiyi bu tövsiyə həmçinin Əli ibn Əbi Talibdən, Əbu Səid əl-Xudridən, Səhl ibn Saddan və başqa səhabələrdən də rəvayət olunub, lakin onların sənədlərində bəzi iradlar (zəiflik) var.

**(Müəllif) deyir:** Onun isnadları içində ən möhkəmi Tirmizinin Hənəş yolu ilə İbn Abbasdan rəvayətidir ki, biz onu yuxarıda qeyd etdik. Hədisin isnadı "həsən"dir və hər hansı bir zərəri yoxdur. Biz bu hədisin yollarını və onlara aid izahları **"Şərh ət-Tirmizi"** adlı kitabımızda tam olaraq açıqlamışıq.

Buradakı məqsədimiz isə hədisin mənasını və hədisdə yer alan ifadələrin şərhini izah etməkdir. Çünki bu hədis çox böyük tövsiyələri və dinin ən mühüm qaydalarını əhatə edir.

İmam Əbul-Fərəc İbnul-Cövzi (Allah ona rəhmət etsin) **"Seydul-Xatir"** adlı kitabında belə demişdir: "*Mən bu hədisi diqqətlə düşündüm, o məni heyrətə gətirdi və az qala dəli olacaqdım! Bu hədisi bilməyənə və ya mənasını az başa düşənə (tam başa düşməyənə) təəssüflər olsun!*"

# "احفظ الله يحفظك"

# “Allahı qoru ki, Allah da səni qorusun”

Yəni Allahın hüdudlarını, haqlarını, əmrlərini və qadağalarını qoru. Onu qorumaq - Onun əmrlərini yerinə yetirməklə, qadağalarından çəkinməklə və müəyyən etdiyi hüdudları aşmamaqla olur.

Buna bütün vacibatları yerinə yetirmək və bütün qadağaları tərk etmək daxildir. Necə ki Əbu Sələbədən rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ deyir: “**Həqiqətən, Allah bəzi işləri fərz buyurdu, onları zay etməyin! Bəzi şeyləri haram etdi, onları pozmayın! Bəzi hüdudlar qoydu, onları aşmayın!”**[8]

Bunların hamısı Allahın hüdudlarına daxildir, necə ki, Uca Allah buyurur:

**“Allahın hüdudlarını qoruyan kimsələrdir…”** *(“Tövbə” surəsi, 112)*

Həmçinin Uca Allah belə buyurur:

**“Budur sizə vəd edilən (Cənnət). O, hər bir (tövbə edib Allaha) üz tutan, (Onun əmrlərini) qoruyan, Rəhmandan (Onu) görmədən qorxan və (Allaha) yönəlmiş qəlblə gələn kimsələr üçündür”** (“Qaf” surəsi, 32-33).

Ayədə keçən **“qoruyan”** kəlməsi “Allahın əmrlərini yerinə yetirən və özünü günahlardan qoruyan” kimi təfsir edilir və hər iki məna ayədə yer alır. Kim Allahın bəndələrinə olan vəsiyyətini qoruyub saxlayar və ona əməl edərsə, o da bu kəslərdəndir. Ümumilikdə bunların hamısı bir məna ətrafında cəm olunur.

Uca Allah Cənnət əhlini öz uca Zatına ziyarətə çağırdıqda və onlar üçün pərdəni qaldırdıqda belə buyuracaq: “**Xoş gəldiniz, ey Mənim vəsiyyətimi qoruyan, əhdimə sadiq qalan, gizlində Məndən qorxan və hər bir halda Məndən çəkinən (qorunan) bəndələrim!”**[9]

Peyğəmbərin ﷺ İbn Abbasa **“Allahı qoru”** deməsi bütün bunları özündə cəm edir.

Əmrlər içində qorunması ən vacib olanlardan biri beş vaxt namazlardır. Uca Allah buyurur:

**“Namazları, (xüsusilə) orta namazı qoruyun...”** *(“Bəqərə” surəsi, 238).*

**“O kəslər ki, namazlarını qoruyurlar”** *(“Məaric” surəsi, 34).*

---

[8] Təbərani, “Kəbir”, 22/589, Dəraqutni, 4/184
[9] İbn əbi əd-Dünya, “Sıfətul-Cənnəh”, 53

Peyğəmbər ﷺ buyurmuşdur: **“Kim namazlarını qoruyarsa, Allah onun cənnətə daxil olacağına zəmanət vermişdir…”**[10]

Başqa bir hədisdə isə buyurmuşdur: **“Kim namazlarını qoruyarsa, o namazlar Qiyamət günü onun üçün nur, dəlil (bürhan) və nicat (qurtuluş) olar”**[11]**.**

Eləcə də dəstəmaz qorunmalı olan əməllərdəndir. Çünki təmizlik namazın açarıdır. Peyğəmbər ﷺ buyurmuşdur: **“Dəstəmazı yalnız mömin qoruyar”**[12]**.** Çünki bəndənin dəstəmazı pozulduqda bunu yalnız Allah bilər. Namaz üçün dəstəmazı qorumaq qəlbdəki imanın əlamətlərindəndir.

Allahın qorumağı əmr etdiyi şeylərdən biri də andlardır. Uca Allah andların kəffarəsindən bəhs edərkən buyurur:
**“Bu, içdiyiniz andların kəffarəsidir. Andlarınızı qoruyun!”** *(“Maidə”, 89)*

Çünki insanlar çox vaxt and içir və andların hökmü müxtəlif olur: bəzən onun üçün sadəcə kəffarə tələb olunur, bəzən böyük kəffarə vacib olur, bəzən isə talaq (boşanma) kimi bağlayıcı hökmlər əmələ gəlir. Kim andlarını qoruyursa, bu, onun qəlbində imanın olduğuna dəlalət edir.

Sələf alimləri andlarına çox diqqətlə riayət edərdilər. Onlardan elələri var idi ki, heç vaxt Allaha and içməzdi. Bəziləri isə o qədər ehtiyatlı olardı ki, andını pozduğuna şübhə etdikdə belə kəffarə verərdi. İmam Əhmədin (Allah ona rəhmət etsin) ölüm yatağında ***“Keçmişdə andımı pozmuş ola bilərəm”*** deyərək and kəffarəsi verdiyi rəvayət edilmişdir**.**

Rəvayət olunur ki, Əyyub (Allahın ona salamı olsun) Allahın adı ilə and içən iki nəfərin yanından keçəndə gedib onlar üçün kəffarə verərdi ki, bilmədən günaha düşməsinlər. Buna görə də o (Əyyub), arvadına yüz şallaq vurmağa and içəndə, Allah ona özünün və başqalarının andını qoruduğu üçün rüsxət verdi. Alimlər arasında onun bu rüsxəti istifadə edib-etmədiyinə dair ixtilaf var.

Yezid ibn əbi Həbib dedi: “Bizə rəvayət edildiyənə görə, Ərşi daşıyan mələklərdən bəzilərinin gözlərindən çaylar kimi yaş axır. Onlar başlarını qaldırıb deyirlər: “Sən pak və müqəddəssən! Biz Səndən haqqı ilə qorxa bilmirik”. Uca Allah buyurur: **“Lakin Mənim adıma yalan and içənlər bunu heç bilmirlər”.**

Yalan and içmək barədə Quran və Sünnədə çox sərt qınaqlar vardır. Allahın adı ilə tez-tez yalandan and içmək, Allah haqqında cahil olmaqdan və qəlblərdə Allah qorxusunun az olmasından qaynaqlanır.

**Mömінin qoruması vacib olan şeylərdən biri də başı və qarnıdır.**

---

[10] İmam Malik, “Muvatta”, 1/23. İmam Əhməd, 5/319
[11] İmam Əhməd, 2/169. Təbərani, “Əvsat”, 1868
[12] İmam Əhməd, 5/280. Əd-Dərimi, 1/168

İbn Məsud (Allah ondan razı olsun) mərfu hədisdə Peyğəmbərin ﷺ belə buyurduğunu rəvayət edir:

**“Allahdan layiqincə həya etmək odur ki, başı və onun əhatə etdiyi orqanları, qarını və onun ehtiva etdiyi orqanları günah və haramlardan qoruyasan”** [13]**.**

Haramlardan qorunması tələb olunanlara baş və onun ehtiva etdiyi orqanlar – qulaq, göz və dil daxildir. Bütün bunlar Uca Allahın bu kəlamında cəmlənmişdir:

**“Həqiqətən, qulaq, göz və ürək, bunların hamısı barəsində sorğu-sual olunacaqdır”** *(“İsra” surəsi, 36).*

Qarını və onun ehtiva etdiklərini qorumağa isə, qarına haram şeyləri (haram qazanc, haram yemək) daxil etməkdən çəkinmək daxildir.

Qorunması lazım olan ən mühüm orqanlar isə **dil** və **övrət yeridir**.

Əbu Hureyra (Allah ondan razı olsun) Peyğəmbərin ﷺ belə buyurduğunu rəvayət edir: **“Kim iki çənəsi arasındakını (dilini) və iki ayağı arasındakını (övrət yerini) qoruyarsa, cənnətə girər”**[14]**.**

Buxari isə Səhl ibn Saddan (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Kim mənə iki çənəsi arasındakını (dilini) və iki ayağı arasındakını (övrət yerini) qorumağa zəmanət versə, mən də ona cənnəti zəmanət verərəm “**[15]**.**

İmam Əhmədin “Müsnəd”ində Əbu Musadan (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurmuşdur: **“Kim iki çənəsi arasındakı (dilini) və övrət yerini qoruyarsa, cənnətə daxil olar”**[16]**.**

Uca Allah xüsusilə övrət yerlərini qorumağı əmr etmiş və onu qoruyanları təriфləmişdir:

**“Möminlərə de ki, gözlərini harama baxmaqdan çəksinlər və övrət yerlərini qorusunlar...”** *(“Nur” surəsi, 30).*

**“...və övrət yerlərini qoruyan kişi və qadınlar...”** *(“Əhzab” surəsi, 35).*

**“O kəslər ki, övrət yerlərini qoruyurlar. Yalnız zövcələri və ya sahib olduqları cariyələr istisnadır…”** *(“Muminun” surəsi, 5-6).*

Əbu İdris əl-Xövlani deyir ki: ***“Allah Adəmi (Allahın ona salamı olsun) yer üzünə endirəndə ona ilk vəsiyyəti övrətini qorumaq və onu haramda istifadə etməmək olmuşdur”.***

---

[13] Tirmizi, 2458. İmam Əhməd, “Müsnəd”, 5/280
[14] Tirmizi, 2409. Hakim, “əl-Mustədrək”, 4/357
[15] Buxari, 6474
[16] İmam Əhməd, “Müsnəd”, 4/398

## "يحفظك"

## "Allah da səni qorusun"

Yəni, kim Allahın hüdudlarını qoruyar, Onun haqlarına riayət edərsə, Allah da onu qoruyar. Çünki hər əmələ veriləcək mükafat, o əməlin cinsinə görə olur. Necə ki, Uca Allah buyurur:

**"Mənim əhdimə vəfa edin ki, Mən də sizin əhdinizə vəfa edim"** *("Bəqərə" surəsi, 40).*

**"Məni zikr edin ki, Mən də sizi zikr edim"** *("Bəqərə" surəsi, 152).*

**"Əgər siz Allaha (Onun dininə) yardım etsəniz, O da sizə yardım edər"** ("Muhəmməd" surəsi, 7).

Uca Allahın Öz bəndəsini qorumasına onun mal-dövləti də daxildir.

İbn Ömər (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ səhər və axşam bu duaları heç vaxt tərk etməzdi:

**اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي دِينِي وَدُنْيَايَ وَأَهْلِي وَمَالِي، اللَّهُمَّ اسْتُرْ عَوْرَتِي وَآمِنْ رَوْعَاتِي وَاحْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي وَعَنْ شِمَالِي وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِعَظَمَتِكَ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي.**

**"Allahım! Səndən dünya və axirətdə afiyət (salamatlıq) istəyirəm. Allahım! Dinimdə, dünyamda, ailəmdə və malımda Səndən əfv və afiyət istəyirəm. Allahım! Ayıblarımı ört, qorxduğum şeylərdən məni əmin et. Önümdən, arxamdan, sağımdan, solumdan və üzərimdən məni qoru! Qəfil bəlaya düçar olmaqdan Sənin Əzəmətinə sığınıram"[17].**

Həmin bu dua Uca Allahın bu kəlamından götürülüb:

**"Allahın əmri ilə insanın həm önündə, həm də arxasında daim onunla birlikdə olub onu qoruyanlar (mələklər) vardır"** *("Rad" surəsi, 11).*

İbn Abbas (Allah ondan və atasından razı olsun) dedi: "Ayədə keçən **"qoruyanlar"** mələklərdir, onlar Allahın əmri ilə insanları qoruyur. Allahın təqdir etdiyi hər hansı bir şey gəldikdə isə, onu qorumağı tərk edirlər"[18].

---

[17] İmam Əhməd, "Müsnəd" 2/25. Əbu Davud, 5074. Nəsai, 8/272. İbn Macə, 3871

[18] İbn Cərir ət-Təbəri, "Təfsir", 13/118

Əli (Allah ondan razı olsun) dedi: “Hər bir insanın yanında onu qoruyan iki mələk var. Onlar Allahın təqdir etmədiyi şeylərdən onu qoruyarlar. Lakin qədər gəldikdə onu tərk edərlər. Həqiqətən, əcəl möhkəm bir qalxandır”[19].

Mücahid dedi: “Hər qul üçün bir mələk vardır ki, yatanda və oyaq olanda onu cinlərdən, insanlardan və zəhərli heyvanlardan qoruyur. Hər hansı bir şey ona yaxınlaşanda mələk deyir: **“Arxana bax!”** Ancaq Allahın təqdir etdiyi şeyə qarışa bilməzlər”.

**Allahın bəndəni qorumasına onun bədəninin sağlamlığı, gücü, ağlı və malı da daxildir.**

Sələfdən bəziləri demişdir: ***“Alim kədərlənməz”.***

Bəziləri isə deyib: ***“Kim Qurani-Kərimi əzbərləyər və onunla əməl edərsə, Allah onun ağlını qoruyar”.***

Bəziləri buna Uca Allahın bu kəlamını dəlil gətiriblər:

**“Sonra onu aşağıların ən aşağısı etdik...” (“Tin” surəsi, 5) —** *yəni ömürün ən zəif dövrünə —* **“İman gətirib xeyirxah işlər görənlər istisna olmaqla! Onlar üçün tükənməz mükafat hazırlanmışdır”** (“Tin” surəsi, 6).

Əbu Tayyib ət-Təbəri[20] yüz yaşını keçmişdi, ağlı və bədəni sağlam idi. Bir gün bir gəmidən yerə möhkəm tullandı. Bəziləri təəccübləndi və ona irad tutdular, o isə dedi: “Bunlar gənclikdə günahlardan qoruduğumuz bədən üzvləridir. Allah da qocalığımızda onları bizim üçün sağlam saxladı”.

Təbii ki, bunun əksi də yaşanıb: bir gün Cüneyd dilənən qoca bir kişi gördü və dedi: “Bu adam gəncliyində Allahın əmrlərini zay edib, Allah da qocalığında onu zay edib”.

Həmçinin Allah Öz bəndəsinin salehliyi və Allahın hüdudlarını qoruması səbəbi ilə onun övladlarını və nəvələrini də qoruya bilər. Necə ki, Uca Allah demişdir:

“**Divara gəldikdə isə, o, şəhərdəki iki yetim oğlan uşağına məxsus idi. Onun altında onlara aid bir xəzinə vardı. Ataları da saleh insan idi. Rəbbin istədi ki, onlar həddi-büluğa çatıb Rəbbindən bir rəhmət olaraq öz xəzinələrini çıxarsınlar”** (“Kəhf” surəsi, 82). Ayədən məlum olduğu kimi, ataları saleh biri olduğuna görə iki yetim uşaq Allah tərəfindən qorundu.

---

[19] İbn Cərir ət-Təbəri, “Təfsir”, 13/119

[20] Tam adı: Əbu ət-Tayyib Tahir ibn Abdullah ibn Təbəri əl-Amuli. Təvəllüdü və doğulduğu yer: Hicri təqvimlə təxminən 348-ci il (Miladi təqvimlə 959-960-cı il), Təbəristan (indiki İranın şimal hissəsi).Vəfatı: Hicri təqvimlə 450-ci il (Miladi təqvimlə 1058-ci il), Bağdad

Muhəmməd ibn Münkədir demişdir: "Həqiqətən, Allah saleh bir insan səbəbi ilə onun övladını, nəvəsini, olduğu kəndi və ətrafdakı kiçik evləri belə qoruyar. Onlar Allahın qoruması və himayəsi altında qalarlar".

Səid İbn Museyyib oğluna demişdir: "Ey oğlum! Sənin Allah tərəfindən qorunmağın üçün çoxlu namaz qıldım". Sonra bu ayəni oxudu: **"Onların atası əməlisaleh adam olmuşdur"** *("Kəhf" surəsi, 82).*

Ömər ibn Əbdüləziz demişdir: "Bir mömin öldüyü vaxt Allah onun övladlarını və onların da övladlarını qoruyar".

Yəhya ibn İsmayıl ibn Sələmə dedi: "Məndən böyük bir bacım var idi, ağıl xəstəliyinə tutulmuşdu. Sonra dəli oldu, tez-tez ağlı başından gedirdi. Evin damında, otağın ən uzaq küncündə qalırdı. Beləcə on beş il bu halda qaldı. Bir gecəyarısı yatmışdım, birdən qapı döyüldü. Dedim: Kimdir? Dedi: Bacın Kəcəh. Dedim: Bacım? Dedi: Sənin bacın. Qapını açdım, sonra bacımı içəri saldım və yanımda otuzudurdum. Xəstəliyindən qurtulmuşdu. Bunun necə baş verdiyini soruşdum. Dedi: Bu gecə yuxuda mənə deyildi ki: "Allah atan İsmayılı sənin baban Sələməyə görə qorudu, səni də atan İsmayıla görə qorudu. İstəsən dua et, sənə gələn bu xəstəlik getsin, istəsən də bu müsibətə səbir et və buna görə cənnətə daxil ol. Çünki Əbu Bəkr və Ömər atanı və babanı sevdiyinə görə Allah dərgahında sənə şəfaət etdilər". Mən dedim: Əgər birini seçməliyəmsə, bu halıma səbir edib cənnəti seçirəm. Həqiqətən, Allahın rəhməti qullarına çox genişdir, əgər istəsə ikisini də mənə verə bilər. Daha sonra mənə deyildi: Allah sənə ikisini də verdi və atanla babandan Əbu Bəkr və Öməri sevdiklərinə görə razı qaldı. Dur, aşağı düş!" və Allah onun halını tamamilə sağaltdı".

**Bəndə Allahın itaəti ilə məşğul olduğu halda Allah da onu qoruyar**

Necə ki, İmam Əhmədin "Müsnəd"ində bir kişi Humeyd ibn Hilaldan belə rəvayət edir: Mən Peyğəmbərin ﷺ yanına gəldim. O mənə bir evi göstərib dedi: "Bu evdə yaşayan bir qadın var idi. O, müsəlmanlarla birlikdə səriyyəyə (cihada) qatılmış, on iki keçisini və yun əyirən alətini evdə qoymuşdu. Qayıtdıqda onları yerində tapmadı. Sonra: "Ey Rəbbim! Sən Öz yolunda çıxanlara qoruma vəd etmisən. Mən də Sənin yolunda çıxmışam, amma keçimi və yun əyirən alətimi itirmişəm. Ey Rəbbim! Səndən keçimi və yun əyirən alətimi istəyirəm!" deyə dua etdi. Peyğəmbər ﷺ bu qadının Rəbbinə necə israrla yalvardığını dilə gətirdi və buyurdu: "Səhər açılanda o qadının keçisi geri qayıtdı, hətta bir o qədər də artıq oldu; yun əyirən aləti də geri gəldi, hətta bir o qədər də artıq oldu. İndi get, onları al!" O kişi dedi: "Yox, mən səndən eşitdiklərimi təsdiq edirəm".

Şeybani Rai səhrada qoyun otarardı. Cümə namazı vaxtı gələndə o, qoyunların ətrafına bir xətt çəkər, gedib cümə namazını qılar, sonra geri dönərdi. Qoyunlar da o geri gələnə qədər yerlərindən tərpənməzdilər.

Sələfdən bir nəfər tərəzidə qızılları çəkirdi. Azan səsini eşidəndə əşyalarını olduğu kimi qoyub namaza getdi. Namazdan qayıdanda qızılları topladı, heç bir əskik çıxmadı.

**Allahın bəndəni dünyada bir qoruması da odur ki, Onun hüdudlarını qoruyan bəndələri cinlərin və insanların şərindən qoruyar.**

Uca Allah belə buyurur:

"**Kim Allahdan qorxarsa, Allah onun üçün bir çıxış yolu yaradar"** *("Talaq" surəsi, 2).*

Aişə (Allah ondan razı olsun) dedi: "Yəni Allah dünyada onu sıxan hər dərd və qəmdən onu qoruyar".

Rabi ibn Xuseym dedi: "Allah insanları sıxıntıya düşürən hər bir işdə bir çıxış yolu göstərər".

Aişə (Allah ondan razı olsun) Müaviyəyə (Allah ondan razı olsun) məktub yazdı: "Əgər Allahdan qorxsan, Allah səni insanlardan qoruyar. Əgər insanlardan qorxsan, onlar səni Allahdan gələcək heç nədən qurtara bilməzlər"[21].

Sultanlardan biri Həkəm ibn Əmr əl-Ğifarəiyə bir məktub yazdı və ondan Allahın Kitabına zidd bir əmri yerinə yetirməsini istədi. Həkəm isə ona belə cavab yazdı: "Məktubunuzu oxudum və bəzi əmrlərin Allahın Kitabına müxalif olduğunu gördüm. Əgər göylər və yer bir yamaq olsa və insana yapışdırılsa, o, Allahdan qorxduğu müddətcə Allah ona bir çıxış yolu verər. Vəssalam!"

Bəziləri şeir şəklində demişlər:

Allahdan qorxan nicat tapar, qurtular,
Arzusuna çatar, istədiyi xeyrə qovuşar.
Kim Allahdan qorxar, təqva sərgilər,
Allah ona çıxış yolu göstərər.
Ummadığı yerdən ruziləndirər,
İşi çətinə düşsə, rahatlıq verər.

Sələfdən bəziləri öz qardaşlarına məktub yazaraq deyərdilər: "Bil ki, kim Allahdan qorxarsa, o, özünü (nəfsini) qorumuş olar. Kim də Allah qorxusunu zay edərsə, o, özünü zay etmiş olar. Allah isə ona möhtac deyildir".

**Allahın Özünü qoruyanı necə möcüzəvi şəkildə qorumasına gözəl bir misal da budur:**

Allah bəzən təbiəti etibarilə zərərli olan heyvanları belə bəndəsini zərərdən qorumağa və onun xeyrinə çalışmağa vadar edər. Məsələn, Peyğəmbərin ﷺ azad etdiyi kölənin başına belə bir hadisə gəlmişdi: bir dəfə onun mindiyi gəmi dənizdə xarab oldu, o isə bir adaya çıxdı. Orada bir yırtıcı heyvanla (aslanla) qarşılaşdı. O dedi: "Ey aslan! Mən Peyğəmbərin köləsiyəm.

[21] İbn əbi Şeybə, "Musannəf", 7/244. Beyhəqi, 885

Məndən uzaq dur”. Aslan onun ətrafında fırlanmağa başladı və yol göstərərək onu sahilə qədər apardı, sonra da başını yelləyib sanki vidalaşırmış kimi ondan ayrıldı”[22].

Əbu İbrahim səhrada, bir kilsənin yaxınlığında xəstələndi və öz-özünə dedi: “Kaş kilsənin yanında xəstələnərdim, rahiblər məni müalicə edərdilər”. Bu əsnada bir aslan gəldi, onu belinə alıb kilsənin qapısına qədər apardı. Rahiblər onu görüb ona kömək etdilər və bu hadisə nəticəsində onların dörd yüzü İslamı qəbul etdi.

İbrahim ibn Ədhəm bir bağda yatarkən onun başı üzərində ağzında nərgiz gülü tutmuş bir ilan vardı. İlan onu qoruyur, heç nəyi ətrafına yaxınlaşmağa qoymurdu. İbrahim ayılana qədər ilan onu qorumağa davam etdi.

Beləliklə, kim Allahı (dinini) qoruyarsa, Allah da onu qoruyar — hətta təbiətcə zərərli olan heyvanları belə ona qoruyucu edər**.** Kim də Allahın hüdudlarını qorumazsa, Allah da onu qorumaz, belə ki, xeyir gözlədiyi adamdan da ona zərər gələr. Hətta ən yaxınları, ən çox ümid etdiyi insanlar belə ona əziyyət verərlər.

Sələflərdən bəziləri belə demişlər: ***“Mən Allahın əmrinə asilik etdiyimi xidmətçimin və eşşəyimin davranışından anlayıram”*** [23]**.** Yəni xidmətçisi onun sözünə qulaq asmaz, əsəbi olar, eşşəyi isə ona itaət etməz, minmək istəyəndə ona minməyə icazə verməz. Xeyir bütövlüklə Allahın itaətində və Ona yönəlməkdədir, şər isə bütövlüklə Ona asilikdə və Ondan üz çevirməkdədir.

Ariflərdən biri demişdir: “Kim öz Rəbbinin dərgahından ayrı düşərsə, onun ayaqları bir daha heç vaxt sabitqədəm olmaz”.

Bəziləri də bu mənanı şeirlə bu cür ifadə etmişlər:

Allaha and olsun, nə vaxt sizi ziyarət etsəm,
Yer sanki mənə daralır.
Nə vaxt qapınızdan ayrılmaq istəsəm,
Uğursuzluq məni sarıb bürüyür.
Nə olar, məni əfv edin, bağışlayın, yaramı sarın,
Bir yaxşılıq edin, bu halım sizi sevindirsin.

---

[22] Əbu Nuaym, “Hilyətul-Övliya”, 1/369
[23] Əbu Nuaym, “Hilyətul-Övliya”, 8/109

## Allahın Öz qullarının dinini və imanını qoruması

Qorumanın ikinci növü – bu, ən şərəflisi və ən üstünüdür – Allahın Öz qullarının dinini və imanını qorumasıdır. Yəni Allahın Öz bəndəsinin dinini və imanını zərərli şübhələrdən, azdırıcı bidətlərdən və haram şəhvətlərdən ömrü boyu qoruması və onu bu şeylərdən uzaq tutmasıdır. Beləcə insan ölüm anında ruhunu iman üzərində təslim edər.

Həkəm ibn Əbban, Əbu Məkkidən belə nəql edir: "Qulun ölümü əsnasında mələyə deyilər: "Başını iylə!" O deyər: "Başından Quran qoxusu alıram". Sonra deyilər: "Qəlbini iylə!" O deyər: "Qəlbindən oruc qoxusu alıram". Sonra deyilər: "Ayaqlarını iylə!" O deyər: "Ayaqlarından gecə namazının qoxusu alıram". Bundan sonra deyilər: "O öz nəfsini qorumuş, Allah da onu qorumuşdur"[24].

Bəra ibn Azibin (Allah ondan razı olsun) hədisində deyilir ki, Peyğəmbər ﷺ yatmazdan əvvəl belə deməyi ona öyrətmişdi:

**"اللهم إن قبضت نفسي فارحمها وإن أرسلتها فاحفظها بما تحفظ به عبادك الصالحين".**

**"Allahım! Əgər canımı alacaqsansa, ona rəhm et. Əgər onu geri qaytaracaqsansa (yəni məni sabaha çıxaracaqsansa), onu Sənin saleh bəndələrini qoruduğun kimi qoru"[25].**

Ömər (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ ona belə deməyi öyrətmişdi:

**اللَّهُمَّ احْفَظْنِي بِالْإِسْلَامِ قَائِمًا، وَاحْفَظْنِي بِالْإِسْلَامِ قَاعِدًا، وَاحْفَظْنِي بِالْإِسْلَامِ رَاقِدًا، فَلَا تُطِعْ فِيَّ عدوًا ولا حاسدً.**

**"Allahım! Məni ayaq üstə olarkən, oturarkən, yatarkən İslam ilə qoru. Düşmənlərin və həsəd edənlərin mənim haqqımda arzularını gerçəkləşdirmə!"[26]**

Peyğəmbər ﷺ səfərə çıxmaq istəyən birini yola salarkən ona belə deyərdi:

**"أستودع الله دينك وأمانتك وخواتيم عملك"**

---

[24] İbn əbi əd-Dünya nəql etmişdir.

[25] Bu hədis bu ifadə ilə Bəradan nəql olunaraq "Səhiheyn" – yəni Buxari və Muslim – kitablarında yer almamışdır. Lakin bu mənanı daşıyan hədis Əbu Hureyradan rəvayət olunmuş, Buxari (6330) və Muslim (2714) onu qeyd etmişdir. Bəradan gələn hədisdə isə bu ifadə yer alır: **"Yatacağın zaman dəstəmaz aldığın kimi dəstəmaz al, sonra sağ böyrün üstə uzan və de: "Allahım, üzümü sənə təslim etdim…"** Hədisin davamı var. Bu hədisi Buxari (6311) və Muslim (270) rəvayət etmişdir.

[26] İbn Hibban, 2230. Onun isnadında Həşim ibn Abdullah ibn Zübeyr ilə Ömər arasında qopuqluq (isnadda kəsinti) vardır.

**“Dinini, əmanətini və əməllərinin sonunu Allaha əmanət edirəm”[27].**

Başqa bir rəvayətdə isə deyilir ki, Peyğəmbər ﷺ belə deyərdi:

**"إن الله إذا استودع شيئًا حفظه"**

**“Həqiqətən, Allah bir şeyi əmanət olaraq götürdükdə, onu qoruyar”[28].**

Ənəsdən mərfu yolla rəvayət edildiyinə görə, Peyğəmbər ﷺ belə buyurdu: **“Qul namazı layiqincə qıldıqda, o namaz göyə doğru qalxar və günəşin işığı kimi nur olar. Sonra sahibinə belə deyər: Sən məni necə qorudunsa, Allah da səni elə qorusun. Əgər bəndə namaza diqqət göstərməz və onu xarab edərsə, o namaz köhnəlmiş bir parça kimi sahibininin əlinə və ayağına dolaşar daha sonra sahibinin üzünə çırpılaraq belə deyər: Sən məni (namazı) xarab etdiyin kimi, Allah da səni xarab etsin!”**[29]

Ömər (Allah ondan razı olsun) xütbəsində belə deyərdi: “Allahım! Bizi qorumanla himayə et və əmrin üzərində ayaqlarımızı sabit et!”[30]

Bir adam səhabələrdən (salehlərdən) birinə “Allah səni qorusun!” deyə dua etdi. O isə belə cavab verdi: “Ey qardaşım, qorunmağımı deyil, imanımın qorunmasını dilə”. Yəni əsas olan dinin qorunması üçün dua etməkdir. Çünki dünyəvi qorunma həm saleh, həm də fasiq insanlara aid ola bilər. Allah isə möminin dinini qoruyar, onun dininə zərər verəcək şeylərlə arasına maneələr qoyar, bəzən bəndə bu maneələri hiss etməz, hətta bəyənməz. Yusifin (Allahın ona salamı olsun) qorunması bu cür olmuşdur. Allah buyurmuşdur:

**“Beləcə, Biz pisliyi və çirkin əməli ondan uzaqlaşdırdıq. Həqiqətən, o, Bizim seçilmiş qullarımızdandır”** *(“Yusuf” surəsi, 24).*

Kim Allaha qarşı ixlaslı olarsa, Allah onu pisliklərdən və çirkin işlərdən xilas edər, onun özü də hiss etmədiyi şəkildə bu həlakedici günahlarla o insan arasına maneələr qoyar və onu qoruyar.

Məruf Kərxi fitnə zamanı döyüşə tələsən bir qrup gənci gördü və dedi: “Allahım, onları qoru!” Ona dedilər: “Düşmənlərimizəmi dua edirsən?”. O isə belə cavab verdi: “Əgər Allah onları qorusa, döyüşə qatılmazlar”.

---

[27] Əhməd İbn Hənbəl, “Müsnəd”, 2/5. Tirmizi, 3443. Nəsai, 524. İbn Xuzeymə, 2531. Hakim, 1/610. İbn Ömərdən rəvayət ediblər.
[28] Nəsai, 509. İbn Hibban, 2376. Beyhəqi, 9/173. İbn Ömərdən Rəvayət ediblər.
[29] Təbərani, “Əl-Əvsat”, 2/122
[30] Əbu Nuaym, “Hilyətul-Övliya”, 1/54

Ömər (Allah ondan razı olsun) bir kişinin belə dua etdiyini eşitdi: “Allahım! Sən insanla günahları arasına girənsən, elə isə mənimlə Sənə qarşı işlədiyim günahların arasına da gir!” Bu dua Ömərin çox xoşuna gəldi və o, həmin şəxsə dua etdi[31].

İbn Abbasdan (Allah atasından da, ondan da razı olsun) bu ayə haqqında belə rəvayət olunur: **“Allah insanla onun qəlbi arasına girər”** *(“Ənfal” surəsi, 24).* O demişdir: “(Bu o deməkdir ki) Allah möminlə onu Cəhənnəmə aparacaq günah arasına girər (maneə yaradar)”.

Keçmişdə sələflərdən biri Həccə getdi və Məkkədə bir qrup insanla gecələdi. O insanlardan biri günah etməyə niyyətləndiyi zaman bir səs eşidildi: “Vay halınıza! Məgər siz Həcc etmirsiniz?” Beləcə, Allah onu etmək istədiyi həmin günahdan qorudu. Bəziləri də dəstə ilə birlikdə bir günahı etməyə niyyətlənmişdi. Günahı etməyə tam niyyət etdikdə bir səs onlara belə səsləndi: **“Hər kəs etdiyi əməlin girovudur”** *(“Muddəssir” surəsi, 38).* Onlar bu səsi eşidən kimi həmin günahı tərk etdilər.

Bir kişi günah etmək üçün ağaclarla dolu sıx bir meşəyə girdi və dedi: “Əgər burada bir günah etsəm, məni kim görər?” Bu zaman meşədə bir səs eşitdi**: “Məgər yaradan (Allah) yaratdığını bilməzmi? O, Lətifdir (hər şeyi incəliyinə qədər biləndir) və (hər şeydən) Xəbərdardır”** *(“Mülk” surəsi, 14).*

Bir kişi bir günah etməyə niyyətləndi və onu etmək üçün yola çıxdı. Yolda gedərkən insanlara nəsihət verən bir moizəçinin yanından keçdi və onun məclisində dayandı. Moizəçi belə deyirdi: “Ey günaha niyyət edən şəxs! Bilmirsənmi ki, sənin qərarlaşdırdığın bu işdən Allah xəbərdardır?”. Bu sözləri eşidən kimi kişi huşunu itirib yerə yıxıldı. Oyandığı zaman isə tövbə etdi.

Saleh hökmdarlardan birinin qəlbi gözəl bir xidmətçisinə meyl etmişdi. O kimsə özü üçün bu halın fitnə ola biləcəyindən qorxdu. Bir gecə qalxıb Allahdan kömək dilədi. Həmin gecə xidmətçi xəstələndi və üç gün sonra vəfat etdi.

Onlardan bəziləri isə elə bir öyüd-nəsihət ilə günahdan qorunmuşdur ki, bu öyüd-nəsihət onunla birlikdə günaha girmək istəyən şəxsin dilindən çıxmışdır. Mağaradaköməksiz qalan üç nəfərdən birinin başına gələn hadisə kimi. O, bir qadınla günah işləmək üçün öz arvadının yanına oturduğu kimi onun yanına oturdu. Qadın isə ona dedi: “Ey Allahın qulu! **Allahdan qorx** və möhürü (bakirəliyi) haqqın olmadan pozma!”. O da günah işləməyi tərk etdi.

İbn Ömər (Allah onda razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: “**İsrail oğullarından olan Kifl adlı bir şəxs də belə idi. O, günahdan çəkinməzdi. Gözəl bir qadın xoşuna gəldi və ona altmış dinar verdi. Bir kişinin öz həyat yoldaşı ilə olduğu kimi o qadınla yaxınlıq etmək istəyəndə, qadın titrəməyə və ağlamağa başladı. O dedi: “Niyə ağlayırsan? Səni buna məcbur etdim?” Qadın cavab verdi: “Xeyr, lakin mən heç vaxt belə bir iş görməmişdim. Sadəcə, ehtiyac məni buna vadar etdi”. Kifl belə dedi: “Sən Allahdan qorxursan, amma mən Ondan qorxmuram?!” Sonra ondan uzaqlaşdı və ona**

[31] Əhməd İbn Hənbəl, “Zühd”, 142

**altmış dinarı da bağışladı. Sonra dedi: “And olsun Allaha ki, əl-Kifl bir daha Allaha əsla asilik etməyəcək!” Həmin gecə də dünyasını dəyişdi. Səhər oyananda onun qapısında yazılmışdı: “Allah əl-Kifli bağışladı”[32].**

Bir kişi bir qadını zina etməyə dəvət etdi və ona qapıları bağlamağı əmr etdi. Qadın bütün qapıları bağladı və sonra dedi: “Bir qapı qaldı”. Kişi soruşdu: “Hansı qapı?”. Qadın cavab verdi: “Bu, bizimlə Allah arasında olan qapıdır”. Bundan sonra kişi ona toxunmadı və oradan getdi.

Rəvayət edilir ki, bir kişi bir qadını gecə vaxtı tənha yerdə zina etməyə dəvət etdi və ona dedi: “Bizi ulduzlardan başqa kim görür ki?!” Qadın isə belə cavab verdi: “Bəs ulduzların Yaradıcısı haradadır?! O bizi görürmü?”

Bütün bunlar Allahın lütfü və bəndə ilə günah arasında yaratdığı maneələrdir.

Həsən əl-Bəsri günah sahibləri haqqında danışarkən demişdir: “Onlar Allahı kiçik gördülər, ona görə də Ona asi oldular. Əgər Allaha layiqincə təzim göstərsəydilər, Allah da onları qoruyardı”.

Bişr isə demişdir: “Heç bir şərəfli insan Allaha qarşı günah etməkdə israr etməz. Heç bir hikmət sahibi də Axirətdən üstün tutaraq dünyanı seçməz".

Allahın Öz bəndəsini din baxımından qorumasının növlərindən biri də budur ki, bəndə dünya işlərindən biri üçün - istər vəzifə, istər ticarət, istərsə də başqa bir şey üçün - çalışar, amma Allah ona daha xeyirli olduğunu bildiyi üçün onu istədiyi həmin şeydən uzaqlaşdırar. Bəndə isə bunu anlamaz və bəlkə də bundan narazı olar.

İbn Məsud demişdir: “Bəndə ticarətə və ya rəhbərliyə (vəzifəyə) dair bir iş görmək istəyər, Allah da ona bu işi asanlaşdırar. Sonra Allah ona baxar və mələklərə belə deyər: “Onu bu işdən uzaqlaşdırın! Çünki əgər bu işi onun üçün asanlaşdırsam, onu Cəhənnəmə ataram”. Beləliklə, Allah onu bu işdən uzaqlaşdırar. Bəndə isə bədbinliyə qapılar və deyər: “Filankəs mənə mane oldu və ya filankəs mənə zərər verdi”. Halbuki bu, sadəcə Uca Allahın ona olan bir lütfü idi.

Bundan da təəccüblüsü odur ki, bəzən bəndə ibadət və itaət qapılarından birini arzulayır, amma o iş onun üçün xeyirli olmur. Allah da onu qorumaq məqsədi ilə bu ibadətə gedən yolu onun üçün bağlayır, bəndə isə bunun fərqinə varmır.

Ənəsdən (Allah ondan razı olsun) mərfu olaraq (Peyğəmbərə aid edilən) bir hədis nəql etmişlər. Hədisdə Uca Allah belə buyurur: **“Bəndələrim arasında elələri vardır ki, imanlarını yalnız yoxsulluq düzəldər. Əgər onlara bol ruzi versəm, bu onların imanlarının pozulmasına səbəb olar. Bəndələrim arasında elələri də vardır ki, onların imanını yalnız var-dövlət (zənginlik) düzəldər. Əgər onları yoxsul etsəm, bu onların imanını pozulmasına**

[32] Əhməd ibn Hənbəl, “Müsnəd”, 2/23. Tirmizi, 2496. İmam Tirmizi bu hədis barədə “həsəndir” demişdir.

**səbəb olar. Bəziləri də vardır ki, imanlarını yalnız sağlamlıq düzəldər. Əgər onları xəstələndirsəm, bu onların imanının puzulmasına səbəb olar. Elələri də vardır ki, onların imanını yalnız xəstəlik düzəldər. Əgər onları sağlam etsəm, bu onların pozulmasına səbəb olar. Bəziləri də var ki, ibadət edib abid olmağı arzulayarlar, amma Mən bunu ondan çəkindirərəm ki, ona özünü bəyənmə gəlməsin. Mən bəndələrimi, onların qəlblərində olanları ən yaxşı bilirəm və işlərini səhmana salıram. Şübhəsiz ki, Mən hər şeyi bilənəm və hər şeydən xəbərdar olanam"**[33]**.**

Əvvəlki sələflərdən biri şəhid olmağı çox arzulayardı. Bir gün bir səs ona belə səsləndi: "Əgər döyüşə getsən, əsir düşəcəksən, əsir düşsən, xaçpərəst olacaqsan". Bundan sonra o, şəhid olmağı arzulamaqdan vaz keçdi.

Heç şübhəsiz ki, hər kim Allahın hüdudlarını qoruyar, Onun haqlarına riayət edərsə, Allah da onun dinini və dünyasını həm bu dünyada, həm də axirətdə qoruyar.

Uca Allah Qurani-Kərimdə möminlərin dostu olduğunu, salehləri qoruyub himayə etdiyini xəbər vermişdir. Bu isə o deməkdir ki, Allah onların dünya və axirət işlərini Öz üzərinə götürər, onları başqasına həvalə etməz. Uca Allah buyurur:

**"Allah iman gətirənlərin dostudur, onları zülmətlərdən nura çıxarar"** *("Bəqərə" surəsi, 257).*

**"Bu ona görədir ki, Allah möminlərin Dostudur. Kafirlərin isə dostu yoxdur"** *("Muhəmməd" surəsi, 11).*

**"Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər"** *("Talaq" surəsi, 3).*

**"Məgər Allah Öz quluna kifayət deyilmi?!"** *("Zumər" surəsi, 36).*

Deməli, kim Allahın haqlarını yerinə yetirərsə, Allah da onun dünya və axirət işlərini üzərinə götürər və onun bütün ehtiyaclarını qarşılayar. Kim Allahın onu hər işində qorumasını və himayə etməsini istəyirsə, gərək Onun haqlarına riayət etsin. Kim xoşuna gəlməyən şeylərin baş verməsini istəmirsə, o da Allahın xoşlamadığı şeyləri etməsin.

Sələflərdən biri məclisləri dolaşıb belə deyərdi: "Hər kim ona verilən salamatlıq və afiyətin davamlı olmağını istəyərsə, qoy Allaha qarşı təqvalı olsun".

Zahidlərdən birindən nəsihət istəndikdə o, belə dedi: "Allahın sənə xoşuna gələn müamiləni etməsini istəyirsənsə, sən də Allaha qarşı Onun istədiyi kimi davran!"

Saleh bəndə ibn Abdul-Kərim rəvayət edir ki, Uca Allah belə buyurur: **"İzzətimə və cəlalıma and olsun ki, qəlbində mənə qarşı itaətin üstünlük təşkil etdiyini bildiyim bir bəndənin tərbiyəsini və islahını mütləq Öz üzərimə götürərəm".**

---

[33] İbn əbi əd-Dünya, "əl-Övliya", 1. Əbu Nuaym, "Hilyətul-Övliya", 8/318

Əvvəlki ilahi kitablardan birində Uca Allah belə buyurur: **“Ey Adəm oğlu! Səni güldürən şey nədir? Mənə deməzsənmi?! Ey Adəm oğlu! Məndən qorxub çəkinsən, istədiyin yerdə yata bilərsən”.**

Cabirdən (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər ﷺ belə buyurdu: **“Kim Allah qatındakı məqamını bilmək istəyirsə, baxsın görsün Allah onun qəlbində hansı yerdədir. Şübhəsiz ki, Allah, bəndəsinin Ona verdiyi dəyər qədər onu dəyərləndirər”**[34]**.**

Bu hədis göstərir ki, bəndənin Allahın haqlarına verdiyi əhəmiyyət, Onun əmrlərini yerinə yetirməyə, hüdudlarını qorumağa göstərdiyi diqqət və səy miqdarında Allah da ona eyni şəkildə diqqət göstərir və onu qoruyur.

Hər kimin ki məqsədi Allahın razılığını qazanmaq, Ona yaxınlaşmaq, Onu tanımaq, sevmək və Ona qulluq etməkdirsə, Allah da ona bunun qarşılığında həmin səviyyədə yaxınlaşar. Necə ki, Uca Allah buyurur:

**“Məni yad edin ki, Mən də sizi yad edim”** *(“Bəqərə” surəsi, 152).*

**“Mənə verdiyiniz əhdi yerinə yetirin ki, Mən də sizə verdiyim əhdi yerinə yetirim. Və yalnız Məndən qorxun!”** *(“Bəqərə” surəsi, 40).*

Həqiqətən Allah yaxşılıq edənlərin ən yaxşısıdır. O, bir yaxşılığa on qat, hətta daha da artığı ilə qarşılıq verir. Kim Ona bir qarış yaxınlaşarsa, Allah ona bir arşın yaxınlaşar; kim bir arşın yaxınlaşarsa, Allah ona bir qulac qədər yaxınlaşar, kim Ona yeriyərək gələrsə, Allah ona tərəf qaçaraq gələr.

İnsana gələn bütün bəlalar yalnız öz nəfsindən qaynaqlanır. Ona çatan hər bir pislik, Rəbbi haqqındakı səhlənkarlığından meydana gəlir. Necə ki, Əli (Allah ondan razı olsun) belə demişdir: **“Qul yalnız Rəbbinə ümüd etməli və yalnız ona qarşı günah işləməkdən qorxmalıdır”.**

Bəziləri belə demişlər: **“Kim gözəl müamilə edərsə, ona da gözəl müamilə edilər; kim qarmaqarışıq bir iş edərsə, ona da elə davranılar”**[35]**.**

Məsruq demişdir: **“Hər kim qəlbini Allah haqqında gələn pis fikirlərdən qorusa, Allah da onu bədən üzvlərinin elədiyi işlərdə qoruyar”.**

Bu mənanın izahı çox uzanır, biz burada qeyd etdiklərimizlə kifayətlənirik. Həmd yalnız Allaha məxsusdur.

---

[34] Əbu Yalə rəvayət etmişdir.
[35] Əbu Yalə rəvayət etmişdir.

## "احفظ الله تجده أمامك" وفي رواية أخرى: "تجاهك"

## *“Allahı qoru, Onu qarşında taparsan”.*

## *Başqa bir rəvayətdə: “Onu qarşında görərsən”*

Kim Allahın qoyduğu hüdudları qoruyar və Onun haqlarına riayət edərsə, bütün hallarda Allahı yanında tapar. Allah onu qoruyar, kömək edər, müvəffəqiyyət verər və doğru yola yönəldər. Allah təqvalı olanlarla və yaxşı iş görənlərlə bərabərdir.

Qatədə belə demişdir: **“Kim Allahdan qorxarsa, Allah onunla bərabərdir. Kiminlə ki, Allah bərabərdir, onunla birgə məğlub olmayan bir ordu, yuxuya getməyən bir qoruyucu və əsla azmayan bir yol göstərici vardır”.**

Sələflərdən bir nəfər qardaşına belə yazmışdı: **“Əgər Allah səninlədirsə, kimdən qorxursan? Yox əgər O sənin əleyhinədirsə, kimə ümid bəsləyirsən? Vəssalam”.**

Bu xüsusi birlik heç şübhəsiz ki, təqva sahibləri ilə olan bir birlikdir və bu, Quranda keçən ümumi birlikdən fərqlidir, məsələn:

**“Siz harada olsanız, O sizinlədir”** (“Hədid” surəsi, 4).

**“Onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söyləyərkən, (onu) insanlardan gizlədir, öz yanlarında olan Allahdan isə gizlətmirlər….”** (“Nisa” surəsi, 108).

Xüsusi birlik isə Allahın köməyi, dəstəyi, qoruması və yardımını əhatə edir. Necə ki, Allah Musaya və Haruna demişdir:

**“(Allah) buyurdu: “Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!”** (“Taha” surəsi, 46).

Buna Quranda Peyğəmbərin ﷺ səhabəsinə dediyi: **“Kədərlənmə, Allah bizimlədir”** (“Tövbə” surəsi, 40) ayəsi də misaldır.

Peyğəmbər ﷺ bu vəziyyətdə Əbu Bəkr əs-Siddiqə belə demişdir: **“Üçüncüləri Allah olan iki nəfər haqqında nə düşünürsən?”**

Bu, Quranda keçən digər ümumi mənadan fərqlidir: **“Üç nəfərin gizli danışdığı yerdə dördüncüsü Allahdır...”** (“Mucadilə” surəsi, 7).

Bu xüsusi mənaya aid olan başqa bir ifadə isə qüdsi hədisdə keçən sözlərdir: **“Qulum nafilə ibadətlərlə Mənə yaxınlaşmağa davam edər, ta ki Mən onu sevənə qədər. Onu sevdiyim zaman isə onun eşidən qulağı, görən gözü, tutan əli və yeridiyi ayağı olaram.**

**Əgər Məndən bir şey istəsə, mütləq ona verərəm. Əgər Mənə sığınsa, mütləq onu qoruyaram"**[36].

Bundan başqa Qurani-Kərimdə və Sünnədə Allahın Özünə itaət edənə, Ondan qorxana, Onun hüdudlarını qoruyana və Onun haqlarını gözləyənə yaxın olduğuna dair bir çox mətnlər mövcuddur.

Əl-Həmməl Təbuk səfəri zamanı çöllükdən keçərkən təklik hissinə qapanıb qorxdu, o zaman qeybdən bir səs ona belə dedi: "Nə üçün təklik hissinə qapanıb qorxursan? Məgər sevdiyin (Allah) səninlə deyilmi?"

Kim Allahı (onun dinini) qoruyarsa və Onun haqlarına diqqət yetirərsə, hər bir halda Allahı yanında tapar, onunla ünsiyyət qurar və başqalarına ehtiyacı qalmaz.

Peyğəmbər ﷺ belə buyurur: **"İmanın ən fəzilətlisi – qulun harada olursa olsun Allahın onunla olduğunu bilməsidir"**[37].

Bəzi təqvalı alimlər çox səfər edən və bunu sadə şəkildə, tək başına edən kəslər idilər. Bir dəfə insanlar onlardan birini yola salmaq üçün çıxdılar, o isə onları geri qaytardı və bu beyti oxudu:

Əgər gecə yol alsaq və Sən olsan önümüzdə,
Sənin zikrin aydınlıq üçün kafi olar bizə.

Şibli (Allah ona rəhmət etsin) bu beyti oxuyardı və bəzən dərs məclisini həmin beytlə bitirərdi.

---

[36] Buxari, 5602
[37] Təbərani, "Əvsat", 8796

## "تعرف إِلَى الله في الرخاء، يعرفك في الشدة"

## "Xoş günündə Allahı tanı ki, çətinlikdə O da səni tanısın"

Əgər bir qul rahatlıq və sağlamlıq içində ikən Allahdan qorxar, Onun hüdudlarını qoruyar, Onun haqlarını yerinə yetirərsə, bu şəkildə Allahı tanımış olar və Allahla arasında xüsusi bir tanışlıq yaranar. Belə olduqda Rəbbi də onu çətinlik zamanı tanıyar və rahatlıq vaxtındakı əməllərini nəzərə alaraq onu bu çətinliklərdən xilas edər.

Bu da Allahın bəndəsinə yaxınlığını, onu sevdiyini və duasını qəbul etdiyini göstərən xüsusi bir tanınma növüdür. Burada söhbət ümumi tanınmadan getmir, çünki Allah yaratdıqlarından heç birinin halından xəbərsiz deyildir:

**"O, sizi torpaqdan yaradanda da, siz analarınızın bətnində rüşeym halında olanda da sizi yaxşı tanıyırdı"** ("Nəcm" surəsi, 32).

**"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik"** ("Qaf" surəsi, 16).

Bu xüsusi tanıma halı qüdsi hədisdə də qeyd edilən tanımadır. Peyğəmbər ﷺ buyurur: **"Qulum nafilə ibadətlərlə Mənə yaxınlaşmağa davam edər, ta ki Mən onu sevənə qədər…əgər Məndən bir şey istəsə, mütləq ona verərəm. Əgər Mənə sığınsa, mütləq onu qoruyaram"**[38].

Fudeyl ibn İyad (Allah ona rəhmət etsin) Şəvvanə adında abid bir qadın ilə qarşılaşdı və ondan özü üçün dua etməsini istədi. Şəvvanə isə dedi: "Ey Fudeyl, səninlə Rəbbin arasında pis bir şey var? Əgər sən ona dua etsən heç şübhəsiz ki, o sənə cavab verər?" Fudeyl bu sözlərdən elə təsirləndi ki, fəryad edib huşunu itirdi.

Əbu Cəfər əs-Sadiq dedi: "Həccacın təqibindən qaçan Həsən, Həbib Əbu Muhəmmədin evinə sığınıraq dedi: "Ey Əbu Muhəmməd, məni məmurların əlindən qoru, onlar izimdədir". Həbib dedi: "Ey Əbu Səid, doğrusu sənin yerinə utandım! Səninlə Allah arasında elə bir etibar yoxdur ki, Onu çağırdığında səni bu adamlardan gizlətsin?" — sonra dedi: "Kəbənin içinə keç". Həsən içəri keçdi, az sonra əsgərlər gəldi, Kəbənin içinə girmələrinə baxmayaraq onu görmədilər. Bu barədə Həccaca xəbər verdilər. O isə dedi: "Xeyr, o (adam) Kəbənin içində idi. Lakin Allah onların gözlərindən gizlətdi, ona görə də onu görə bilmədilər".

Bəndə üçün bu xüsusi tanıma baş verdikdə, o, Allah ilə ünsiyyət qurar və Allahdan lazımınca həya edər. Bu, möminlərin ümumi tanımasından fərqli olaraq xüsusi bir tanımadır. Bütün ariflərin ardınca getdiyi tanıma və tanışlıq da elə budur.

---

[38] Buxari, 5602

Əbu Süleyman bir nəfərin “Dünən gecə ancaq filan qadını düşünmüşəm” dediyini eşitdi və ona dedi: “Vay halına! Ondan (Allahdan) utanmırsan? Səni hər anında görür, amma sən Ondan başqasını düşünürsən?! Lakin necə utanasan ki, onu tanımırsan?!”

Əhməd ibn Asim əl-Əntaki dedi: “Arzu edirəm ki, Rəbbimi tanımadan ölməyim. Ancaq Onu tanımaq sadəcə Ona iman gətirmək deyil, Onu elə tanımaqdır ki, bu tanıma səni Onun qarşısında utanmağa vadar etsin”.

Bu xüsusi tanıma və tanıdılma, bəndədə Rəbbinə qarşı qəlb rahatlığı və güvən hissi doğurması, hər çətinlik və sıxıntıdan Onun tərəfindən xilas ediləcəyinə inam verməsi, eləcə də bəndənin duasına Allahın cavab verməsidir.

Həsənul-Bəsri Həccacdan gizləndikdə ona dedilər: “Kaş ki, Bəsrədən çıxasan, çünki sənin yerinin göstərilməsindən qorxuruq”. O isə ağladı və dedi: “Doğrudanmı doğma şəhərimdən, ailəmdən və qardaşlarımdan ayrılım? Xeyr, Rəbbimi tanımağım və Onun mənə olan neməti onu göstərir ki, O məni (Həccacdan) xilas edəcək, inşallah”. Həqiqətən də Həccac ona heç bir zərər verə bilmədi, əksinə sonradan ona çox böyük hörmətlə yanaşdı və onu xeyirlə yad etdi.

Bir nəfər Məruf Kərxiyə dedi: “Səni hər şeyi buraxıb bu qədər ibadətə, tənhalığa qapanıb ölüm, bərzəx, cənnət və cəhənnəmi düşünməyə nə sövq etdi?” Məruf dedi: “Bu nə sözdür?! Bütün bunlar Allahın əlindədirsə və Onunla sənin aranda bir tanışlıq varsa, Allah sənə hər şeydə kifayət edər”.

Peyğəmbər ﷺ belə buyurur: **“Kim sıxıntı vaxtlarında Allahın onun duasını qəbul etməsini istəyirsə, bolluq (rahatlıq) dövründə çoxluca dua etsin[39]”.**

Ənəsdən (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər ﷺ belə buyurur:
Yunus peyğəmbər balığın qarnında dua etdikdə mələklər belə dedilər:
“Ey Rəbbimiz! Bu səs tanış bir səsdir, amma yad məkandan gəlir”.
Allah buyurdu: “Səsin sahibini tanımadınızmı?”
Onlar dedilər: “Kimdir o?”
Allah buyurdu: “O, Mənim bəndəm Yunusdur”.
Onlar dedilər: “O Yunus ki, onun qəbul olunan əməlləri və cavab verilən duası daima sənə ərz olunurdu?”
Allah buyurdu: “Bəli”.
Onlar dedilər: “Ey Rəbbimiz, onun rahatlıq dövrlərində etdiklərini rəhmətə çevirməzsənmi ki, onu bu çətinlikdən qurtarasan?”
Allah buyurdu: “Bəli”. Sonra Allah balığa əmr etdi və balıq onu quruya çıxardı[40].

Dəhhaq ibn Qeys demişdir: “Allahı bolluqda yad edin ki, O da sizi çətinlikdə yad etsin. Şübhəsiz ki, Yunus (Allahın ona salamı olsun) Allahı çox yad edənlərdən idi. O, balığın qarnına

---

[39] Tirmizi, 3382. İmam Tirmizi bu hədisin “qərib” olduğunu demişdir.
[40] İbn əbi əd-Dünya, 25. İbn Kəsir, “Təfsirul-Quranil-Azim”, 5/362. İbn Cərir ət-Təbəri, “Cəmiul-Bəyən”, 24/64.

düşəndə Allah onun haqqında belə buyurdu: **“Əgər o, Allaha təsbih deyənlərdən olmasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı”** (“Saffət” surəsi surəsi, 143-144)

Firon isə azğın və Allahı zikr etməkdən uzaq biri idi. Suda boğulma anında belə dedi: **“İman gətirdim”. Allah isə buyurdu: “(Firona deyildi:) “İndimi? Sən ki əvvəllər asilik etmiş və fəsad törədənlərdən olmuşdun”** (“Yunus” surəsi, 91).

Rüşdeyn ibn Səd nəql edir ki, bir kişi Əbu Dərdaya dedi: “Mənə nəsihət et”. O dedi: “Bolluq içində Allahı yad et ki, O da səni çətinlikdə yad etsin”.

Səlman əl-Farisi demişdir: “Bir insan rahatlıqda Allaha çox dua edərsə, çətinliklə qarşılaşdıqda Allaha dua etdikdə, mələklər deyərlər: “Bu tanış bir səsdir” və onun üçün şəfaət edərlər. Amma əgər bir insan rahatlıqda dua etməyibsə və çətinliklə qarşılaşdıqda dua edərsə, mələklər deyərlər: “Bu səs tanıdığımız səs deyil” və şəfaət etməzlər.

Üç nəfərin mağaraya sığınıb mağaranın girişinə böyük bir daşın düşməsiylə orada köməksiz qalmaları barədə olan hədis də bu mənanı təsdiqləyir. Çünki mağaranın çıxışına daş çökdükdə, onlar daha öncə bolluq vaxtında etdikləri saleh və ixlaslı əməlləri vəsilə edərək Allaha dua etdilər və onların sıxıntıları aradan qalxdı. Bu əməllər valideynlərə yaxşılıq etmək, zinanı tərk etmək və gizli əmanəti əda etmək idi[41].

Qulun bolluq vaxtında Allahı tanıması və Ona yönəlməsi, çətin vaxtlarda Allahın da o bəndəsini tanımasına səbəb olur. Möminin dünyada qarşılaşdığı ən böyük sıxıntı ölümdür. Əgər bir insan ölümdən sonrakı həyat üçün saleh əməllərlə hazırlıq görübsə, ölüm anında olan şiddət onun çəkəcəyi son sıxıntı olar. Amma axirəti üçün hazırlıq görməyibsə, ölüm anında olan şiddət ölümdən sonra baş verəcəyi sıxıntının yanında heç nə sayılar. Buna görə də bəndənin ölüm gəlməmişdən əvvəl ona hazırlaşması, saleh əməllər etməsi lazımdır. Çünki heç kim ölümün ona nə zaman gələcəyini bilmir.

Ölüm anında saleh əməllərin xatırlanması möminin Rəbbi haqda gözəl zənnini artıran, ölüm şiddətini yüngülləşdirən və Allaha ümidini gücləndirən səbəblərdəndir.

Bəziləri demişlər: “İnsanın gizli bir saleh əməli olması yaxşıdır ki, ölüm anı onun üçün daha yüngül keçsin”.

Habelə onlar arzulayardılar ki, bir insanın ölümü Həcc, cihad və ya oruc kimi itaətlərdən sonra baş versin.

Nəxai demişdir: “Alimlər ölüm anında bəndəyə gözəl əməllərin xatırladılmasını bəyənərdilər ki, Rəbbinə olan gözəl zənni möhkəmlənsin”.

[41] Muslim, 2743

Əbu Abdurrahman əs-Suləmi ölüm yatağında dedi: “Necə Rəbbimə qovuşacağıma ümid etməyim ki, mən Onun üçün səksən Ramazan oruc tutmuşam?!”

Əbu Bəkr ibn Əyyaş ölüm yatağında ikən onun üçün ağlayanlara belə dedi: “Ağlamayın! Mən bu günədək Qurani-Kərimi on üç min dəfə xətm etmişəm”.

Yenə rəvayət olunur ki, o (Əbu Bəkr ibn Əyyaş) oğluna belə dedi: “Qırx il ərzində hər gecə Qurani-Kərimi xətm etmişdim, Allahın sənin atanı zay edəcəyinimi zənn edirsən?!”

Sələflərdən biri ölüm anında oğlunun ağladığını gördükdə dedi: “Ağlama! Sənin atan heç vaxt pis bir əməl törətməyib”.

Adəm ibn Əbi İyas ölüm yatağında ikən Qurani-Kərimi xətm etdi və sonra dedi: “Səni sevdiyimə and verirəm, bu ölüm anında mənə rəhm et! Mən səni bu gün üçün arzulayırdım, sənə ümid bəsləyirdim. Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur”. Sonra isə vəfat etdi. Allah ona rəhmət etsin.

Abdussaməd əz-Zahidi ölüm anında deyirdi: “Ey Rəbbim! Özümü bu saat üçün hazırlamışdım. Bütün topladığımı bu gün üçün etdim. Ey Rəbbim! Sənə qarşı olan hüsnü-zənnimi həqiqətə çevir”.

İbn Aqil ölüm anında ətrafında ağlayan qadınlara belə dedi: “Allaha əlli il ibadət etdim. İcazə verin, O, məni Özü ilə görüşə çağırır”.

Qaramitlər Həcc zamanı zəvvarlara hücum edib təvaf əsnasında onları öldürdükləri zaman Sufi Əli ibn Bakuvə də təvaf edirdi. Qılınclar onu haqlasa da, o, təvafı yarımçıq qoymadı. Nəhayət yıxıldıqda belə bir beyt oxudu:

Məcnun aşiqləri yurdlarında can vermiş görərsən,
Əshabi-Kəhf kimi, nə qədər yatdıqlarını bilməzlər.
Allaha and olsun, əzizlər ayrılıq günü ölsələr,
“Biz ölmədik” desələr, yalan söyləməzlər.

Kim ömrü boyunca Allaha itaət edər, Ondan qorxar və Onun hüdudlarını qoruyarsa, Allah da ölüm əsnasında ona yardım edər, onun canını iman üzərində alar, qəbirdə iki mələyin suallarına möhkəm cavab verməklə ayaqlarını sabit saxlayar, qəbir əzabından uzaqlaşdırar.

Sələflərdən biri demişdir: “Əgər qəbirə qoyulduğun zaman Allah səninlə birlikdədirsə, sənin üçün sıxıntı olmaz”.

Saleh alimlərdən biri ölümündən sonra yuxuda görülmüş və ondan halı soruşulanda belə demişdir: “Əlhəmdulilləh, Rəbbim mənimlə dostyana müamilə etdi”.

Çünki kim dünya yalnızlığında Allahı özünə dost və sirdaş bilərsə, ümid edilir ki, qaranlıq qəbir evində, dünyanı tərk edib arxada buraxdığı zaman da Allah onu Özünə dost bilər. Bu mənada bəziləri belə demişdir:

Ey Rəbbim, yalnız qaldığım gün dostum ol,
Çünki Sənin nazil etdiyinə gətirmişəm iman.
Allaha qayıtmaq mənə zərər verməz,
Əhlimdən yaxşılıq etdiklərinə dönmək verməz mənə ziyan.

Eləcə də Qiyamət gününün dəhşətləri, qorxuları və çətinlikləri də belədir, əgər bir bəndə dünyada Allahın itaətində olarsa, Allah da onu bütün bu hallardan qoruyar və hesabını yüngülləşdirər.

Qatədə **“Kim Allahdan qorxarsa, Allah ona bir çıxış yolu göstərər”** (“Talaq” surəsi, 2) ayəsi haqqında demişdir: “Yəni ölüm anındakı sıxıntıdan və Qiyamət gününün qorxularından çıxış yolu göstərər”.

Əli ibn Əbi Talha, İbn Abbasdan (Allah ondan və atasından razı olsun) bu ayə barəsində nəql edir: “Allah onu dünyada və axirətdə hər bir bəladan qoruyar”[42].

Zeyd ibn Əsləm **“Həqiqətən də: “Rəbbimiz Allahdır!” – deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər”** (“Əhqaf” surəsi, 13) ayəsi haqqında demişdir: “Allah onları ölüm anında, qəbirdə və dirildiləcəkləri gündə Cənnətlə müjdələyər. Qəlblərindən bu sevinc və xoşbəxtlik heç vaxt itməz”.

Sabit əl-Bunani bu ayə haqqında demişdir: “Mömin qəbirdən dirildilərkən dünyada onunla birlikdə olan iki mələk qarşısına çıxar və deyər: “Qorxma, kədərlənmə!” Beləliklə Allah onun qorxusunu aradan qaldırar, gözünü aydınladar. Qiyamət günü insanları bürüyən hər bir böyük qorxu mömin üçün göz aydınlığı olar. Çünki Allah onu hidayətə yönəltmiş və o da dünyada yaxşı əməllər etmişdi”[43].

Amma kim ki, rahatlıq dövründə Allahı tanımayıbsa, nə dünyadakı, nə də axirətdəki çətinlik anında ona yardım edən də olmayacaq. Dünyada ikən bu qədər nümunələrlə qarşılaşdıq. Bu insanların Axirətdəki halları isə daha çətin və ağır olacaq. Onların nə bir dostu, nə də yardımçısı olacaq.

---

[42] İbn Cərir ət-Təbəri, “Cəmiul-Bəyən”, 28/89
[43] İbn Əbi Hətim

"إذا سألت فاسأل الله"

# "Əgər bir şey istəsən, Allahdan istə"

Allah yalnız ondan istəməyi əmr etmiş və başqalarından bir şey istəməkdən çəkindirmişdir. Belə ki, O, Qurani-Kərimdə buyurmuşdur:

**"Allahın lütfündən istəyin"** ("Nisa" surəsi, 32).

İbn Məsuddan (Allah ondan razı olsun) nəql olunan bir hədisdə Peyğəmbər ﷺ buyurmuşdur: **"Allahın lütfündən istəyin. Çünki Allah Ondan istənilməsini xoşlayır"**[44]**.**

Həmçinin Əbu Hureyradan (Allah ondan razı olsun) nəql olunan başqa bir hədisdə Peyğəmbər ﷺ buyurmuşdur: **"Kim Allahdan istəməzsə (dua eləməzsə), Allah ona qəzəblənər**[45]**".**

Başqa bir rəvayətdə isə belə deyilir: **"Həqiqətən, Allah duada israr edənləri sevir"**[46]**.**

Başqa bir hədisdə Peyğəmbər ﷺ buyurmuşdur: **"Sizdən biri bütün ehtiyaclarını Rəbbindən istəsin, hətta ayaqqabısının bağı qırılsa belə, onu da Allahdan istəsin"**[47].

Bu mənada çoxlu hədislər var. Yalnız Allahdan istəyib insanlardan bir şey istəməyə qadağa ilə bağlı da çoxlu səhih hədislər mövcuddur.

İbn Məsuddan (Allah ondan razı olsun) rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ buyurmuşdur: **"Bəndə varlı (dünya malı) olduğu halda dilənçilik eləməyə davam edərsə, Allah onun üzünü soldurar və onun (Qiyamət günü) artıq Allah yanında heç bir üzü olmaz (üzü olmadığı halda həşr olunar)"**[48]**.**

Peyğəmbər ﷺ Əbu Bəkr əs-Siddiq, Əbu Zərr, Sövban və bəzi digər səhabələrindən insanlardan heç bir şey istəməyəcəkləri barədə beyət almışdır[49]. Onlardan birinin qamçısı və ya dəvəsinin yüyəni yerə düşsə belə onu heç kimdən istəməz, özləri dəvələrindən düşüb götürərdilər.

Bilin ki, Allahdan istəmək və məxluqlardan istəməmək həm ağıla, həm də şəriətə müvafiq olandır. Bu da bir neçə səbəbə əsaslanır. O səbəblərdən biri budur: istəmək insanın özünü və şərəfini alçaldır; zillət isə yalnız Allah qarşısında olmalıdır. Çünki zillət yalnız Ondan istəməyə və duaya müvafiqdir. Zillət, vəfanın və səmimi sevginin əlamətidir.

---

[44] Tirmizi, 3571
[45] Tirmizi, 3373
[46] Uqeyli, "əd-Duəfəu", 4/452. İbn Adiy əl-Kamil, 7/163
[47] İbn Hibban, "əs-Sahih", 866
[48] Bəzzar, 919
[49] Muslim, 1043

Yusuf ibn əl-Hüseyndən soruşdular: "Niyə aşiq olanlar sevgidə alçalmaqdan zövq alırlar?" O, cavab olaraq bu beyti oxudu:

Bir gəncin sevgidə alçalması bir dəyərdir,
Sevgilisi qarşısında boyun əyməsi bir şərəfdir.

Bu cür alçalmaq və sevgi yalnız Allaha qarşı olmalıdır. Məhz bu, tək olan haqq ilaha məxsus əsl ibadətin özüdür.

İmam Əhməd ibn Hənbəl (Allah ona rəhmət etsin) duasında belə deyərdi: **"Allahım! Məni Səndən başqasına səcdə etməkdən qoruduğun kimi, məni Səndən başqasından bir şey istəməkdən də qoru".**

Əbu Xeyr əl-Əqta isə belə nəql edir: "Məkkədə bir il qaldım, yoxsulluq və sıxıntı içində idim. Hər dəfə çıxıb insanlardan bir şey istəmək fikrinə düşəndə içimdən bir səs eşidərdim: "Allaha səcdə edən üzü, ondan başqasından istəyərəkmi alçaldacaqsan?"

Bu məna ilə bağlı bəziləri belə demişlər:

Dilənərək şərəfini alçaldan bir kəs,
Dilənçiliklə varlansa belə, şərəfini əldə etməz.
Dilənçiliklə veriləni tərəzidə çəksən əgər,
Dilənçilik ağır, verilən isə yüngül gələr.
Əgər istəmək sənin üçün olsa zəruri,
Üzünü yalnız kərəm sahibi, lütfkar Allaha çevir.

Ehtiyacı olmadığı halda dilənənlərin cəzası haqqında Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Qiyamət günü üzündə bir parça ət belə qalmadan Allahın hüzuruna gətiriləcək"**[50].

Çünki o kimsə dünyada üzünün izzətini, hörmətini və şərəfini insanların qarşısında alçaldaraq itirmişdi. Allah da axirətdə onun üzündən zahiri gözəlliyi və nuru yox edər; nəticədə o, ətsiz bir sümüklə görünər və Allah yanında mənəvi hörmət və etibarını da itirər.

Bundan əlavə, Allahdan bir şey istəmək böyük bir ibadətdir. Çünki bu, Ona olan ehtiyacın ifadəsi və Onun bütün ehtiyacları ödəməyə qadir olduğunun etirafıdır. Amma insanlardan bir şey istəmək böyük bir zülmdür. Çünki insanlar özlərinə fayda verməkdən və özlərindən ziyanı dəf etməkdən belə acizdilər. O halda başqasından bir şey istəmək onu layiq olmadığı bir yerə qoymaq demək, sanki o qüdrətliymiş kimi davranmaqdır.

Bunun təsdiqi olaraq Əbu Zərrdən (Allah ondan razı olsun) nəql olunan qüdsi bir hədisi qeyd edə bilərik. Peyğəmbər ﷺ Uca Allahın belə dediyini buyurmuşdur: **"Ey bəndələrim! Əgər ilk və sonuncunuz, insan və cin tayfanız – hamınız bir yerdə Məndən istəsəniz və Mən də**

[50] Buxari, 1474. Muslim, 1040

**hər kəsə istədiyini versəm, bu Mənim yanımdakından (mülkümdən) heç nə əskiltməz. Yalnız dənizə batırılan bir iynənin götürə bildiyi qədər azalar”**[51]**.**

Tirmizi və digər rəvayətçilər bu hədisə bir əlavə də qeyd etmişlər: **“Çünki Mən comərdəm, mülk sahibiyəm, güclüyəm və hər istədiyini edən Rəbbəm. Mənim ehsanım bir sözə bağlıdır, əzabım da bir sözə bağlıdır. Nəyi istəsəm, yalnız “Ol!” deyərəm, o şey də dərhal olar”.**

Bəs necə ola bilər ki, kasıb və aciz bir şəxsə üz tutulur, amma zəngin və qüdrətli olan Allah unudulur?! Bu həqiqətən də ən qəribə haldır!

Sələflərdən biri demişdir: “Allahdan dünyanı istəməyə utanıram, halbuki dünya Onundur. O zaman mən necə ola bilər ki, dünyanı ona malik olmayan birindən (məxluqdan) istəyim?!”

Sələflərdən biri dolanışıqda çətinlik çəkirdi və o düşündü ki, bir qardaşından kömək istəsin. Gecə yuxusunda bir səs ona belə dedi:

Allah qatında istədiyini tapan azad və hürr kimsə,
Yaraşarmı ona qəlbi ilə qullara meyl etsə?

O, yuxudan insanların ən zəngin qəlblisi olaraq oyanmışdı.

Sələflərdən biri demişdir: “Mən əvvəlki kitablardan birində belə oxudum. Uca Allah buyurur: “Məgər çətinliklər zamanı Məndən başqasına ümid bəslənərmi?! Halbuki çətinliklər Mənim əlimdədir. Mən Həyy və Qəyyum olan Rəbbəm. Məgər Məndən başqası ümid yerinə çevrilər, səhərlər onun qapısı döyülərmi?! Xəzinələrin açarları Mənim əlimdədir və Mənim qapım Mənə dua edən hər kəsə açıqdır. Mənə üz tutanın hansı nəsibini kəsdim, yaxud məndən istəyənin hansı istəyini geri çevirdim?! Kim mənim qapımı döydü mən ona qapımı açmadım?! Məgər Mən xəsisəmmi?! Qullarıma nə zaman xəsislik etdim?! Dünya, axirət, kərəm və lütfün də hamısı Mənə aid deyilmi?! Bəs nə mane olur ki, ümid bəsləyənlər Mənə ümid etmirlər?! Əgər bütün yer və göy əhlini bir yerə toplasam, onların hər birinə digərlərinə verdiyim qədər versəm və hər birinin arzusunu yerinə yetirsəm, bu, Mənim mülkümdən bir zərrə belə əskiltməz. Mən hər şeyin sahibi və qoruyucusuyam. Ola bilərmi ki, o mülk azalsın?! Vay olsun Mənim mərhəmətimdən ümidsiz olanlara! Vay olsun Mənə asi olanlara və haramlarıma cürətlə toxunanlara!”

Allah Ondan istənilməsini sevir və Ondan istəməyənə qəzəblənir. Çünki O, bəndələrinin Ona yönəlməsini, Ondan istəməsini, dua etməsini və Ona ehtiyaclarını bildirmələrini istəyir. O, duada israr edənləri sevir. Halbuki insanların çoxu kasıb və aciz olduqlarına baxmayaraq Allahdan istəməkdən çəkinirlər.

İbn əs-Səmmak demişdir: “Ondan istənilməsini istəməyən birindən bir şey istəmə. O kəsdən istə ki, sənə istəməyi əmr etmişdir”.

---

[51] Muslim, 2577

Əbul-Ətahiyə belə demişdir:

Allahdan istəməyi tərk etdikdə, O qəzəblənər,
Adəm övladı isə ondan istənildikdə əsəbiləşər.
Yalnız Allaha xas et sən istəyini,
Üzürük içində Onun nemətlərinin.

Yəhya ibn Muaz deyərdi: “Ey Ondan istəməyənə qəzəblənən Rəbbim! Səndən istəyənlərin dualarını geri çevirmə”.

Bədəvilərdən biri belə bir beyt oxumuşdur:

Ey mülk sahibi insan! İnsanlardan istəməyi tərk et,
Ruzini axtar, Allahın lütfü edər sənə kifayət.
Əgər insanlardan torpaq istənilsə də,
Bezər və imtina edərlər verməkdən.

Uca Allah bəndələrinin dualarının Ona yönəlməsini istəyir. Hətta hər gecə belə nida edir: **“Məndən istəyən yoxdurmu onun istədiyini verim? Mənə dua edən yoxdurmu onun duasına cavab verim?”**[52]

Allah Qurani-Kərimdə buyurur:

**“Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən (onlara) yaxınam, Mənə dua edənin duasını qəbul edərəm”** (“Bəqərə” surəsi, 186).

Qul nə zaman Allahı çağırsa, Onu eşidən, yaxın və cavab verən olaraq tapar. Onunla bəndəsi arasında nə bir pərdə, nə də bir qapı vardır. Amma insanlar belə deyildir, onlardan bir şey istəyənlərlə öz aralarına qapılar və pərdələr qoyar, onlara çatmaq çox vaxt mümkünsüz olar.

Tavus, Ətaya belə nəsihət etmişdir: “Sənin üzünə qapını bağlayan və ehtiyaclarını qarşılamamaq üçün bəhanələr uyduran insandan heç nə istəmə. Əksinə, qapısını Qiyamət gününə qədər açıq tutana və sənə istədiyini verməyə vəd verənə yönəl”.

Vəhb ibn Münəbbih alimlərdən birinə demişdi: “Mən eşitmişəm ki, sən padşahların və şahzadələrin qapısına çox baş vurursan?! Vay halına! Sən o kəslərə gedirsən ki, onlar sənin üzünə qapılarını bağlayır, yoxsulluqlarını göstərib varlılıqlarını gizlədirlər! Amma o Rəbbi unudursan ki, gecənin ortasında da, gündüzün ortasında da sənə qapısını açır, sənə var-dövlətini göstərir və deyir: “Məndən istə, istədiyini verim!”

Məymun ibn Mehran əmirin qapısı qarşısında bir qrup insanın toplandığını görəndə dedi: “Kimin bir ehtiyacı varsa, onu hökümdarlardan gizlətsin, Rəhmanın evləri (məscidlər) hər zaman açıqdır. Qoy bir məscidə getsin, iki rükət namaz qılıb sonra ehtiyacını istəsin”.

[52] Buxari, 1145. Muslim, 758

Bəkr əl-Muzəni deyərdi: “Ey Adəm oğlu! Səndən üstün kim ola bilər?! Nə vaxt günahlarından təmizlənmək istəsən Rəbbinə yönəl, çünki səninlə Onun arasında nə bir pərdə, nə də bir tərcüməçi var”.

Bir kişi salehlərdən birindən xahiş edib dedi ki, filankəsə işim düşüb, mənimlə onun arasında vasitəçilik edərsən? O isə belə cavab verdi: “Mən üzümə açıq bir qapını tərk edib bağlı bir qapıya getmərəm”.

Bu məna ilə bəziləri belə demişdir:

Padşahların həyətləri bağlıdır,
Amma Allahın qapısı hər kəsə açıqdır.

Başqa biri isə belə demişdir:

Dilənçilərdən uzaq duranlara de ki,
Evlərinizin ətrafında varsa da keşikçi,
Sizinlə qarşılaşmağa qapıçınız mane olsa da,
Əsla qapıçı yoxdur Allahın qapısında.

Alimlərdən biri də belə demişdir:

“Elə birinin qapısında oturma ki, səni evinə buraxmaqdan imtina edir. Ona “Ehtiyacım var” deyirsən, amma ehtiyacın onun könlünə bağlıdır. Onu burax və Rəbbinə yönəl, onda ev sahibinin özü istəməsə belə, sənin istəyin yerinə yetər”.

Abdullah ibn Məsuddan rəvayət edilir ki:

“Bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ey Allahın Elçisi, filan qəbilənin adamları mənə hücum etdilər, oğlumu və dəvələrimi apardılar”. Peyğəmbər ﷺ ona belə cavab verdi: “Muhəmmədin ﷺ ailəsində neçə-neçə ev var ki, onların bir qab (ölçü) belə yeməyi yoxdur. Sən Allahdan istə”. Kişi evinə qayıtdı. Arvadı ondan soruşdu: “Peyğəmbər sənə nə dedi?” O, cavab verdi. Arvadı dedi: “Nə gözəl cavab verib!” Çox keçmədi ki, Allah onun oğlunu və dəvələrini ona əvvəlkindən artıq şəkildə geri qaytardı. Kişi gəlib bu xəbəri Peyğəmbərə ﷺ verdi. Peyğəmbər minbərə çıxdı, Allaha həmd-səna etdi, insanlara Allahdan istəməyi, Ona yönəlməyi tövsiyə etdi və bu ayəni oxudu**: “Kim Allahdan qorxarsa, Allah ona çıxış yolu göstərər və onu gözləmədiyi yerdən ruziləndirər”**[53] (“Talaq” surəsi, 2-3).

Bir kişi Sabit əl-Bunaniyənin yanına gəlib ondan bir hakimin yanında öz işi üçün vasitəçilik etməsini istədi. Sabit onunla birlikdə getdi. Yolda qarşılarına çıxan hər məsciddə dayanıb namaz qıldı və dua etdi. Hakimin məclisinə çatanda artıq o getmişdi. Ehtiyacı olan şəxs Sabitə qəzəbləndi. Sabit isə (onun üçün dua etdiyini qəsd edərək) dedi: “Sənin işin üçün əlimdən gələni etmədimmi?” Bir müddət sonra Allah onun ehtiyacını özü qarşıladı, artıq hakimin yanına getməyə ehtiyac qalmadı.

---

[53] İbn Əbi əd-Dünya

Bəsrəli İshaq ibn Əbbad yatarkən yuxuda bir səs ona belə dedi: “Çarəsizə yardım et!” O ayıldı və qonşularından soruşdu: “Aranızda ehtiyacı olan varmı?” Onlar: “Bilmirik” dedilər. O, yenidən yuxuya getdi. Səs ikinci və üçüncü dəfə dedi: “Yatırsan, amma çarəsizə yardım etmirsən?!” O, ayağa qalxıb özü ilə üç yüz dirhəm götürdü, miniyinə minib Bəsrəyə doğru yollandı. Cənazə namazlarının qılındığı bir məscidin qarşısında dayandı. İçəri girdi və bir adamın namaz qıldığını gördü. O adam İshaqın gəldiyini hiss edib namazdan ayrıldı. İshaq ona yaxınlaşıb dedi: “Ey Allahın bəndəsi! Bu vaxtda, bu yerdə?! Səni bura nə gətirib çıxardı?” O dedi: “Mənim bütün sərvətim yüz dirhəm idi. Bir gün onu itirdim və indi iki yüz dirhəm borcum var”. İshaq ona üç yüz dirhəm verib dedi: “Bunları götür”. Adam pulu götürdü və soruşdu: “Səni tanımıram, sən kimsən?” İshaq dedi: “Mən İshaq ibn Əbbadam. Əgər bir gün ehtiyacın olsa, filan yerdə evim var, yanıma gəl”. O şəxs İshaq ibn Əbbada dedi: “Allah sənə rəhmət eləsin! Əgər bizə bir çətinlik üz verərsə, biz səni bu vaxtda evindən çıxarıb yanımıza göndərən Allaha üz tutarıq”.

Abdurrahman ibn Zeyd ibn Əsləm belə rəvayət edir: “Bir gün səhər açıldıqda anam atama dedi: “And olsun Allaha, bu evdə yeyiləsi heç bir şey yoxdur”. Atam qalxdı, dəstəmaz aldı, evində namaz qıldı. Anam mənə baxaraq dedi: “Atan gördüyün bu işdən başqa bir şey edə bilmir. Sən çıx, bir şey axtar”. Mən də çıxdım. Yadıma xurma satıcısı olan dostumuz düşdü və onun olduğu bazara getdim. O məni görən kimi səslədi, evinə apardı, yemək yedizdirdi. Sonra mənə içində otuz dinar olan bir kisə uzatdı. Mən ona heç bir ehtiyacımızı bildirməmişdim və o, “Atana salam de və ona çatdır ki, biz bütün ticarətimizə onu ortaq etdik. Bu, onun payıdır” dedi və 30 dinarı mənə verdi”.

Şəqiq əl-Bəlxi deyir: “Evimdə oturmuşdum, ailəm ac olan uşaqları mənə göstərərək dedi: “Bu uşaqların aclığından xəbərin yoxdurmu? Bu uşaqlar bu vəziyyətdə ikən sən hələ oturursan!” Mən dəstəmaz alıb çıxmaq istədim. Ağlıma daim “Əgər ehtiyacın olsa, mənə bildir” deyən bir dostum düşdü. Evdən çıxıb bir məscidin yanından keçdim. O an Əbu Cəfərdən gələn bu hədis yadıma düşdü: **“Kimin məxluqa ehtiyacı olarsa, əvvəlcə Allaha dua etsin və istəməyə ondan başlasın”.** Sonra Məscidə girib iki rükət namaz qıldım. Daha sonra yuxum gəldi və yuxuya getdim. Yuxuda bir səs belə dedi: “Ey Şəqiq! İnsanları Allaha dəvət edib, onlara rəhbərlik edib özün isə Onu unudursan?!” Oyandım və anladım ki, bu mənim Rəbbimin bir xəbərdarlığı idi. Məsciddə axşam namazı qılınana qədər qaldım, sonra evə qayıtdım. Gördüm ki, getmək istədiyim adam artıq özü hərəkətə keçib və Allah onun vasitəsilə ailəmə düşündüyüm şeyləri lütf edib”.

İbrahim ibn Ədhəm rəvayət edir: “O, dostları ilə cihada çıxmışdı. Onlar aralarında pul yığmaq üçün razılaşdılar, hər biri bir dinar qoydu. O isə kimdən borc alsın deyə düşündü və ağlayaraq dedi: “Vay mənə ki, qullardan istəyirəm, amma onların Rəbbini unuduram! O zaman Rəbbim mənə belə deyər: “Sən kimdən istəməli idin – Məndənmi, yoxsa bəndəmdənmi?” Dəstəmaz alıb iki rükət namaz qıldı və səcdəyə qapandı, belə dua etdi: “Ey Rəbbim! Nə etdiyimi bilirsən. Bu mənim səhvim və cahilliyim idi. Əgər buna görə məni cəzalandırsan, mən buna layiqəm. Amma əgər məni əfv etsən, buna layiq olan Sənsən. Ehtiyacımı bilirsən, onu rəhmətinlə qarşıla”. Başını qaldıranda qarşısında dörd yüz dinara yaxın pul gördü. Onlardan yalnız birini götürüb ayrıldı”.

Əsbəğ ibn Zeyd deyir: “Üç gün idi ki, mən və ailəm heç nə yeməmişdik. Kiçik qızım yanıma gəlib dedi: “Ata, çox acıq!” Bundan sonra dəstəmaz alıb evdən çıxdım. iki rükət namaz qıldım və bu duanı etdim: “Allahım! Tərəfindən mənə ruzi göndər. Belə ki, orada kimsənin minnəti olmasın və axirətdə Sənin qarşında onun hesabı olmasın. Heç şübhəsiz ki, Sən rəhm edənlərin ən rəhimlisisən. Rəhmətini mənə göstər!”. Daha sonra evimə qayıtdım. Böyük qızım qarşıma çıxıb dedi: “Ata, az əvvəl bir əmi gəldi. Bir kisə pul, bir kisə un, bir kisə də bazardakı hər şeydən gətirdi. Onları burada qoyub belə dedi: “Qardaşıma (atana) məndən salam deyin və söyləyin ki, əgər ehtiyacı olsa, bu duanı etsin, ehtiyacı ona gələcək”. Əsbəğ deyir: “Allaha and olsun, mənim heç bir qardaşım yoxdur və bu adamın kim olduğunu da bilmirəm. Amma Allah hər şeyə qadirdir!”

Həkəm ibn Musa deyir: “Bir gün səhər xanımım dedi: “Evdə nə un, nə də çörək var!” Heç nəyim yox idi, çölə çıxdım, əlimdən heç nə gəlmirdi və yeriyərək belə dua etdim: “Allahım! Sən bilirsən ki, evimdə nə un, nə çörək, nə də pul var! Ey mərhəmətli Rəbbim, Sən bizə bunları yetir!” Dua edirdim ki, yanıma bir adam gəldi və belə dedi: “Un istəyirsən, yoxsa çörək?” Cavab verdim: “İkisindən biri olsun, fərq etməz”. Sonra axşama qədər gəzdim, heç nə tapa bilmədim, evə qayıtdım. Xanımım qarşıma çörək və bol ətlə çıxdı. Soruşdum: “Bunu sizə kim gətirdi?” Dedilər: “Sənin göndərdiyin adam”. Mən isə susdum, heç nə demədim”.

Təvaf əsnasında bir nəfər belə deyirdi: “Ey Rəbbim! Mən Sənin gördüyün kimi yoxsulam. Övladlarımın da geyinəcək paltarları yoxdur. Dəvəm də gördüyün kimi zəifləyib. Sən necə görürsənsə, eləcə də (haqqımda) hökm ver, ey Görən və görünməyən!” Birdən arxadan bir səs gəldi: “Ey Asim, ey Asim! Tez ol, əminə çat! O, Taifdə vəfat etdi və özündən sonra min qoyun, üç yüz dəvə, dörd yüz dinar, dörd qul, üç yəmən qılıncı qoyub. Get onları götür! Çünki onun səndən başqa varisi yoxdur”. Dedi: “Ey Asim! Dua etdiyin Rəbbin sənin çox yaxınındaydı”. Asım dedi: “Ey kişi! Məgər Allahın bu sözünü eşitməmisənmi: **“Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən (onlara) yaxınam”** (“Bəqərə” surəsi, 186).

Bu mənaya aid saysız-hesabsız rəvayətlər və hekayələr vardır ki, onların hamısını qeyd etmək kitabın həcmini artırardı. Onlar “Əl-fəracu bəadəş-şiddə”, “Mucibətid-dəvəti” (İbn Əbi əd-Dünya), “Əl-Mustasrixinə billəhi ində nüzul-bələ” (Qazı Əbul-Vəlid ibn əs-Sığar), “Əl-Mustəğisinə billəhi ində nüzul-bəla” (Hafiz Əbul-Qasim ibn Bəşkuval əl-Əndəlusi) və başqa zühd, rəqaiq (qəlbi yumşaldan sözlər) və tarix kitablarında qeyd olunmuşdur.

Şeyx Əbul-Fərəc özünün “Ət-Tarix əl-Kəbir” kitabında Həsən ibn Sufyanın isnadı ilə belə rəvayət edir: “Həsən ibn Sufyan Misirdə bir qrup tələbə yoldaşı ilə birlikdə hədis öyrənirdi. Günlərin bir günü ehtiyac içində qaldılar, əllərində nə var idisə satdılar və artıq satacaqları bir şey də qalmadı. Üç gün ac qaldılar. Dördüncü günün səhəri çox çətin vəziyyətə düşdükləri üçün birindən yardım istəməyə qərar verdilər və aralarında püşk atdılar. Püşk Həsən ibn Sufyanın adına çıxdı. O deyir: “Bu vəziyyətə çox təəccübləndim. Ehtiyac içində idim, amma kimdənsə istəməyə könlüm razılıq vermədi. Məscidin bir küncünə çəkilib uzun bir dua etdim və iki rükət namaz qıldım, Allahdan çətinliyimi aradan qaldırmasını və mənə çıxış yolu verməsini istədim. Namazdan təzəcə çıxmışdım ki, içəri bir adam və xidmətçisi daxil oldu. Xidmətçinin əlində bir

dəsmal var idi. O, sual verdi: “Sizdən hansınız Həsən ibn Sufyandır?” Mən səcdədən başımı qaldırıb dedim: “Mənəm”. O dedi: “Əmir İbni Tulun sizə salam göndərdi. O, sizin halınızdan xəbərsiz qalması və hüquqlarınızı qorumaqda göstərdiyi səhlənkarlıqdan dolayı üzr istəyir. O, sizə bir qədər maddi yardım göndərib və sabah şəxsən sizi ziyarət edəcək və sizdən üzr istəyəcək. Xidmətçi hər birimizin əlinə içində yüz dinar olan kisə verdi”. Onlar çox təəccübləndilər və səbəbini soruşdular. Xidmətçi dedi: “Bu gün əmir yatarkən yuxusunda səmada bir atlı görüb. O atlı ona belə deyib: “Dur! Həsən ibn Sufyan və yoldaşlarını tap! Onlar artıq üç gündür filan məsciddə acdırlar!” Əmir soruşub: “Sən kimsən?” Cavab verib: “Mən Cənnətin gözətçisi Ridvanam”. Həsən ibn Sufyan dedi: “Biz Allaha şükür etdik. Səhəri gün gecə Misirdən ayrıldıq ki, əmir bizi ziyarət etməsin. Çünki bu, adımızın ucalmasına, nüfuzumuzun artmasına səbəb ola bilərdi. Bu da riya və şöhrətə səbəb olardı”.

Əbul-Fərəc başqa bir isnadla Muhəmməd ibn Harun ər-Ruyani haqqında da rəvayət edir ki, o, Muhəmməd ibn Nəsr əl-Mərvazi, Muhəmməd ibn Əluyyəh əl-Vərraq və Muhammməd ibn İshaq ibn Xuzeymə ilə bir yerdə idi...Hekayənin mənası eynidir və bu dəfə duanı edən şəxs İbn Xuzeymə idi.

Başqa bir isnadla bu dörd nəfərin Muhəmməd ibn Cərir, Muhəmməd ibn Nəsr, Muhəmməd ibn Xuzeymə və Muhəmməd ibn Harun olduğu qeyd edilir.

## "وإذا استعنت فاستعن بالله"

## "Əgər kömək diləsən, Allahdan dilə"

Peyğəmbər ﷺ əvvəlcə Allahı (onun dinini) qorumağı və rahatlıq vaxtında Onu tanımağı əmr etdi, bu isə həqiqi mənada ibadətdir. Sonra yalnız Allahdan istəməyi və Ona dua etməyi öyrətdi. Çünki dua ibadətin özü deməkdir. Necə ki, Numan ibn Bəşir vasitəsilə rəvayət olunan hədisdə Peyğəmbər ﷺ belə dedi: **"Dua ibadətin özüdür"**, sonra bu ayəni oxudu: **"Rəbbiniz buyurdu: Mənə dua edin, Mən də duanıza cavab verim"** ("Ğafir" surəsi, 60)[54].

Bundan sonra Peyğəmbər ﷺ yalnız Allahdan yardım istəməyi tövsiyə etdi. Bu da Qurandakı bu böyük və əhatəli ayəyə əsaslanır:

**"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik"** ("Fatihə" surəsi, 5).

Alimlər deyib ki, ilahi kitabların bütün mahiyyəti bu ayəyə qayıdır və onun ətrafında dövr edir.

Yalnız Allahdan yardım istəməyin iki əsas faydası vardır:

1. Aciz olan qul ibadət və itaətlərdə öz nəfsinə güvənməkdən qurtulacaqdır.
2. Qula dinində və dünyasında fayda verə biləcək yeganə köməkçi Allahdır. Allahın yardımını görən kəs uğura nail olmuşdur. Onun tərk etdiyi (yardımsız buraxdığı) isə uğursuzluğa məhkum olmuşdur.

Səhih bir hədisdə Peyğəmbər ﷺ belə buyurur:

**"Sənə fayda verəcək işlərə can at, Allahdan kömək istə və acizlik göstərmə"[55].**

Peyğəmbər ﷺ öz xütbələrində belə deyər və səhabələrə də belə deməyi öyrədərdi: **"Həmd Allaha məxsusdur! Biz Ondan yardım istəyir və Ondan doğru yolu diləyirik"[56].**

Peyğəmbər ﷺ Muaz ibn Cəbələ hər namazdan sonra bu duanı tərk etməməyi tövsiyə etmişdi: **"Allahım! Səni zikr etməkdə, Sənə şükür etməkdə və Sənə gözəl şəkildə ibadət etməkdə mənə yardım et"[57].**

---

[54] Əbu Davud, 1479. Tirmizi, 3372. Nəsai, 11464. İbn Macə, 3828. İmam Tirmizi hədisin "həsən səhih" olduğunu demişdir.
[55] Muslim, 2664
[56] İmam Şafi, "Müsnəd", 1/147
[57] Əhməd İbn Hənbəl, 5/245. Əbu Davud, 1522. Nəsai, 3/53

Peyğəmbər ﷺ dualarından birində belə deyərdi: **“Ey Rəbbim! Mənə yardım et, mənim əleyhimə (olan şeytana) yardım etmə!”**[58]

Ömər ibn Xəttab və başqa səhabələrin etdiyi Qunut duasında belə deyilir: **“Allahım! Biz ancaq Səndən yardım istəyirik”.**

Məşhur bir rəvayətdə deyilir ki, Musa (Allahın ona salamı olsun) əsasını dənizə vurduqda və dəniz iki yerə ayrıldıqda belə dua etmişdi: “Allahım! Həmd yalnız Sənə məxsusdur. Dərdimi yalnız Sənə bildirirəm. Heç şübhəsiz ki, Səndən yardım istənilir və darda qalana Sən kömək edirsən. Sənə təvəkkül edirəm. Allahım! Səndən başqa güc və qüvvət sahibi yoxdur”.

Qullar hər bir işdə, istər əmr olunanları yerinə yetirməkdə, istər qadağalardan uzaq durmaqda, istərsə də başlarına gələn aqibətlərə səbir etməkdə Allahın yardımına ehtiyac duyur. Necə ki, Yaqub (Allahın ona salamı olsun) oğullarına belə demişdi: **“Mənə gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır”** (“Yusuf” surəsi, 18).

Buna görə də iftira məsələsi yayılanda və Allah onu təmizə çıxardıqda Aişə (Allah ondan razı olsun) bu ayəni söyləmişdi. Musa öz qövmünə dedi: **“Allahdan kömək diləyin və səbir edin. Şübhəsiz ki, yer üzü Allahındır”** (“Əraf” surəsi, 128).

Allah da Öz Peyğəmbərinə ﷺ belə buyurmuşdur: **“(Peyğəmbər) dedi: “Ey Rəbbim! (Mənimlə kafirlər arasında) ədalətlə hökm ver! Sizin aid etdiyiniz sifətlərə qarşı ancaq Rəhman olan Rəbbimizdən kömək diləmək lazımdır**” (“Ənbiya” surəsi, 112).

Peyğəmbər ﷺ Osman ibn Əffanı başına gələcək bir müsibətlə birlikdə Cənnətlə müjdələdikdə belə demişdi**: “Allah yardım edənlərin ən yaxşısıdır ”**[59]**.**

Osmanın (Allah ondan razı olsun) evinə girib onu şəhid edən bir dəstə ona hücum etdikdə və yaraladıqda, qan içində bu sözləri söyləyirdi: “Səndən başqa ibadətə layiq haqq məbud yoxdur, Sən pak və müqəddəssən. Həqiqətən, mən zalımlardan oldum. Allahım! Mən onlara qarşı Sənin yardımını istəyirəm və yalnız Sənə sığınıram. Allahım başıma gələnlərə səbir etmək üçün mənə yardım et”.

Əbu Təlhə rəvayət edir ki, Peyğəmbər ﷺ döyüşlərində düşmənlə qarşılaşdıqda belə dua etmişdi: **“Ey Haqq-Hesab gününün Sahibi olan Allahım! Yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım istəyirik”**[60]**.**

---

[58] Əhməd İbn Hənbəl, 1/227. Əbu Davud, 1510. Tirmizi, 3551. İmam Tirmizi hədisin “həsən səhih” olduğunu demişdir.
[59] Muslim, 2403
[60] İbn əs-Sünni, “Əməlu Yəvmi vəl-Leyləti”, 334. Təbərani, “Əvsat”, 8163. Heysəmi, “Məcməuz-Zəvaid”, 5/328

Əbu Təlhə deyir: “And olsun ki, mən (müşrik) kişilərin bir-bir yerə yıxıldığını gördüm” (Bunu Əbu Şeyx əl-Əsbahani rəvayət etmişdir).

Bəndə həm dini, həm də dünyəvi işlərində Allahdan yardım istəməyə möhtacdır. Bunun ən gözəl nümünəsi Zübeyr ibn Əvvamın oğlu Abdullah ibn Zübeyrə etdiyi vəsiyyətində borcunu ödəməsi barədə belə deməsidir**: “Əgər borcumu ödəməkdə aciz qalarsansa, Himayədarımdan yardım istə”.** Oğlu soruşdu: **“Atacan, sənin Himayədarın kimdir?”** Zübeyr cavab verdi: **“Allah”.** Abdullah dedi: **“Hər dəfə borc ilə bağlı çətinliyə düşəndə belə deyirdim: “Ey Zübeyrin Mövlası, onun borcunu ödəməkdə mənə yardım et!”** və onun borcu ödənərdi.

Ömər ibn Xəttab (Allah ondan razı olsun) xəlifə olanda minbərdə ilk xütbəsində belə demişdi: “Bilin ki, ərəblər tərs bir dəvə kimidir, mən də onun yüyənindən tutmuşam. Bilin ki, mən onu doğru yola yönəltməkdə Allahdan yardım istəyəcəm”.

Bəndə həmçinin ölüm və ondan sonrakı qorxunc hallarla qarşılaşarkən də Allahın yardımına ehtiyac duyur.

Xalid ibn Vəlid (Allah ondan razı olsun) ölüm yatağında ikən yanındakılardan biri dedi: “And olsun ki, ölüm Xalidə ağır gəlir”. Xalid isə dedi: “Bəli, doğrudur, amma mən bu halımda Allaha sığınıram”.

Amir ibn Abdullah ibn Zübeyr vəfat edərkən ağladı və dedi: “Mən yalnız günün istisində oruc tutmağıma və gecələrin soyuğunda namaz qılmağıma ağlayıram”. Və əlavə etdi: “İndi Allahdan istəyim odur ki, bu canvermə halımda mənə yardım etsin”.

Sələflərdən birinin belə bir sözü var: “Ey Rəbbim! Səni tanıyan birinin Səndən başqasına ümid bəsləməsinə heyrət edirəm! Yenə, səni tanımasına baxmayaraq başqasından kömək istəyənə təəccüb edirəm!”

Həsən əl-Bəsri Ömər ibn Əbdüləzizə belə yazmışdı: “Allahdan başqasından yardım istəmə, yoxsa Allah səni ona həvalə edər (öz köməyindən məhrum edər)”.

Bəziləri isə belə demişlər: “Odur ki, Allahdan yardım istə və Ona sığın. Çünki O, yardım edəcəklərin ən xeyirlisidir”.

"جف القلم بما هو كائن"

**“Bil ki, olacaq hər şey yazılmış və qələm qurumuşdur ”**[61]

"رفعت الأقلام وجفت الكتب"

**“Qələmlər qaldırılmış və kitablar qurumuşdur”**[62]

"رفعت الأقلام وجفت الصحف"

**“Qələmlər qaldırılmış və səhifələr qurumuşdur”**[63]

Rəvayətlərin hamısı qədərin (qismətin) artıq tamamlandığı, Allah tərəfindən çox əvvəldən ümumi bir kitabda yazıldığına işarə edən bənzətmələrdir. Çünki bir yazı yazılıb tamamlandıqda və üzərindən zaman keçdikdə, artıq o yazı üçün istifadə edilən qələm də qaldırılmış, onun mürəkkəbi və yazıldığı səhifə də qurumuş olur. Bu ifadə yazı yazma işinin qurtardığına dair ən gözəl və ən təsirli bənzətmələrdən biridir. Qurani-Kərim və səhih Sünnə də bu mənanı təsdiqləyir. Uca Allah buyurur:

**“Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Kitabda (Lövhi-Məhfuzda) olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır”** (“Hədid” surəsi, 22).

Dahhəq, İbn Abbasdan belə nəql edir: “Allah qələmi yaratdı və ona əmr etdi ki, Onun izni ilə yazsın. Qələmin böyüklüyü göylə yer arası qədərdir. Qələm dedi: “Ey Rəbbim, nə yazım?” Allah buyurdu: “Yaratmış olduğum və olacaq hər bir şeyi – yağışı, bitkiləri, canlıları, əməlləri, ruziləri və əcəlləri yaz”. Sonra qələm Qiyamət gününə qədər olacaq hər şeyi yazmağa başladı. Allah da bu yazını Ərşin altında Öz kitabında qeydə aldı”.

Əbu Zibyan da İbn Abbasdan belə rəvayət edir: “Allahın yaratdığı ilk şey qələm idi. Allah ona dedi: “Yaz!” Qələm soruşdu: “Nə yazım?” Allah buyurdu: “Qədəri yaz”. Qələm də Qiyamətə qədər baş verəcək hər şeyi yazdı”. Sonra İbn Abbas bu ayəni oxudu:

**“Nun. And olsun qələmə və (onun) yazdıqlarına!”** (“Qələm” surəsi, 1)[64].

Əbu Duhhə də İbn Abbasdan bu mənaya oxşar söz nəql etmişdir [65].

---

[61] İmam Əhməd, “Müsnəd”, 1/293
[62] İmam Əhməd, “Müsnəd”, 1/307
[63] Tirmizi, 2516
[64] İbn Cərir, 29/9-10
[65] İbn Cərir, 29/10

İbn Bətta zəif sənədlə Əbu Hureyradan mərfu olaraq belə bir hədis rəvayət etmişdir: "Allahın yaratdığı ilk şey qələm idi. Sonra nunu yaratdı ki, o da mürəkkəb qabıdır və ona dedi: "Yaz". Qələm soruşdu: "Nə yazım?" Allah buyurdu: "Qiyamət gününə qədər cərəyan edəcək hər şeyi yaz". Allahın **"Nun. And olsun qələmə və (onun) yazdıqlarına!"** ayəsi də bu mənadadır. Sonra qələmin ağzı möhürləndi və o gündən Qiyamətə qədər bir daha danışmayacaq"[66].

Ubədə ibn Samitdən rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: **"Allahın yaratdığı ilk şey qələm oldu. Allah ona dedi: "Yaz", o da o andan Qiyamət gününə qədər olacaq şeyləri həmin an yazdı"[67].**

Abdullah ibn Amrdan belə rəvayət edilir ki, Peyğəmbər ﷺ buyurdu: **"Allah göyləri və yeri yaratmazdan əlli min il əvvəl bütün məxluqatın qədərini yazmışdı"[68].**

Abdullah ibn Amrdan belə rəvayət edilmişdir: "Bir gün Allahın Elçisi ﷺ yanımıza gəldi, əlində iki kitab vardı. Dedi: "Bu iki kitabın nə olduğunu bilirsinizmi?" Dedik: "Xeyr, ey Allahın Elçisi, yalnız sən bizə xəbər versən, o zaman bilərik". Peyğəmbər sağ əlindəki kitabı göstərərək dedi: "Bu, aləmlərin Rəbbinin kitabıdır. Onun içində Cənnət əhlinin adları, ataları və qəbilələri qeyd olunub. Sonuncusuna qədər tamamlanıb, nə bir ad artırılar, nə də çıxarılar". Sonra sol əlindəki kitabı göstərib dedi: "Bu da aləmlərin Rəbbinin kitabıdır. Onun içində Cəhənnəm əhlinin adları, ataları və qəbilələri yazılıb. Sonuncusuna qədər tamamlanıb, onlara da nə artırılar, nə də çıxarılar". Səhabələr dedilər: "O zaman ey Allahın Rəsulu, əgər hər şey əvvəldən yazılıbsa, bəs əməl etməyin mənası nədir?" Peyğəmbər ﷺ buyurdu: "Doğru olun və doğruluğa yaxınlaşmağa çalışın. Cənnət əhlindən olan insan nə iş görürsə görsün, axırda Cənnət əhlinin əməlləri ilə nəticələnəcək. Cəhənnəm əhli də nə iş görürsə görsün, axırda Cəhənnəm əhlinin əməlləri ilə nəticələnəcək. Sonra əllərini bağlayaraq buyurdu: **''Rəbbiniz artıq Öz qulları ilə bağlı hökmünü vermişdir və bu ayəni oxudu: "Bir qismi Cənnətdə, digər qismi isə Odda olacaqdır"** ("Şura" surəsi, 7)[69].

Əbu Dərdadan belə rəvayət olunur ki, Peyğəmbər ﷺ belə buyurdu: **"Allah hər bir bəndənin beş məsələsini müəyyən etmişdir: onun əcəli, ruzisi, əməlləri, harada öləcəyi və xoşbəxt, yaxud bədbəxt olacağı"[70].**

İbn Məsuddan belə rəvayət olunur ki, Peyğəmbər ﷺ belə buyurdu: **"Allah hər bir nəfsi yaratmış, onun həyatını, ruzisini və başına gələcək müsibətləri yazmışdır"[71].**

Cabirdən rəvayət olunur ki, bir nəfər Peyğəmbərdən ﷺ soruşdu**: "Ey Allahın Elçisi! Biz bu gün hansı əsasla əməl edək, artıq qələmlərin quruduğu, qədərlərin yazıldığına**

---

[66] Əcluni, "Kəşful-Xafə", 1/309
[67] İmam Əhməd, "Müsnəd", 5/317. Əbu Davud, 4700. Tirmizi, 2155. İmam Tirmizi hədis barəsində "qəribdir" demişdir.
[68] Muslim, 2653
[69] İmam Əhməd, "Müsnəd", 2/167. Tirmizi, 2141. Nəsai, 11473
[70] İmam Əhməd, "Müsnəd", 5/197
[71] İmam Əhməd, "Müsnəd", 1/440. Tirmizi, 2143

**əsasənmi, yoxsa gələcəkdə qarşılaşacağımız şeylərə görəmi?” Peyğəmbər ﷺ buyurdu: “Xeyr, artıq qələmlər qurumuşdur, qədər yazılmışdır”. Adam soruşdu: “O zaman əməl etməyin mənası nədir?” Peyğəmbər ﷺ buyurdu: “Əməl edin! Çünki hər kəsə öz yazısına uyğun olan yol asanlaşdırılmışdır”[72].**

Bu mənada çoxlu sayda hədislər, həmçinin (səhabə və tabiinlərdən gələn) bir çox mövquf (Səhabəyə aid olan söz, feil, hərəkət və davranışlar – red.) rəvayətlər də mövcuddur. Bəziləri isə belə demişlər: “Bütün işi tamamilə (Allaha) təslim et, çünki qələmlə yazılan hər şey artıq quruyub. Çünki insanların Xaliqi vardır və Onun hökm etdiyi şeyə qarşı çıxacaq heç bir geri dönüş yoxdur”.

[72] Muslim, 2648

"فلو أنَّ الخلق جميعًا أرادوا أن ينفعوك بشيء لم يقضه الله لك لم يقدروا عليه، وإن أرادوا أن يضروك بشيء لم يكتبه الله عليك لم يقدروا عليه"

## "Əgər bütün məxluqat bir yerə yığılıb sənə bir fayda vermək istəsə, Allahın sənin üçün yazmadığı faydanı verə bilməzlər. Əgər sənə bir zərər yetirmək istəsələr, Allahın sənin üçün yazmadığı bir zərəri verməyə gücləri çatmaz"

Şübhəsiz ki, qula dünyada dəyəcək hər bir xeyir və ya zərər onun üçün əvvəlcədən müəyyən olunmuşdur. Bütün məxluqat bir araya gəlsə belə, Allah tərəfindən yazılmayan şey baş verməz. Qurani-Kərim də buna işarə edir, Uca Allah belə buyurur:

**"De: "Allahın bizim üçün (Lövhi-Məhfuzda) yazdığından başqa başımıza heç nə gəlməz"** ("Tövbə" surəsi, 51).

**"Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Kitabda (Lövhi-Məhfuzda) olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır"** ("Hədid" surəsi, 22).

**"De: "Əgər siz evlərinizdə olsaydınız belə, öldürülməsi əzəldən yazılmış kəslər yenə çıxıb öləcəkləri yerlərə gedərdilər"** ("Ali-İmran" surəsi, 154).

Əbu Dərda (Allah ondan razı olsun) Peyğəmbərdən ﷺ belə rəvayət edir**: "Şübhəsiz ki, hər bir şeyin bir həqiqəti vardır. Qul ona baş verməli olanın ondan yan keçməyəcəyini və ondan yan keçənin isə ona üz verməyəcəyini bilmədikcə imanın həqiqətinə çatmaz"**[73]**.**

Əbu Davud və İbn Macə də Zeyd ibn Sabitdən eyni mənaya dəlalət edən bir hədis rəvayət etmişlər[74].

Bilməlisən ki, Peyğəmbərin ﷺ İbn Abbasa olan bu böyük vəsiyyəti bütövlükdə qədərə iman ətrafında cəm olunub. Çünki əgər qul bilsə ki, ona ancaq Allahın yazdığı fayda və ya zərər dəyəcək, bütün məxluqat birləşsə belə, onun əksinə heç nə edə bilməz, o zaman o anlayar ki, zərər və fayda verən, yaxşılıq edən, ruzi verən və məhrum edən yalnız Allahdır. Bu isə qulu yalnız Ona ibadət etməyə, yalnız Ondan yardım diləməyə, yalnız Ona dua və yalvarış etməyə vadar edər. Çünki Məbuda ibadətin mənası xeyir əldə etmək və zərəri dəf etməkdir.

---

[73] İmam Əhməd, "Müsnəd", 6/441
[74] Əbu Davud, 4699. İbn Macə, 77

Buna görə də Allah fayda və zərər verməyən bütlərə ibadət edənləri qınamışdır. Eləcə də qəlbində imanını tam kamilləşdirməyənlər onlardan bir fayda umur, həmçinin bir zərəri dəf etmək üçün məxluqa itaəti Allaha itaətdən üstün tuturlar. Əgər bəndə qəti olaraq bilsə ki, fayda və zərər yalnız Allahın əlindədir, bu, onu yalnız Ona itaət etməyə və Onun əmrlərini bütün məxluqatın əmrlərindən üstün tutmağa sövq edər.

Həmçinin, bu həqiqət bəndəni yalnız Allahdan kömək istəməyə və yalnız Ondan diləməyə yönəldir. Bu böyük vəsiyyətdə bütün bunlar toplanmışdır. Allahın haqlarını qorumaq, Onun sərhədlərinə riayət etməyə gəldikdə isə, bu əsl ibadətdir. Allahın öz qulunu qoruması bəndənin istəyəcəyi ən uca nemətdir. Allahı rahatlıq vaxtında tanımaq, Allahın sıxıntı zamanı qulu tanıması və ona yardım etməsi üçün səbəbdir. Çünki məşəqqət və sıxıntı vaxtı müşriklər də yalnız Allaha yalvarırlar. Amma sonra yenə şirkə qayıdırlar. Peyğəmbər ﷺ İbn Abbasa buyurmuşdur: **“Sən Allahı rahatlıq zamanında tanı ki, sıxıntı vaxtında O səni tanısın”.**

Bundan sonra Allah yalnız Ondan istəməyi və yalnız Ona güvənməyi vəsiyyət etmişdir. Belə ki, bütün məsələlərin əsası budur: zərər və fayda yalnız Allahın izni ilə baş verir və yalnız Onun yazdığı baş verər. Çünki qullar acizdir və məxluqatın hamısı bir yerə yığışsa belə, Allahın yazmadığı bir faydanı verə bilməz və bir zərəri dəf edə bilməz.

Qul bu inancı qəlbində möhkəmləndirərsə, məxluqatdan ümidini kəsər, onlardan bir şey istəməz, onlara arxalanmaz, onların özünə zərər verməsindən qorxmaz. Beləcə itaət və ibadətdə Allahı təkləşdirmiş olar. Eləcə də Ona itaətini bütün məxluqlara itaətindən üstün tutmuş olar. Bütün məxluqların narazılığına səbəb olsa belə, Onun qəzəbindən çəkinər!

Əbu Səid (Allah ondan razı olsun) mərfu olaraq rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurur: **“Yəqinliyin zəifliklərindən biridir ki, sən Allahın qəzəbinə səbəb ola-ola insanları razı salasan, Allahın ruzisinə görə insanlara təşəkkür edəsən, Allahın vermədiyi şeyə görə onları qınayasan. Halbuki, Allahın ruzisini nə bir tamahkar kəs çəkib sənə gətirə bilər, nə də kiminsə xoşlamaması onu səndən uzaqlaşdıra bilər”**[75]**.** İbnMəsuddan (Allah ondan razı olsun) buna bənzər mənada söz nəql etmişlər.

Bir şairin bu beyti necə də gözəldir:

Sən şirin ol, qoy həyat mənə acı gəlsin,
Sən razı ol, qoy insanlar mənə qəzəblənsin!
Səninlə aram yaxşı,
İnsanlarla pis olsun, mühüm deyildir,
Sənin sevgin olduqdan sonra, hər şey bəsitdir,
Yer üzündə hər şey mənə bir heçdir!

Bütün insanların torpaqdan yarandığını bilən qul, necə ola bilər ki, torpaqdan yaradılanlara itaət etsin, Allaha itaəti isə tərk etsin?! Yaxud necə ola bilər ki, torpaqdan

[75] Əbu Nuaym, “Hilyətul-Övliya”, 5/106

yaradılanların razılığını axtarsın, yerin və göyün yaradıcısı olan Allahın qəzəbinə razı olsun?! Doğrudan da bu, heyrət doğuran bir şeydir!

Qurani-Kərimdə bu həqiqət çox yerdə vurğulanıb:

**“Allahın insanlara bəxş etdiyi mərhəmətin qarşısını heç kəs ala bilməz. Onun vermədiyi bir şeyi də Ondan başqa heç kəs göndərə bilməz. O, Qüdrətlidir, Hikmət sahibidir”** (“Fatir” surəsi, 2).

**“De: “Ey insanlar! Əgər dinimə şəkk edirsinizsə, (bilin ki,) mən Allahdan başqa tapındıqlarınıza deyil, canınızı alacaq Allaha ibadət edirəm. Mənə möminlərdən olmaq əmr edilmişdir”** (“Yunus” surəsi, 107).

**“De: “Elə isə bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa dua etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi?! Yaxud (Allah) mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?”** (**“**Zumər” surəsi, 38).

Nuh peyğəmbərin öz qövmünə dediyi kimi:

**“Əgər mənim aranızda qalmağım və Allahın ayələrini sizə xatırlatmağım sizə ağır gəlirsə, bilin ki, mən yalnız Allaha təvəkkül etmişəm. Qərarınızı verin, şəriklərinizi də toplayın, işinizdə tərəddüd etməyin, sonra mənim barəmdə hökm verin və mənə möhlət də verməyin!”** (“Yunus” surəsi, 71).

Hud peyğəmbərin öz qövmünə dediyi kimi:

**“Mən Allahı şahid tuturam, siz də şahid olun ki, mən sizin şərik qoşduqlarınızdan uzağam. Yalnız Ondan (Allahdan) başqa (tapındıqlarınızın hamısından uzağam). Hamılıqla mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin. Mən, Rəbbim və Rəbbiniz olan Allaha təvəkkül etdim. Elə bir canlı yoxdur ki, onun ixtiyarı Allahın əlində olmasın. Həqiqətən, Rəbbim düz yoldadır (ədalətlə hökm verir)** (“Hud surəsi”, 54-56)

Şairlərin gözəl deyimindəki kimi:

Allahın mənim üçün təqdir etdiyi mütləq mənə çatacaq,
Təqdir olunanı Allahdan başqa pozan kim olacaq?
Bizə bizdən də yaxındır Rəbbimiz,
Qədərimizin köləsindən artıq deyilik biz.

Bir kişi Fudeyl ibn İyada kasıblıqdan şikayət edəndə o dedi: “Sən Allahdan başqa işləri sahmana salan birinimi axtarırsan?!”

Başqa bir alim isə belə demişdir:

Tədbir gör, laqeyd qalma,
Tədbir sənə fayda verməyəcək amma.
Tədbir görmüsən deyə təqdirin səndən keçməz yan,
Çünki Rəbbin var işləri sahmana salan.
Onun hökmü olacaq, Odur qərar qılan.

## "واعلم أنَّ في الصبر عَلَى ما تكره خيرًا كثيرًا"

## "Bilməlisən ki, xoşlamadığın şeyə səbir etməkdə çox böyük xeyir var"

Ğifərinin mövlası Ömərin İbn Abbasdan rəvayət etdiyi başqa bir rəvayətdə bu cümlədən əvvəl belə artırma var: **"Əgər Allah üçün Onun razılığını qazandıracaq bir iş görə bilsən, bunu et. Əgər buna gücün çatmasa, xoşlamadığın şeyə səbir etməkdə çox xeyir vardır".**

İbn Abbasın oğlu Əli ibn Abdullahdan atası vasitəsilə gələn zəif sənədli bir rəvayətdə isə belə bir əlavə var: "Ey Allahın Elçisi! Yəqinliklə necə davranım?" Peyğəmbər ﷺ buyurdu: **"Bilməlisən ki, sənə toxunan bir şey səndən yan keçə bilməzdi və səndən yan keçən bir şey də sənə toxuna bilməzdi".** Lakin bu hədisin isnadı zəifdir. Burada "yəqinlik" dedikdə daha əvvəl izah edilmiş olan – Allahın əvvəlcədən etdiyi təqdirə (qismətə) həqiqi iman nəzərdə tutulur.

Yəqinlik məsələsini tam mənimsəmək, əvvəlcədən olan qəza və qədərə qəti inanmaq insanın qəlbinə razılıq və rahatlıq gətirər. Qurani-Kərimdə də bu məna aydın şəkildə belə bildirilir: **"(Ey insanlar!) Bu, əlinizdən çıxana kədərlənməməyiniz və Allahın sizə verdiyinə fərəhlənməməyiniz üçündür. Allah heç bir özündən razını, (özü ilə) fəxr edəni sevməz"** ("Hədid" surəsi, 23).

Dahhəq bu ayə haqqında demişdir: "Allah onlara təsəlli verdi: Dünyadan əlinizdən çıxana görə kədərlənməyin, çünki Biz onu sizə təqdir etməmişdik. Sizə verdiklərimizlə də fərəhlənməyin, çünki O, sizə verilməsini istəməsəydi, buna heç kim mane olmazdı"[76] .

Səid ibn Cübeyr isə demişdir: "Bu ayədəki məqsəd odur ki, Allahın qulları itirdikləri sağlamlıq və bolluqdan dolayı kədərlənməsinlər, bilsinlər ki, bu, onlar yaradılmamışdan əvvəl yazılmışdır"[77].

Bu məzmuna yaxın olaraq sələflərdən biri belə demişdir: **"Qədərə iman qəm və kədəri aparar".**

Peyğəmbər ﷺ bu mənaya belə işarə etmişdir: **"Sənə faydalı olan işlərə yönəl, Allahdan kömək istə və aciz qalma. Əgər bir şey başına gəlsə, "kaş ki, belə etsəydim" demə, Allahın qədəri belə imiş və O nə istəyirsə, o baş verir. Çünki "kaş ki" demək şeytanın yolunu açır"[78].**

[76] İbn Əbi əd-Dünya
[77] İbn Əbi Hatim nəql etmişdir.
[78] Muslim, 2664

Peyğəmbər ﷺ bu hədisində müsibətləri yox edəcək səbəblərdən tutmaqla birlikdə qədərin (qismətin) öncədən təyin edildiyini xatırlamağın şeytanın kədər, sıxıntı və peşmanlıq meydana gətirən vəsvəsələrini yox etdiyini bildirmişdir.

Ənəs (Allah ondan razı olsun) belə demişdir: "Peyğəmbərə ﷺ on il xidmət etdim. Mənim etdiyim bir işə görə mənə "**Kaş ki, belə etməyəydin"** – demədi, etmədiyim bir işə görə də "**Kaş ki, belə edəydin"** – demədi"[79].

İmam Əhmədin rəvayətində isə bu əlavə var – Ənəs (Allah ondan razı olsun) dedi: "Kimsə məni qınadığı zaman Peyğəmbər ﷺ deyərdi: **"Nə təqdir olunubsa, o da oldu"**[80].

İbn Əbi əd-Dünyadan sənədində zəiflik olan bir rəvayətdə Aişə (Allah ondan razı olsun) deyir: "Peyğəmbərin ﷺ evdə tək olduğu zaman ən çox dediyi söz bu idi: **"Allah nəyi təqdir edibsə, o mütləq olar".**

Həmçinin İbn əbi əd-Dünya Peyğəmbərin ﷺ İbn Məsuda belə dediyini bildirən mürsəl[81] bir hədisdə rəvayət etmişdir**: "Kədərlənmə, çünki nə təqdir edilibsə, o şey baş verəcək və sənə təqdir olunan ruzi sənə çatacaq".**

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilən bir hədisdə isə Peyğəmbər ﷺ buyurmuşdur**: "Lə həulə və lə quvvatə illə billəh (Allahdan başqa güc və qüvvət sahibi yoxdur) sözü doxsan doqquz dərdin dərmanıdır, onların ən yüngülü isə qəmdir"**[82].

Şübhəsiz ki, bu ifadənin (yəni, "lə həulə və lə quvvətə illə billəh") doğrulanması üçün işlərin tamamilə Allaha təslim edilməsi və yalnız Onun istədiyinin olacağının qəbul edilməsi gərəkdir. Buna iman etmək insanın qəm-qüssəsini aradan qaldırar. Peyğəmbər ﷺ bir nəfərə nəsihət edərək belə buyurmuşdu: "**Başına gələn hər hansı bir işdən ötrü Allahı ittiham etmə"**[83].

Mömin, Allahın qəzasına və qədərinə baxıb bunu Onun hikmət və mərhəməti olaraq görər və Onun haqsızlıq etmədiyinə etimad bəsləyərsə, bu, Allahın onun başına gələn hökmündən razı qalmasına səbəb olar. Uca Allah buyurur: **"Allahın izni olmadan (heç kəsə) bir müsibət üz verməz. Kim Allaha iman gətirsə, Allah onun qəlbini haqqa yönəldər. Allah hər şeyi biləndir"** ("Təğabun" surəsi, 11).

Əlqamə bu ayə haqqında belə demişdir: "Bir adama bir müsibət gəldikdə bunun Allahdan olduğunu bilərsə, buna təslim olar və razılıq göstərər".

Peyğəmbər ﷺ belə buyurmuşdur**: "Allahın mömin təqdir etdiyi hər bir hökm onun üçün xeyirdir. Əgər ona bir sevinc gələrsə, şükür edər və bu onun üçün xeyir olar. Əgər**

---

[79] Buxari, 6037. Muslim, 2309
[80] Əhməd, "Müsnəd", 3/231
[81] Mürsəl hədis - tabiinlərdən (səhabələri görmüş nəsildən) birinin səhabənin adını qeyd etmədən birbaşa Peyğəmbərdən rəvayət etdiyi hədisdir.
[82] Təbərani, "Əl-Əvsat", 5028. Hakim (1/542) hədisin "səhih" olduğunu demişdir.
[83] Əhməd, "Müsnəd", 5/319

**ona bir çətinlik baş verərsə, səbir edər və bu da onun üçün xeyir olar. Bu hal yalnız möminə aiddir"[84].**

Qurani-Kərimdə də bu mənaya dəlalət edən bir çox ayə var:

**"De: "Allahın bizim üçün (Lövhi-Məhfuzda) yazdığından başqa başımıza heç nə gəlməz. O, bizim Himayədarımızdır. (Elə isə) qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!" De: "Doğrudanmı siz bizlərə iki uğurdan – (qələbədən və ya şəhidlikdən) birinin yetişməsini gözləyirsiniz? Biz isə ya Allahın Özü tərəfindən və yaxud da bizim əllərimizlə sizi əzaba düçar etməsini gözləyirik. Siz gözləyin; şübhəsiz ki, biz də sizinlə birlikdə gözləyirik"** ("Tövbə" surəsi, 51-52)

Ayələrdə yalnız Allahın onlar üçün yazdığının baş verəcəyi xəbər verilir. Bu da göstərir ki, xoşlarına gəlsə də, gəlməsə də bu, onlar üçün xeyirlidir. Həmçinin ayədə Allahın onların Himayədarı olduğu bildirilir. Kim Allaha təvəkkül edərsə, Allah onu əsla yardımsız buraxmaz, əksinə, bütün işlərini daha məsləhətli olana yönəldər. Uca Allah buyurur:

**"Əgər onlar üz döndərsələr, bilin ki, Allah sizin Himayədarınızdır. O, nə gözəl Himayədar və nə gözəl Yardımçıdır!"** ("Ənfal" surəsi, 40).

**"Doğrudanmı siz bizlərə iki uğurdan – (qələbədən və ya şəhidlikdən) birinin yetişməsini gözləyirsiniz?"** ("Tövbə" surəsi, 52) – yəni ya qələbə və zəfər, ya da şəhidlik, bunlardan hər hansı biri baş versə, o, qullar üçün xeyirdir.

Ənəsdən gələn hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur**: "Allah bir qövmü sevdikdə onlara müsibət göndərər. Bu müsibətlərə razılıq göstərən üçün Allahın razılığı, qəzəblənən üçün də Allahın qəzəbi vardır"[85].**

Əbu Dərda demişdir: "Həqiqətən, Allah bir hökm verdikdə onunla razı qalınmasını sevir".

Ummu Dərda isə demişdir: "Allahın onlara təqdir etdiyi şeylərlə razı olanlar Cənnətdə elə məqamlara sahib olacaqlar ki, şəhidlər Qiyamət günü onlara qibtə edəcəklər".

İbn Məsud demişdir: "Allah Öz ədaləti və elmi ilə rahatlıq və sevinci yəqinlik və razılıqda, qəm və kədəri isə şəkk və qəzəbdə təqdir etmişdir"[86]. Bu söz zəif isnadla hədis kimi də rəvayət olunmuşdur[87].

Ömər ibn Əbdüləziz belə deyərdi: "Mənim elə bir bədən üzvüm yoxdur ki, orada Allahın təqdiri baş verməsin". O, bu duanı çox edərdi: "Allahım! Təqdir etdiklərindən razı

---

[84] Muslim, 2999
[85] Tirmizi, 2396
[86] Beyhəqi, "Şuəbul-İman", 205. Hədisin isnadı "münqətidir" (isnadında qopuqluq var – red.)
[87] Təbərani, 10/10514. Beyhəqi, "Şuəbul-İman", 204. Əbu Nuaym, "Hilyətul-Övliya", 4/121, 7/130.

qalmağım haqqında məndən razı ol. Mənə yardım et ki, Sənin gecikdirdiyini tezləşdirməyi, Sənin qabağa çəkdiyini isə gecikdirməyi istəməyim".

İbn Avn demişdir: "İstər çətinlik, istər rahatlıq olsun, Allahın təqdiri (qismət) ilə razı qal. Çünki bu, sənin dərdini azaldar və axirət işlərində istədiyinə nail olmağa daha çox təsir göstərər. Bil ki, qul həqiqi razılığa yalnız yoxsulluq və müsibətdəki razılığı, zənginlik və firavanlıqdakı razılığı kimi olduqda çatar. Necə olur ki, sən Allahdan öz işində hökm verməsini istəyirsən, amma Onun qəzası sənin nəfsinin istəyinə uyğun gəlməyəndə narazılıq (qəzəb) edirsən?! Ola bilsin ki, əgər sevdiyin şeyə müyəssər olsaydın, onunla bərabər sənə fəlakət üz verərdi. İstəklərinə uyğun gələn bir iş baş verdikdə razılaşmağın isə qeybi bilmədiyinə görədir. Əgər belədirsə, necə olur ki, sən Ondan hökm istəyirsən, sonra da xoşuna gəlməyən bir hökm verdikdə narazı qalırsan? Bu halda nəfsinə qarşı ədalətli davranmamış, razılığın yolunu tutmamış olursan!"

Bu mövqe həqiqətən gözəldir. Qul Allahdan hələ də baş verməyən bir iş haqqında hökm istədikdə, Allahın onun üçün seçdiyi şey nəfsinə uyğun gəlsə də, gəlməsə də razı qalmalıdır. Çünki qul hansı hökmün onun üçün daha xeyirli olduğunu bilmir. Allah isə quluna verdiyi hökmdə ittiham olunmaqdan uzaqdır.

Buna görə də İbn Məsud da daxil olmaqla bir qrup səhabə, nəfsinin istəklərinə zidd olan şeylərdə səbir edə bilməyəcəyindən qorxanlara tövsiyə edərdilər ki, dua edərkən Allahdan afiyət istəsinlər. Çünki əgər Allah bəlaya səbəb olacaq bir şeyi onun üçün təqdir etsə, o buna səbir edə bilməz. Bu da zəif isnadla mərfu hədis kimi rəvayət olunmuşdur.

Bəkr əl-Muzanidən (Allah ona rəhmət etsin) rəvayət olunur ki, bir kişi çoxlu istixarə edərdi. Sonra o bir müsibətə düçar oldu, narahat oldu və səbir etmədi. Bunun üzərinə Uca Allah peyğəmbərlərindən birinə vəhy etdi: "Filan qulumun yanına get və ona de: "Əgər sən iradə sahiblərindən deyilsənsə, bəs niyə Mənə salamatlıq içində ikən istixarə etdin?!"

Səd ibn Əbul-Vaqqas (Allah ondan razı olsun) tərəfindən rəvayət olunan hədisdə isə Peyğəmbər ﷺ buyurmuşdur**: "Qulun xoşbəxtliyindəndir ki, Rəbbinə istixarə etsin və Onun qəzasına razı olsun. Qulun bədbəxtliyindən isə odur ki, istixarəni tərk etsin və Onun qəzasına narazılıq göstərsin"**[88]**.**

Qədərə razı olmağın səbəbləri vardır. Onlardan birincisi də budur: qul Allaha yəqinliklə inanmalı və güvənməlidir ki, Onun təqdir etdiyi hər şey xeyirdir. O kimsə bilməlidir ki, mömin özünü bacarıqlı və səmimi həkimə təslim edən xəstə kimi olmalıdır. O, həkimin ona ağrı verən və ya verməyən hər bir əməlinə razı olar. Ona görə də Allaha güvənər və Allahın onun üçün yalnız xeyir istədiyinə yəqinliklə inanar. Bu, İbn Avnın əvvəlki sözlərində işarə etdiyi məna ilə eynidir. İkinci səbəb isə, qəzasına razılığa görə Allahın vəd etdiyi mükafatı düşünməkdir. Bəndə bu düşüncəyə o qədər qərq olar ki, hökm olunmuş şeyin acısını unudar. Necə ki,

[88] Tirmizi, 2151. İmam Əhməd, "Müsnəd, 1/168

sələflərdən olan saleh qadınlardan biri yıxılır və dırnağı qırılır, sonra gülərək deyir: “Onun mükafatının (savabının) ləzzəti mənə ağrısının acılığını unutdurdu”.

Üçüncü səbəb isə (bunların hamısından daha üstün olanı), müsibəti verən Zata məhəbbətdə qərq olmaq, Onun əzəmətini, Camalını, böyüklüyünü və sonsuz kamalını daim düşünməkdir. Çünki bunlar barədə dərin düşünmək bəndəni bu düşüncəyə o qədər qərq edər ki, o artıq ağrını hiss etməz. Necə ki, Yusufu (Allah ona salamı olsun) görən qadınlar ona baxmaqdan əllərini kəsməyin ağrısını hiss etməmişdilər.

Cüneyd (Allah ona rəhmət etsin) demişdir: Sirridən (Allah ona rəhmət etsin) soruşdum: “Sevən adam müsibətin ağrısını hiss edərmi?” O dedi: “Xeyr”. Sirrinin bu sözü onun yuxarıda qeyd edilən məqama işarəsidir.

Eləcə də bir qrup imtahan əhlinin sözü də az öncə qeyd edilən mənadadır: “Qoy Allah bizimlə istədiyi kimi davransın, əgər O bizi parça-parça etsə belə, bu, Ona olan sevgimizi yalnız artırar”.

Bəziləri belə bir məzmunda bu şeiri demişlər:

Eşqim məni parça-parça etsə də,
Qınansam da, artan ancaq sevgim olar.
Sevginin əsirliyindən çəkmərəm əl,
Canımı fəda etsəm də bu yolda açıq-aşkar.

İbrahim ibn Ədhəm (Allah ona rəhmət etsin) taxt-tacından, malından, övladından və xidmətçilərindən uzaqlaşıb ayrı qalırdı. Təvaf əsnasında oğlunu gördü, amma onunla danışmadı və sonra bu şeiri dedi:

Tərk etdim məxluqatı Sənin razılığın üçün,
Əhlimi tərk etdim səni tapmağım üçün.
Səndən başqasına bu qəlbim əgər yönəlsə,
O zaman parça-parça et məni bu sevgi üçün!

Fudeyl ibn İyad və Fəth əl-Məvsili (Allah hər ikisinə rəhmət etsin) – Allahın dostları olduğu deyilən şəxslər – bir gecəni yeməksiz və işıqsız keçirsələr fərəhləri artar, sevinclə ağlayar və deyərdilər: “Bizim kimiləri yeməksiz və işıqsız qoymaq görəsən hansı (yaxşı) əməlimizin vasitəsilə baş verdi?”

Fəth əl-Məvsili (Allah ona rəhmət etsin) qış gecələrində övladlarını yanına yığar, üstlərini öz paltarı ilə örtər və deyərdi:

Sən məni ac qoydun, mən də əhlimi?
Sən məni tək qoydun, mən də əhlimi?
Bunu edirsən ancaq sevdiklərinə və dostlarına,
Mən də onlardanammı ki, sevinəm buna?

Sələflərdən biri xəstələndi, bəziləri onun yanına girdilər və ona dedilər: “Nəyi arzulayırsan?” O dedi: “Allahın ən çox sevdiyi, mənim ən çox arzuladığımdır”.

Bu məzmunda bəzilərinin şeiri:

Səndən gələn sınaq ləzzətdir mənə,
Uzaqlıqsa yaxın qürbətdir mənə.
Mənim üçün ruhuma bənzər izsən,
Hətta mənə ruhumdan da əzizsən!
Sənin sevdiyini mən sevsəm əgər,
Bu bir sevgi kimi mənə tam yetər!

Əbu Turab isə bu şeiri demişdir:

Aldanma ha, aşiqin nişanələri var,
Sevdiyinin sevgisinə dəlalət edən töhfələr var.
Bu nişanələrdəndir bəla və müsibətlərə əhəmiyyət verməməsi,
Onun hər işinə ürəkdən sevinməsi.
Nəyisə ona verməsə əgər,
Qəbul edilmiş bir hədiyyə bilər!

Bir qrup insan, övladı cihadda şəhid olmuş bir kişinin yanına başsağlığına getdilər. O ağladı və dedi: “Onun öldürülməsinə görə ağlamıram, amma qılınclar onu alarkən Allahdan razıydımı? Bax ona görə ağlayıram”. Sonra dedi:

Ğadə əhli ölməyimə razıdırsa, razıyam!
Görməzsiz ki, sevgilimin əmrinə narazıyam!
Mən qul oldum onlara, qul eyləməz heç etiraz,
Közlərində çevirdilər qəlbimi şövqdən güdaz.
Kaş ki, geri dönəydi, olunaydım himayə,
Yoxdurmu sahib çıxacaq həkim istəyən xəstəyə!

Peyğəmbərin ﷺ İbn Abbasa bacardığı qədər Allahın qəza və qədərinə razı olmağı əmr etməsi, bacarmadığı halda xoşuna gəlməyən şeylərə səbir etməkdə çoxlu xeyir olduğunu deməsi onu göstərir ki, acı və kədərli qəzalara razılıq göstərmək vacib deyil; bu, fəzilətli və tövsiyə olunan bir haldır, yəni qədərə kim razı ola bilməzsə, o zaman gərək səbir etsin. Çünki səbir müsəlmana vacib və labüddür, həm də onda çoxlu xeyirlər vardır. Çünki Uca Allah səbir etməyi əmr etmiş və onun qarşılığında böyük mükafat vəd etmişdir. Uca Allah buyurur:

**“Yalnız səbir edənlərə mükafatları saysız-hesabsız veriləcəkdir”** (“Zumər” surəsi, 10)

Həmçinin buyurmuşdur:

**“Səbir edənləri müjdələ. O kəslər ki, onlara bir müsibət üz verdikdə: “Biz Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!” – deyirlər. Onlara öz Rəbbi tərəfindən məğfirət və rəhmət vardır. Məhz onlar doğru yolda olanlardır”** (“Bəqərə” surəsi, 155-157).

Həmçinin buyurmuşdur:

**“Sən müti olanlara müjdə ver; o kəslərə ki, Allah anıldığı zaman qəlbləri qorxuya düşər, başlarına gələnlərə səbir edər, namaz qılar və onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyərlər”** (“Həcc” surəsi, 34-35).

Həsən əl-Bəsri demişdir: “Razılıq (təslimiyyət) çətindir, səbir isə möminin möhkəm ipidir”.

Süleyman əl-Xəvvas demişdir: “Səbir razılıqdan (təslimiyyətdən) aşağıdır. Razılıq bir adamın müsibət gəlmədən əvvəl onun baş verəcəyinə də, baş verməyəcəyinə də razı olmasıdır. Səbir isə, onun müsibət gəldikdən sonra səbir etməsidir”.

Səbir ilə razılıq arasındakı fərqin həqiqəti budur ki, səbir nəfsin qəzəbdən çəkindiriləRək saxlanması və kədərin mövcud olmasına baxmayaraq şikayət etməməkdir. Razılıq isə, gələn müsibətə könül xoşluğu və qəlbin genişliyi ilə razı olmaqdır. Burada da ağrı hissi qalır, lakin razılıq qəlbə yəqinlik və tanıma hissi yerləşdirir, bu isə ağrının təsirini azaldır. Əvvəl də izah olunduğu kimi, bəzən razılıq bu hissi tamamilə aradan qaldırır.

Bu səbəbdən bir çox sələf alimləri, o cümlədən Ömər ibn Əbdüləziz, Fudeyl, Əbu Süleyman, İbn Mübarək və başqaları demişlər ki: “Allahın qədərinə razı olan kimsə, səbir edənlərin əksinə, olduğu haldan başqa bir halı arzulamaz”.

Bu mənanı Ömər, İbn Məsud və bəzi səhabələrdən də nəql etmişlər ki, onlar öz hallarından başqa bir halı arzulamazdılar.

Əbduləziz ibn Əbi Rəvvad rəvayət edir: “İsrail övladlarından olan bir abid çoxlu ibadətlə məşğul idi. O yuxuda gördü ki, filan qadın onun Cənnətdə zövcəsidir. Onun hansı əmələ görə Cənnətə girdiyini bilmək üçün üç gecəlik qonağı oldu. Qadın yatırdı, o isə ibadət edirdi, qadın yemək yeyirdi, o isə oruc tuturdu. Beləcə, qadının hər hansı fəzilətli bir əməlini görmədi. Sonda dözməyib qadına bu mövzunu danışdı və ondan Cənnətə girə biləcəyi ən güvəndiyi əməlinin nə ola biləcəyini soruşdu. Qadın dedi: “Sənin gördüyündən başqa bir xüsusi bir əməlim yoxdur, ancaq bir xüsusiyyətim var ki, Allahın o xüsusiyətdən razı qalacağına ümid edirəm: əgər çətinlik içində olsam, asanlıq arzulamaram, əgər xəstə olsam, sağlam olmağı istəmərəm, əgər ac olsam, tox olmağı istəmərəm, əgər günəş altında olsam, kölgədə olmağı istəmərəm”. Abid dedi: “Allaha and olsun, bu elə bir xüsusiyyətdir ki, bunu etməyə abidlərin gücü çatmaz”.

Heç sübhəsiz ki, səbir yalnız müsibətin ilk anında olur. Bu, Peyğəmbər ﷺ tərəfindən səhih olaraq bildirilmişdir. Eləcə də razılıq yalnız bəla endikdən sonra olur. Ənəs (Allah ondan razı olsun) rəvayət edir: “Peyğəmbər ﷺ bir qəbirin başında ağlayan qadına rast gəldi. **“Allahdan**

**qorx və səbir et"** dedi. Qadın dedi: **"Çıx get, mənim başıma gələn müsibət sənə gəlmədi".** O, Peyğəmbəri tanıya bilmədi. **"O, Peyğəmbərmiz idi"** – deyildikdə qadın Peyğəmbərmizin qapısına gəldi. Qapıda xidmətçilərin olmadığını görüb dedi: "**Mən səni tanımadım"** və Peyğəmbərimizdən üzr istədi. Peyğəmbərimiz buyurdu: "**Səbir müsibətin ilk anında olandır"** [89].

Necə ki, Peyğəmbər ﷺ duasında belə deyərdi: **"Səndən əmrin baş verdikdən sonra razılıq diləyirəm"[90].** Çünki qul qəza baş verməmişdən əvvəl ondan razı qalmağa əzmkarlıq göstərməlidir. Kim Allahın əmri baş verdikdən sonra razı qalarsa, həqiqi razılıq budur.

Xülasə: səbirlə davranmaq vacibdir. Əks halda Allahın qəzəbı və nifrəti vardır. Kim Allahın əmrinə razılıq göstərməzsə, o həm Allahın qəzəbinə düçar olacaq, həm də dünyada ona tez bir şəkildə ağrı, dərd üz verəcək və o, düşmənlərin sevincini qazanacaq. Bu isə onun narahatlığından daha ağırdır. Necə ki, bəzi hikmət sahibləri deyiblər:

Üzülmə düşdüyün hər bir müşkülə,
Qoyma ki, halına düşmənlər gülə.
Arzunuza çatmaq üçün səbr edin,
Düşmənlə üzləşsəniz, müqavimət göstərin!

Peyğəmbər ﷺ buyurmuşdur**: "Kim səbir etmək istəsə (çalışarsa), Allah ona səbir verər. Heç kəsə səbirdən daha xeyirli və daha geniş bir nemət verilməmişdir"[91].**

Ömər (Allah ondan razı olsun) demişdir: "Biz həyatımızın ən gözəl çağlarını səbirlə tapdıq"[92].

Əli (Allah ondan razı olsun) demişdir: "Səbirin imandakı məqamı başın bədəndəki məqamı kimidir"[93].

Həsən əl-Bəsri (Allah ona rəhmət etsin) demişdir: "Səbir Cənnət xəzinələrindən bir xəzinədir, Allah onu yalnız Öz yanında qiymətli olan kimsəyə verər".

Məymun ibn Mehran (Allah ona rəhmət etsin) demişdir: "Heç kəs – istər peyğəmbər, istər ondan aşağı dərəcədə olan biri, böyük və ya kiçik olsun – xeyirlərin heç birinə səbirsiz nail olmamışdır".

İbrahim ət-Teymi (Allah ona rəhmət etsin) demişdir: "Allahın bir qula əziyyətə qarşı səbir, bəlaya qarşı səbir, müsibətlərə qarşı səbir verməsi, imandan sonra verilən ən böyük nemətdir".

---

[89] Buxari, 1302. Muslim ,626
[90] Nəsai, 1305. Hakim, "Mustədrək", 1/524. Hakim hədisin isnadının səhih olduğunu demişdir.
[91] Buxari, 1469. Muslim, 1053
[92] Buxari bu hədisi 11/309 rəqəmli yerdə mütəalliq (tam isnadsız) şəkildə nəql etmişdir. İbn Mübarək, "Kitabuz-Zühd", 630. Vəki, "Zühd", 198
[93] Əbu Nuaym, "Hilyətul-Övliya", 1/56

Bu, Uca Allahın ayəsindən götürülmüşdür:

**“Yaxşı əməl heç də üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl (sahibləri) Allaha, Axirət gününə, mələklərə, (hər bir səmavi) kitaba və peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, yoxsullara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə xərcləyən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə, döyüş zamanı səbir edən şəxslərdir. Onlar (imanlarında) doğru olanlardır. Müttəqi olanlar da, elə məhz onlardır”** (“Bəqərə” surəsi, 177).

Ömər ibn Əbdüləziz demişdir: “Allah hansısa bəndəsinə bir nemət verib onu ondan alar və əvəzində ona səbir verərsə, almış olduğu o nemətdən daha xeyirlisini verər”. Sonra bu ayəni oxudu: **“Yalnız səbir edənlərə mükafatları saysız-hesabsız veriləcəkdir”** (“Zumər” surəsi, 10).

Bəzi saleh şəxslərin cibində hər zaman açıb baxdıqları bir kağız olar və onun üzərində bu ayə yazılardı: **“Sən Rəbbinin hökmünə səbir et! Həqiqətən, sən Bizim Gözlərimiz önündəsən”** (“Tur” surəsi, 48).

Alimlər “Yusuf” surəsində olan bu ayə haqqında demişlər: **“Mənə isə gözəl səbir gərəkdir”** (“Yusuf” surəsi, 83) – Buradakı “gözəl səbir” qulun başına gələn müsibətləri gizlətməsi və Onunla birlikdə şikayət olmayan səbirdir”.

Əhnəf ibn Qeysin gözləri 40 ildir kor olmuşdu, amma bunu heç kimə xəbər verməmişdi.

Əbdüləziz ibn Əbu Rəvvadın gözü 20 ildir kor idi. Bir gün oğlu ona baxıb dedi: “Ata, gözün kor olub?!” O da cavab verdi: “Bəli, oğlum, sənin atan 20 ildir görmür, ama mən Allahın qədərindən razıyam”.

İmam Əhməd xəstəliyindən heç kimə şikayət etməzdi. Xəstələndiyi zaman iniltisini dilinə gətirməz və özünə deyərdi: “Ey nəfsim, səbir et və şikayət etmə!”

Bəzi ariflər xəstənin yanına girəndə onun iniltisini, “Ah!” deməsini eşidər və xəstəyə: “Kimdən dolayı ah çəkib inildəyirsən (şikayət edirsən)?!” deyərdilər.

Bu məna ilə bağlı bəziləri belə demişdir:

Nəfslər dərdlərini içlərində saxlasa da,
Onların halını yaxınları anlayar.
Sevdasından başqa birinə şikayət edən qəlb,
Sevdiyinə qarşı ədalətli davranmamış olar.

Yəhya ibn Muaz demişdir: “Əgər Rəbbini sevsən, sonra O səni aclıq və yoxsulluqla imtahan etsə, düşdüyün bu hala səbir etməli və insanlardan gizlətməlisən. Çünki sevən sevdiyi

üçün sıxıntılara dözər, bəs onda Allah sənə bir şey etmədiyi halda niyə onu başqasına şikayət edirsən?"

*Başqası etsə, bu əməl heç xoş olmazdı mənə görə,*
*Sən onu edəndə, o şey olur mənə gözəl.*

Rəsulullah ﷺ və səhabələri aclıqdan qarınlarına daş bağlayardılar.

Uveys əl-Qərani zibilliklərdən çörək qırıntıları yığar, itlər onunla yemək uğrunda didişərdi. Bir gün bir it ona hürdü, o isə dedi: "Ey it, sənə əziyyət verməyənə əziyyət vermə. Sən önündəki yeməkdən ye, mən də önümdəkindən yeyim. Əgər Cənnətə girsəm, mən səndən üstün olacağam. Əgər cəhənnəmə girsəm, sən məndən üstün olacaqsan".

İbrahim ibn Ədhəm sünbül yığan kasıblarla birlikdə sünbül yığardı. Onlar bundan narazı olduqda o dedi: "Mən Bəlx diyarını tərk etmişəm, indi sünbül toplamaq üçün kasıblarla didişəcəyəmmi?" Bundan sonra yalnız otlayan heyvanlarla birlikdə sünbül yığardı. İmam Əhməd də eyni cür kasıb və miskinlərlə bərabər sünbül yığardı.

Süfyan əs-Sövri Məkkə yolundakı bəzi dəvə baxıcıları ilə muzd əsasında işləyərdi. Bir gün onlar üçün yemək bişirdi, amma yeməyi zay elədi. Onlar da onu döydülər.

Fəth əl-Məvsili odun yandırıb insanlara xidmət edərək pul qazanardı. O belə demişdir:

Sənin üçün yanağımı qoydum yerə,
Bunlar hamısı sən razı qalasan deyə.
Ey Himayəçim! Daha nə vaxta qədər bu hal davam edəcək,
Ömrüm keçir, istəklərim heçmi bitməyəcək?

Başqası isə belə deyib:

Nə qədər Sənin bu əziyyətini çəkəcəm?
Nə qədər Sənin yolunda xəstəlik və zəifliyə səbir edəcəm?
Nə olar məni qovma, çünki Səndən başqa ehtiyacımı ödəyən yoxdur mənim.
Bir qarşılıq istəyirsənsə, haydı ruhumu al həmən.

Dünya müsibətləri onlara görə nemət sayılırdı. Hətta bəziləri belə demişdir: "Bəlanı nemət, rifahı isə bəla hesab etməyən əsla fəqih deyildir".

İsrailiyyətdən olan bir xəbərdə deyilir: "Əgər var-dövlətin sənə üz tutduğunu görsən, de: Bu, cəzası tezləşdirilən bir müsibətdir. Əgər yoxsulluq gəldiyini görsən, de: xoş gəldin, salehlərin şüarı".

Bəzi sələflər deyiblər: "Mən bir müsibətə uğrayanda Allaha dörd dəfə həmd edirəm:

1. Ona şükür edirəm ki, bu müsibət daha böyük olmadı.

2. Ona şükür edirəm ki, məni səbirlə ruziləndirdi.
3. Ona şükür edirəm ki, məni istircaya ("İnnə lilləhi və innə ileyhi raciun" deməyə) müvəffəq etdi.
4. Ona şükür edirəm ki, bu müsibəti dinimdə etmədi".

Səbir edərək müsibətin yox olmasını gözləmək ibadətdir, çünki bəla daimi deyil.

Səbir et başına gələn hər müsibətə,
Zərər əbədi deyildir əlbəttə.
Səbir et, necə ki, dəyərli insanlar səbir edərdilər.
Çünk bu gün var, sabah isə yoxdur bu müsibətlər.

Dünyada ən çox bəlaya uğramış insan Cənnətə bir dəfə girib çıxarıldıqda ona: **"Heç dünyada bəla gördünmü? Sənə çətinlik (müsibət) gəldimi?" deyiləcək. O da: "Xeyr, ey Rəbbim! Xeyr, ey Rəbbim!"** deyəcək[94].

Bəziləri belə demişdir:

Ey nəfs, bu sadəcə bir neçə günlük səbirdir,
Bunların sürəti yuxu kimi keçib gedir.
Ey nəfs, dünyadan tez uzaqlaş,
Onu tərk et, çünki sənin əsl həyatın irəlidədir.

Başqası isə demişdir:

Bu sıxıntılar bitəcək, bir neçə saatdan ibarətdir ancaq,
Bütün bunlar gedəcək və yox olacaq.

[94] Müəllif imam Muslim öz kitabında yer alan 2808 nömrəli hədisə işarə edir.

## "واعلم أنَّ النصر مع الصبر"

## “Bil ki, qələbə səbirlə birlikdədir”

Rəsulullahın ﷺ bu sözü Uca Allahın bu ayəsinə uyğundur:

**“Ey iman gətirənlər! Düşmən dəstəsi ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız”** (“Ənfal” surəsi, 45).

Həmçinin Uca Allahın bu ayəsinə də uyğundur:

**“İndi Allah sizin (yükünüzü) yüngülləşdirdi və sizdə bir zəiflik olduğunu bildi. Əgər aranızda yüz səbirli kişi olsa, (kafirlərdən) iki yüzünə qalib gələr. Əgər aranızda min səbirli kişi olsa, Allahın izni ilə (kafirlərdən) iki mininə qalib gələr. Allah səbir edənlərlədir”** (“Ənfal” surəsi, 66).

Və Talutun hekayəsində buyurduğu kimi:

**“Talut qoşunla birlikdə (döyüşə) yola düşdükdə (əsgərlərinə) dedi: “Allah sizi bir çayla sınağa çəkəcəkdir. Kim ondan içsə, o məndən deyildir. Bir ovuc götürən istisna olmaqla, kim ondan dadmasa, o, məndəndir”. Onların az bir qismi istisna olmaqla (hamısı) ondan su içdi. Talut və onunla birlikdə olan möminlər çayı keçdikdən sonra (bəziləri) dedilər: “Bu gün bizim Caluta və onun qoşununa qarşı vuruşmağa taqətimiz yoxdur”. Allahla qarşılaşacaqlarını yəqin bilənlər isə dedilər: “Neçə-neçə az saylı dəstə olub ki, Allahın izni ilə çox saylı dəstəyə qalib gəlib!” Allah səbir edənlərlədir”** (“Bəqərə” surəsi, 249)

Həmçinin Uca Allah buyurur:

**“Əlbəttə, əgər səbir edib Allahdan qorxsanız və onlar da elə indi sizin üstünüzə hücum etsələr, Rəbbiniz nişanlanmış beş min mələklə sizə yardım edər”** (“Ali-İmran” surəsi, 125)

Düşmənlə qarşılaşarkən səbir etməyi əmr edən bu kimi ayə və hədislər çoxdur.

Ömər (Allah ondan razı olsun) Əbəsə qəbiləsinin böyüklərinə dedi: “İnsanlarla necə vuruşdunuz?” Onlar cavab verdilər: “Səbir ilə. Biz elə bir tayfa ilə qarşılaşmadıq ki, onların bizə qarşı göstərdiyi səbir kimi biz də onlara qarşı səbir etməyək”.

Bəzi sələflər deyiblər: “Hamımız ölümə və yaraların ağrısına nifrət edirik, lakin səbir ilə bir-birimizdən üstün oluruq”.

Bəttaldan qəhrəmanlıq barədə soruşulduqda o dedi: “Qəhrəmanlıq bir anlıq səbirdir”.

Bütün dəlillər zahiri düşmənlə cihad, yəni kafirlərlə olan döyüş haqqındadır. Eləcə də gizli olan düşmənə də, yəni nəfsə və şəhvətə qarşı olan cihada da səbir olunmalıdır. Çünki nəfs və həva (nəfsi istəklər) ilə edilən cihad ən böyük cihad sayılır. Bu haqda Peyğəmbər ﷺ buyurmuşdur**: "Mücahid, Allah yolunda nəfsi ilə cihad edəndir"**[95]**.**

Abdullah ibn Ömər ondan cihad haqqında soruşan bir adama dedi**:** "Öncə nəfsinlə başla və onunla cihad et. Öncə nəfsinlə başla və onunla mübarizə apar".

Cabirdən zəif isnadla rəvayət olunur ki, Rəsulullah ﷺ döyüşdən qayıdan bir qrup insana dedi: **"Sizlər kiçik cihaddan böyük cihada gəldiniz. Soruşdular: "Böyük cihad nədir?" Buyurdu: "Qulun öz nəfsinə qarşı cihadıdır (mübarizəsidir)"**[96]**.**

Əbu Bəkr əs-Siddiq (Allah ondan razı olsun) xəlifə təyin etdiyi Ömərə (Allah ondan razı olsun) vəsiyyətində dedi: "Səni öncə içində olan öz nəfsindən çəkindirirəm".

Səd ibn Sinan vasitəsilə Ənəsdən (Allah ondan razı olsun), həmçinin Əbu Malik əl-Əşcaidən mürsəl (sənəd zəncirində səhabənin adı düşmüş hədis – red.) olaraq rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: "Əsl düşmən səni öldürdüyü zaman Cənnətə girməyinə vəsilə olan və sən onu öldürəndə sənin üçün bir nur olan düşmən deyil, sənin ən şiddətli düşmənin içində olan nəfsindir"[97].

Bu mənanı şair Abbas ibn əl-Əhnəf belə ifadə edib:

Qəlbim mənə zərər verəcək şeylərə çağırır,
Kədərimi və ağrılarımı hər zaman artırır.
Görürəm ki, az qalıb ömrümün günləri,
Yaxında ölüm xəbərimi verəcək biri.
Düşmənim altındaykən sinəmin,
Necə qoruyum ondan özümü, mənə deyin?

Nəfsə qarşı edilən bu cihad da səbir tələb edir. Kim nəfsinə, həvəsinə və şeytanına qarşı mübarizədə səbir etsə, qalib gələr və zəfər qazanar. Kim dözümsüzlük etsə və bu mübarizədə səbir göstərməsə, məğlub olar, ram edilər, əsir düşər və şeytanı ilə nəfsinin əlində alçaldılmış əsir olar.

İbn Mübarək (Allah ona rəhmət etsin) demişdir: "Səbir edən əslində çox az bir müddət səbir etmiş, dözümsüzlük edən də çox az bir mənfəət əldə etmişdir".

Peyğəmbər ﷺ belə buyurur: **"Güclü, rəqiblərini yerə yıxan deyil, həqiqi güclü, qəzəb anında nəfsinə sahib çıxandır"**[98]**.**

---

[95] Əhməd İbn Hənbəl, 6/20. Tirmizi, 1621. Hakim, "Mustədrək", 1/11
[96] Beyhəqi, "Zədul-Kəbir", 373. İsnadında zəiflik olduğu deyilmişdir.
[97] Təbərani, "Kəbir", 3/3445
[98] Buxari, 6114. Muslim, 2608

Əhnəf ibn Qeys belə demişdir: “İnsanların ən güclüsü qəzəb anında nəfsinə ən çox hakim olandır”.

Bəzilərinə dedilər: “Filankəs suyun üzərində gəzirmiş!” O isə cavab verdi: “Allah kimə öz nəfsinə qarşı çıxmağa güc verdisə, o suyun üzərində gəzəndən daha fəzilətlidir”.

Bil ki, nəfsin sənin miniyinə bənzəyir. Əgər səndə ciddilik görsə, o da ciddi olar, səndən ümidini kəsər və heç nə istəməz. Əgər səni tənbəl görsə, sənə qarşı tamah salar, səni arzularının və şəhvətlərinin ardınca sürükləyər.

Əbu Süleyman əd-Dərani deyirdi: “İraqda idim. Padşahların saraylarının, gəmilərinin, libaslarının və yeməklərinin yanından keçirdim, nəfsim onlardan heç birinə meyl etmədi. Amma xurma satılan yerin (bağın) yanından keçəndə nəfsim (xurma istədi) az qala ona hücum edəcəkdi. Bunu bir arifə söylədim, o dedi: “O şəhvətlərdən (saraydakıların sahib olduqlarından) nəfsini ümidsiz etmişdin, o da ümidini kəsmişdi. Amma (xurmanı ona yedirtmişdin, o da dadını almışdı) xurmaya ümidli olduğu üçün onu səndən istədi”.

Necə ki, deyilmişdir:

Əl çəkdim ləzzətlərdən səbirlə, uzaqlaşdılar,
Nəfsimi onlardan uzaq olmağa etdim vadar.
Nəfs sadəcə insanın “dur” dediyi yerdə durar,
Bir şeyin dadın duyarsa, ona tərəf can atar,
Bir şeyin dadın duymazsa, unudar, uzaqlaşar.
Bir zamanlar nəfsim izzətli idi,
Onu zillətə saldığım üçün mən,
Bunu gördükdə zillətə əyildi.

Məymun ibn Mehran demişdir: “Səbir iki cürdür: birincisi müsibətə və bəlaya qarşı səbir, ki bu da gözəldir, ikincisi isə bundan daha fəzilətli olan günahlara qarşı olan səbirdir”.

Səid ibn Cübeyr demişdir: **“Səbir iki növdür: biri Allahın haram buyurduqlarından çəkinməkdə və Allahın fərz etdiyi ibadətlərdə səbirdir ki, bu ən fəzilətli səbirdir; digəri isə bəla və müsibətlərə qarşı olan səbirdir”.**

## "أَنَّ الفرج مع الكرب"

## “Sevinc kədərlə birlikdədir”

Buna Uca Allahın bu kəlamı dəlildir:

**“(İnsanlar) ümidlərini kəsdikdən sonra yağış endirən və Öz mərhəmətini (hər yana) yayan Odur. O, Himayəçidir, Tərifəlayiqdir”** (“Şura” surəsi, 28).

Həmçinin buyurduğu ayə:

**“Buludları hərəkətə gətirən küləkləri göndərən Allahdır. Allah səmada onları istədiyi kimi yayıb topa-topa edir. Sən buludların arasından yağış çıxdığını görürsən. Allah onu qullarından istədiyi kimsələrə endirən kimi onlar sevinərlər”** (“Rum” surəsi, 48).

Əbu Rəzin əl-Uqeyli rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurdu**: “Rəbbimiz vəziyyətlərinin dəyişməsinə yaxın olduqları halda bəndələrin ümidsizliyə düşmələrinə gülər”**[99]**.**

İmam Əhməd uzun bir hədisdə Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: **“Allah yağış yağdırdığı gündən öncə sizin böyük sıxıntı və ümidsizliyə düşdüyünüzü bildiyi halda sizə baxıb gülər, çünki bilir ki, rəhməti çox yaxındır”.**

Bunun mənası odur ki, Uca Allah yağışın gecikməsi zamanı bəndələrinin ümidsizliyinə, qorxularına, mərhəmətdən ümidlərini kəsmələrinə təəccüb edər. Halbuki O, yaxın zamanda vəziyyəti dəyişməyi, yağış endirməyi qərar vermişdir, lakin onlar bunu bilməzlər.

Bu, o hadisəyə bənzəyir ki, bir kişi cümə günü Peyğəmbər ﷺ xütbə verərkən ayağa durub yağışın kəsilməsindən (quraqlıqdan) və insanların çətinlik çəkməsindən şikayətləndi. Peyğəmbər ﷺ əllərini qaldırıb onlar üçün yağış duası etdi, dərhal buludlar toplandı və yağış yağdı, növbəti cümə gününə qədər davam etdi. Sonra onlar Peyğəmbərin yanına ﷺ gəlib yağışın kəsilməsi üçün dua etməsini istədilər. O da dua etdi və göy üzü açıldı.

Uca Allah Quranda zikr etdiyi bir çox hadisələrdə çətinlikdən sonra fərəh və çıxış yolunun verildiyini bildirmişdir.

Məsələn, Nuh (Allahın ona salamı olsun) və onunla birlikdə gəmiyə minənlərin böyük bir çətinlikdən qurtarılması, yer üzündə qalanların isə boğulması hadisəsi zikr edilmişdir.

---

[99] Əhməd İbn Hənbəl, “Müsnəd”, 4/11

Eləcə də Uca Allah İbrahimi (Allahın ona salamı olsun) müşriklərin onu atdığı oddan qurtarmasını, odu onun üçün sərin və salamat etməsini, həmçinin oğlunu qurban etməyi əmr etdikdən sonra onu qoç qurbanı ilə əvəzləməsini zikr etmişdir.

Həmçinin, Musanın (Allahın ona salamı olsun) anasının onu dənizə buraxdıqda Firon ailəsinin onu tapıb övladlığa götürməsi, Musanın İsrail oğulları ilə birgə Misirdən ayrılarkən Fironun əsgərləri tərəfindən təqib olunması və Allahın Musanı dənizdən xilas edib düşmənini isə boğması zikr edilmişdir.

Həmçinin Əyyub, Yaqub, Yusufun (Allahın onlara salamı olsun) hekayələri və Yunusun qövmünün iman gətirməsi zikr edilmişdir.

Uca Allah həmçinin Muhəmmədin ﷺ hekayələrini, düşmənlərinə qarşı ona yardım etməsini və bir çox yerdə onu düşmənlərindən xilas etməsini zikr etmişdir; məsələn, mağara hekayəsi, Bədr, Uhud və Huneyn günlərində onun qurtarılması kimi.

Eləcə də Uca Allah İfk[100] hadisəsində Aişəyə (Allah ondan razı olsun) atılan iftiradan onu necə təmizləməsini və səfərdən geri qalan üç nəfərin hekayəsini[101] zikr etmişdir.

Uca Allah belə buyurur:

**“(Təbuk döyüşündən) geri qalmış üç nəfərin də (tövbəsini qəbul etdi). Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri (kədərdən) sıxılmış və beləliklə də onlar Allahın əzabından yalnız Ona sığınmaqdan başqa bir çarə olmadığını anlamışdılar. Sonra (Allah) peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir”** (“Tövbə” surəsi, 118).

Allah yalnız öz Kitabında deyil, həmçinin Peyğəmbərin Sünnəsində də bu mövzuda çox hekayələr zikr etmişdir. Məsələn, üç nəfər mağaraya girdikdə böyük bir qaya mağaranın çıxışını bağladı və onlar saleh əməllərini vəsilə edərək Allaha dua etdilər. Allah da onları bu çətin vəziyyətdən çıxardı[102].

Həmçinin, İbrahim və Saranın zalım hökmdarla olan hekayəsi – o zaman ki, hökmdar Saranı İbrahimdən istədi və Allah onları fasiqin hiyləsindən qurtardı[103].

İslamda və ondan əvvəlki qövmlərdə bu mövzuya uyğun baş vermiş hekayələrin sayı-hesabı yoxdur. Onların çoxu “Əl-Fərac bəadəş-şiddə” (İbn Əbi əd-Dünya), “Mucibətid-dəvəti” (İbn Əbi əd-Dünya), “əl-Mustəğisinə billəhi vəl-Mustəsrixinə bih”, övliya kəramətləri, salehlərin xəbərləri, tarix kitabları və digər əsərlərdə qeyd olunmuşdur.

---

[100] Buxari, 4750. Muslim. 2770
[101] Buxari, 4677. Muslim. 2769
[102] Buxari, 2272. Muslim. 2743
[103] Buxari, 3358. Muslim. 2371

Biz isə ibrət üçün bu babda söylənmişlərin ən gözəllərindən az bir hissəsini burada qeyd edəcəyik.

Hafiz Əbu Zərr əl-Hərəvidən nəql edilir ki, o dedi: “Bağdadda bir ətirçi dükanında Əbu Hafs ibn Şahinin yanında idim. Bu vaxt bir kişi gəldi, ətirçiyə on dirhəm verdi, ehtiyaclarını aldı, bunları bir sininin içinə yerləşdirib başına qoydu. Dükandan çıxanda sürüşüb yıxıldı, sini yerə düşdü, aldıqları ətrafa dağıldı. O ağlamağa başladı, çox kədərləndi və dedi: “Mən filan karvanda idim, orada içində dörd yüz dinar (ya da dörd min dinar) olan bir kisəmi itirdim. Onun içində bundan da qiymətli daşlar var idi. Onların itməsinə bu qədər kədərlənmədim. Bu gecə övladım doğuldu, evdə ailəm üçün lazım olan şeylərə ehtiyacımız vardı. Yanımda yalnız bu on dirhəm qalmışdı. Allah nəyi təqdir etdisə, o da oldu, amma mən çox sarsıldım. Öz-özümə dedim: “Nə bu gün ailəmə aparacaq bir şeyim var, nə də sabah onlar üçün qazana biləcəyim bir yol. Onlardan qaçıb getmək və onları bu hal üzərində qoymaq istədim ki, mənim ardımca həlak olsunlar. Artıq başqa çarəm qalmadı. Buna görə özümü saxlaya bilmədim, bu qədər kədərləndim”. Əbu Zərr dedi ki: Ətirçinin qarşısında oturan bir qoşun başçısı bütün bu danışılanları eşitdi. Sonra o qoşun başçısı Əbu Hafizdən xahiş etdi ki, özü, dostları və bu müsibət görən adamla birlikdə onun evinə gəlsinlər. Onlar da getdilər. Qoşun başçısı ondan həmin kisə məsələsini yenidən danışmağını istədi, o da təkrar etdi. Sonra ondan soruşdu ki, o karvanda kimlər vardı və kisə harada itmişdi? O, cavab verdi. Kisənin təsvirini və üzərindəki işarəsini soruşdu, o da dedi. Qoşun başçısı soruşdu: “Əgər onu görsən, tanıyarsan?” O dedi: “Bəli.” Əsgər kisəni çıxarıb göstərdi. O da baxıb dedi: “Bu məndən düşən kisədir. İçində də belə-belə xüsusiyyətli daşlar var”. Kisəni açdılar, daşlar dediyi kimi idi. Əsgər kisəni ona verdi. O isə sevincli bir şəkildə oradan çıxıb əlində daş-qaşlarla evinin yolunu tutdu.

Amma o çıxandan sonra qoşun başçısı bərk ağladı. Ondan niyə ağladığını soruşdular. Dedi: “Bu dünyada nə ümidim, nə də arzum qaldı. Tək arzum bu kisənin sahibinin gəlib onu aparması idi. Allah bu arzumu həyata keçirdi. Artıq mənim bu dünya üçün ümidim qalmadı, zənn edirəm ki, əcəlim yetişmişdir, elə buna görə də ağlayıram”. Əbu Zərr dedi: “Bu hadisədən bir ay keçməmiş o vəfat etdi və biz cənazə namazını qılıb onu dəfn etdik. Allah ona rəhmət etsin”.

Müəllif həmçinin öz kitabında Mosulda bir kişinin ona danışdığı hadisəni də nəql edir: “Onların yanında bir tacir var idi, ticarət məqsədi ilə şəhərlərə səfər edərdi. Bir dəfə bütün malını və sahib olduğu hər şeyi götürüb Kufəyə yollandı. Bu səfərdə ona bir kişi rast gəldi, ona xidmət etdi, çox yaxşı davrandı, elə mehriban oldu ki, ona güvənib onunla dost oldu. Sonra bir dayanacaqda onu aldadıb heyvanını, üzərindəki bütün malını və əşyalarını götürdü. Ona heç nə saxlamadı. Tacir onu çox axtardı, lakin ondan xəbər ala bilmədi. Ac-susuz piyada geri qayıtdı. Gecə vaxtı şəhərə daxil oldu, bu vəziyyətdə evinin qapısını döydü. Ailəsi onu görüb sevindi və dedilər: “Allaha həmd olsun ki, səni bu vaxt gətirdi. Çünki bu gün sənin bir uşağın dünyaya gəldi, lakin evin ehtiyaclarını almağa pulumuz yoxdur. Bu gecə ac yatmışıq, evdə nə un, nə də çıraq yandırmaq üçün yağ var”. Bu sözləri eşidəndə tacirin kədəri və sıxıntısı daha da artdı. Onlara başına gələnləri danışmaq istəmədi ki, kədərlənməsinlər. Evə yaxın olan bir dükan sahibinin yanına gedib salam verdi, ondan yağ və digər lazım olanları götürdü. Onunla danışarkən gözü satıcının içəridə duran yük kisəsinə sataşdı. Baxdı ki, bu, yoldakı adamın ondan oğurladığı yükdür. Satıcıdan bu haqda soruşdu, o dedi: “Bir kişi axşam üstü gəldi, axşam yeməyi aldı və məndən onu qonaq etməyimi xahiş etdi. Mən də onu qonaq etdim, yükünü

dükanımda, heyvanını qonşumun evində saxladım. O, məsciddə gecələyir". Tacir əşyalarını götürüb məscidə getdi, gördü ki, kişi yatır. Onu ayağı ilə dürtdü, o da qorxu içində oyandı. Tacir dedi: "Ey xain, malım hanı?" O da dedi: "Elə çiynindədir, and olsun Allaha ki, ondan zərrə belə əskilməyib". Sonra heyvanını da yerindən çıxardı, evinə çoxlu şeylər gətirdi və başına gələnləri ailəsinə danışdı".

Bu iki hadisəyə bənzər birini də İbn Əbi əd-Dünya "Əl-Fərəc bəadəş-şiddə" kitabında nəql edir. Qısaca hadisə belədir: "Harun ər-Rəşidin dövründə Bağdadda bir sərraf var idi. O, 500 dinara bir cariyə aldı və vaxt keçdikcə ona elə vuruldu ki, bütün vaxtını onunla keçirir, ticarətlə məşğul olmurdu. Əlindəki bütün sərvəti xərclədi. Cariyəsi hamilə qaldı, o isə evini dağıdıb hissə-hissə satdı, hər şeyi tükəndi. Cariyənin doğuş vaxtı çatdıqda həkimlər lazım olan şeyləri alıb gətirmədiyi halda xanımının ölə biləcəyini dedilər. O, çarəsiz halda ağladı və evdən çıxdı, özünü Dəclə çayına atıb intihar etmək istədi, amma Allahın qəzəbindən qorxuduğu üçün bunu etmədi. Piyada kənd-kənd gəzərək Xorasana çatdı. Orada işləyib varlandı. Bu müddətdə öz şəhərinə 66 məktub göndərdi ki, cariyədən xəbər tutsun, lakin ondan cavab almadığı üçün öldüyünə əmin oldu. Təxminən 30 il sonra 20 min dinar dəyərində malla Bağdada yola düşdü. Yolda quldurlar onun bütün malını əlindən aldı. O, əynindəki paltarından başqa heç bir şeyi olmadan geri döndü. Bağdada çatanda əvvəlki kimi kasıb idi. Öz evinə getdi, gördü ki, ev çox gözəldir, qapısında keşikçilər, içəridə xidmətçilər, həyətində atlar var. Soruşdu: "Bu ev kimindir?" Dedilər: "Filan sərrafın oğlunundur" – və onun adını çəkdilər. "O, xəlifənin dayəsinin oğludur, xəzinədarıdır. Atası vaxtilə böyük sərraf idi, sonra kasıb düşdü. Anası doğuş sancısına tutulanda atası nəsə almağa getmiş, sonra yoxa çıxmış və ölmüşdü. Anası qonşulara xəbər göndərib yardım istəmişdi. Elə bu vaxt xəlifə Harun ər-Rəşidin oğlu Məmun doğulmuş, amma heç bir dayənin südünü qəbul etməmişdi. Ona bu qadını göstərmişdilər. Uşaq onun südünü qəbul etdi və qadını saraya işə götürdülər. Uşaq xəlifənin oğlu ilə böyüdü. Xəlifənin oğlu Bağdadda vali olanda bu qadın və oğlu üçün bu evi tikdirdi". Sərraf oğlanın anasının sağ olub-olmadığını soruşdu. Dedilər: "Bəli, sağdır. Bir neçə gün xəlifənin sarayında, bir neçə gün də oğlunun evində qalır". O, insanların arasından keçib evə girdi, oğlunu gördü. Onun önündə kitablar, pullar, tərəzilər var idi, insanlar ondan ehtiyaclarını istəyər, o da onlara verərdi. İnsanlar gedəndən sonra sərraf oğlana yaxınlaşdı, o dedi: "Xoş gəldin, ey ixtiyar, bir ehtiyacın varmı?" Sərraf dedi: "Mən illər öncə sizi tərk edən atanam". Oğlan bunu eşitdikdə əsəbiləşdi, rəngi dəyişdi və qalxıb otaqdan çıxdı, daha sonra bir xidmətçi göndərərək onu yanına gətizdirdi. Sərraf dedi: "Deyəsən mənim dediklərimə inanmadın və yoxlamaq istəyirsən?!" Oğluna anasının adını dedi. Cariyə pərdənin arxasından onun səsini eşidib pərdəni qaldırdı, ərinin boynuna sarıldı, ağladı. Sərraf başına gələnləri danışdı. Oğlu atasının əlini öpdü və onu qucaqladı, sonra onu valinin hüzuruna apardı. Vali ona hörmət göstərdi, sərrafın oğlunun gördüyü işi ona verdi, maaş bağladı, oğluna isə daha yüksək vəzifə verdi".

İbn Əbi əd-Dünya "Əl-Fərəc bəadəş-şiddə" kitabında Vəddah ibn Xeysəmədən rəvayət edir ki: "Ömər ibn Əbdüləziz (Allah ona rəhmət etsin) əfv fərmanı verib zindandakıların hamısını azad etməyi mənə əmr etdi. Mən də Yəzid ibn Əbi Muslimdən başqa hamısını azad etdim. O da zindandan çıxdıqda mənim qanımı tökəcəyinə and içdi. Bir müddət keçdi. Mən Afrikada ikən Yəzid ibn Əbu Muslimin Afrikaya vali təyin edildiyini eşitdim. Ondan qaçmağa çalışsam da, adamları məni tapıb onun yanına gətirdilər. Mənə dedi: "And olsun Allaha ki, mən

uzun zamandır səni tapmaq üçün Allaha dua edirdim". Mən də dedim: "And olsun Allaha ki, mən də sənin şərindən qorunmaq üçün Allaha sığınıram". O dedi: "And olsun Allaha ki, səni mənim əlimdən heç kim qurtara bilməz. Vallah səni öldürəcəyəm, vallah səni öldürəcəyəm, vallah səni öldürəcəyəm! Əgər ölüm mələyi mənimlə yarışa girsəydi, sənin canını almaqda onu keçərdim!" Daha sonra o, adamlarına qılınc və ip gətirməyi əmr etdi. Adamlar əllərimi bağladılar. Bir nəfər başımın üstündə itilənmiş qılınc ilə durdu. O an azan oxunmağa başladı, onlar namaza getdilər. Namaz qıldıqları əsnada başqa əsgərlər qılıncları ilə Yəzidin üstünə hücum etdilər və onu öldürdülər. Sonra bu qarışıqlıq əsnasında bir nəfər gəlib qılıncla ipimi kəsdi və dedi: "Get!"

İsnadı ilə rəvayət olunur ki, Amr əs-Sərayə təkbaşına Rum diyarına səfərə çıxmışdı, bir gün yol üzərində ağacın altında yatmaqda ikən kafir bir rum əsgəri gəlib onu ayağı ilə silkələyib oyatdı. O oyananda kafir dedi: "Ey ərəb, seç! İstəsən nizə döyüşü, istəsən qılınc döyüşü, istəsən güləş!" Amr dedi: "Nizə döyüşündə də, qılınc döyüşündə də sağ qalmaq ehtimalı azdır. Amma güləş olsun". Kafir yerə endi, onu güləşdə yıxdı və sinəsinin üstünə çöküb dedi: "Səni hansı şəkildə öldürüm? Qılınclamı yoxsa boğaraqmı?" Amr başını qaldırıb Allaha dua edərək dedi: "Şahidlik edirəm ki, Ərşinin altından yerin dibinə qədər ibadət edilən bütün şeylər batildir, yalnız Sənin uca camalın (Zatın) müstəsnadır! Gördüyün halımdan mənə bir çıxış yolu aç!" deyib huşunu itirdi. Ayılanda gördü ki, rumlu yanında öldürülmüş halda uzanıb".

Əbul-Həsən ibn Cəhzəmin isnadı ilə Hatim əl-Əssamdan rəvayət edir: "Biz türklərlə qarşılaşdıq, aramızda döyüş başladı. Bir türk mənə atəş açdı, atımdan yıxıldım. O, yerə enib sinəmin üstündə oturdu, saqqalımdan tutdu, çəkməsindən bıçaq çıxarıb məni boğazlamağa hazırlaşdı. Amma qəlbim nə onun yanında idi, nə də bıçağında, qəlbim yalnız Rəbbimin yanında idi. Dedim: "Ey Rəbbim! Əgər Sən mənim bu adam tərəfindən boğazlanmağımı hökm etmisənsə, başım-gözüm üstə! Mən Səninəm, Sənin mülkünəm!" Bu an müsəlmanlardan biri ona ox atdı, ox düz onun boğazına dəydi, o dərhal üstümdən yıxıldı. Mən qalxıb onun əlindəki bıçağı götürdüm və onu boğazladım. Qəlbləriniz yalnız Rəbbinizin yanında olarsa, valideynlərinizdən belə görmədiyiniz lütf və möcüzələrə şahid olarsınız".

## "إن مع العسر يسرًا"

# "Şübhəsiz ki, hər çətinliklə birlikdə bir asanlıq vardır"

Peyğəmbərin ﷺ bu sözü Uca Allahın buyurduğu bu ayə ilə eyni mənadadır: **"Allah hər bir çətinlikdən sonra asanlıq edəcəkdir"** ("Talaq" surəsi, 7).

**"Şübhəsiz ki, çətinliklə bərabər bir asanlıq vardır. Əlbəttə ki, çətinliklə bərabər bir asanlıq vardır"** ("İnşirah" surəsi, 5-6).

Ənəs ibn Malikdən rəvayət edilir ki, o deyirdi: "Peyğəmbər kiçik bir mağaranın yanında oturmuşdu və belə buyurdu: "**Əgər çətinlik gəlib bu mağaraya girsəydi, mütləq asanlıq da gələr, onun ardınca girib onu çıxarardı".** Bundan sonra Allah bu ayəni nazil etdi: **"Şübhəsiz ki, çətinliklə bərabər bir asanlıq vardır. Əlbəttə ki, çətinliklə bərabər bir asanlıq vardır**"[104].

İbn Əbu Hatim, Mübarək ibn Fudələnin Həsən əl-Bəsridən belə dediyini rəvayət edir: "Onlar deyərdilər: "Bir çətinlik iki asanlığa qalib gələ bilməz".

İbn Cərir də Məmər vasitəsilə əl-Həsəndən rəvayət edir ki: "Bir gün Peyğəmbər ﷺ sevincli halda belə buyurdu**: "Bir çətinlik iki asanlığa qalib gələ bilməz, bir çətinlik iki asanlığa qalib gələ bilməz".** Sonra bu ayəni oxudu: **"Şübhəsiz ki, çətinliklə bərabər bir asanlıq vardır. Əlbəttə ki, çətinliklə bərabər bir asanlıq vardır" (**"İnşirah" surəsi, 5-6)[105].

Qatədədən rəvayət edilən hədisdə isə deyilir: "Rəsulullah ﷺ bu ayə ilə səhabələrini müjdələdi və buyurdu: **"Bir çətinlik iki asanlığa qalib gələ bilməz".**

Müaviyə ibn Qurra İbn Məsuddan belə rəvayət edir: "**Əgər çətinlik bir dəliyə girsəydi, asanlıq da gələr, onunla birlikdə içəri girərdi. Sonra dedi: Allah buyurdu: "Şübhəsiz ki, çətinliklə bərabər bir asanlıq vardır. Əlbəttə ki, çətinliklə bərabər bir asanlıq vardır"** ("İnşirah" surəsi, 5-6).

Abdurrahman ibn Zeyd ibn Əsləm atasından, o da babasından rəvayət edir ki: "Əbu Ubeydə mühasirəyə alınmışdı, Ömər ona məktub yazıb belə dedi: "**Hər hansı bir insana şiddət və sıxıntı gələrsə, Allah onun ardınca ona mütləq bir çıxış yolu (rahatlıq) verər. Həqiqətən, bir çətinlik iki asanlığa qalib gələ bilməz. Allah buyurur: "Ey iman gətirənlər! Səbir edin, (düşmən qarşısında) dözümlü olun, daima keşikdə durun və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!"** ("Ali-İmran" surəsi, 200)[106]

---

[104] İbn Kəsir Təfsiri, 4/525. Bəzzar, "Müsnəd", 3/81. Hakim, "Mustədrək", 2/255
[105] Təbəri Təfsiri, 30/151
[106] İbn Əbi əd-Dünya, 24

Eləcə də İbn Abbas və digər müfəssirlər (təfsir alimləri – red.) bu ayə haqqında demişlər: “Bir çətinlik iki asanlığa qalib gələ bilməz”.

Keçmişdə yaşamış bir nəfər bir gecə səhrada çox böyük sıxıntıya düşmüşdü. Qorxurdu və bu beyti təkrar-təkrar deyirdi:

Kim burada səhərə çıxarsa,
Sıxıntısından ölüm gələr ona.

Gecə düşəndə bir səs eşitdi ki, o səs belə deyirdi:

Ey sıxıntı və dərdiylə yanan insan,
Bir beyt oxudun, onu zikr etdin hər an!
Şiddətli sıxıntı gəlsə, “İnşirah” surəsini düşün.
Çünki bir çətinlik iki asanlıq arasındadır,
Sevincindən uçarsan əgər bunu dərk etsən bütün!

Bu kişi dedi: “Mən bu şeiri əzbərlədim və Allah dərhal kədərimi dağıtdı”.

Şairlər bu mövzuda çox sözlər deyiblər. Biz də bu mövzuda deyilmiş gözəl şeir parçalarını seçib qeyd edəcəyik. Onlardan bəziləri:

Səbir et, çünki səbirin sonu xeyirdir,
Başına gələn müsibətə görə narahat olma.
Çünki çətinlikdən sonra asanlıq gəlir,
Darlıqda isə sıxıntılar aradan qalxar.

Başqa bir şairin sözü:

Nə qədər ürəklər bir iş üçün kədərləndi,
Halbuki onun ardınca yaxın bir fərəh gəldi.

Bir şairin sözləri isə belədir:

Yardım yaxındır, yaxın olması umulur,
“Umulur” sözüylə özümüzü ovundururuq.
İnsana yardımın ən yaxın olduğu an,
Heç şübhəsiz ümidini kəsdiyi andır.

Birisi də belə demişdir:

Sıxıntı səni əziyyətə salanda gözlə yardımın vaxtını,
Yardımın gələcəyi yerin ən yaxınına qoy o sıxıntını!

Bir başqası da belə demişdir:

Bir gün dara düşsən, olma narahat,
Xatırla ötən günlər olmuş rahat,
Rəbbin haqqında pis zənnə qapılma,
Çünki buna daha layiqdir Allah!
Ümidini kəsmə, çünki bu küfrə girər,
Bəlkə Allah az ilə varlı edər!
Çətinlikdən sonra asanlıq vardır,
Sözlər içində Allahın sözü haqdır!

Başqa bir şair isə belə deyib:

Sevinc qapısının açarı səbirdir,
Hər çətinlikdən sonra asanlıq gələr!
Zaman da eyni halda qalan deyildir,
Hər zaman bir iş bitər, başqası gələr!

Başqası isə belə demişdir :

Qəlblər ümidsizliyə büründükdə,
Geniş nəfs də darlıqdan sıxıldıqda,
Bəla və sıxıntı şiddətləndikdə,
Müsibətlər özünə yer etdikdə,
Qurtuluşa bir yol görünmədikdə,
Aqil bir çarə tapa bilmədikdə,
Ümidsiz halda sənə kömək gələr.
Mərhəmətli və Mucib Allah edər!
Çox şiddətli olsa da sıxıntılar,
Bundan rahatlığa bir çıxış olar!

Gəlin kitabımızı bəla və müsibətlərin incəlikləri, faydaları və hökmlərini xülasə edərək bitirək. Onlardan bəziləri bunlardır:

1. Bəlalar günahlara kəffarə olar (günahların silinməsinə səbəb olar). Onlara səbir etməyin savabı vardır. Bəlanın özünə görə isə savabın yazılıb-yazılmaması məsələsində alimlər ixtilaf ediblər.

2. Qula günahları xatırladılır, bəlkə də bu səbəbdən tövbə edərək Allaha dönər.

3. Qəlbin sərtliyini aradan qaldırır və yumşaqlıq əmələ gətirir.

Sələfdən bəziləri demişdir: “Bəndə xəstələnər, günahlarını xatırlayar və Allah qorxusundan ondan milçək başı qədər tər çıxar və bu səbəblə Allah onu bağışlayar”.

4. Qul Allah qarşısında sınar və Onun qarşısında zəlil olar. Bu isə Allaha bir çox itaət əhlinin itaətindən daha sevimlidir.

5. Bəlalar bəndəni qəlbi ilə Allaha yönəldər, Onun qapısında dayanmağa, yalvarmağa və Ona boyun əyməyə sövq edər. Bu isə bəla və müsibətlərin ən böyük faydalarındandır. Allah çətinliklər zamanı Ona boyun əyməyənləri qınamışdır. Uca Allah buyurur**: “Biz onları əzabla yaxaladıq, onlar yenə də öz Rəbbinə boyun əymədilər, (Ona) yalvarıb-yaxarmadılar”** (“Muminun” surəsi, 76)

Həmçinin buyurur:

**“Səndən əvvəl də ümmətlərə (elçilər) göndərmişdik. Biz o ümmətləri sıxıntıya və xəstəliyə düçar etdik ki, bəlkə boyun əyələr”** (“Ənam” surəsi, 42).

Əvvəlki kitablardan birində deyilir: **“Allah bəndəsini sevdiyi halda onu imtahan edər (sınayar) ki, onun yalvarışını eşitsin”.**

Səid ibn Əbdüləziz demişdir: “Davud (Allahın ona salamı olsun) belə dedi: **“Məşəqqətlə duanı, bolluqla şükürü ortaya çıxaran Allah nöqsansızdır”.**

Əbu Cəfər Muhəmməd ibn Əli sıxıntılı bir halda olan Muhəmməd ibn Munkədirin yanından keçdi. Onun qəmginliyinin səbəbini soruşdu. Dedilər ki, borc onu sıxır. Əbu Cəfər dedi: “Ona dua qapısı açıldımı?” Dedilər: “Bəli”. Dedi: “Hansı vəziyyətdə olursa-olsun, bir ehtiyacla qarşı-qarşıya qaldıqda Rəbbinə çox dua etməyi çoxaltdıqda bəndəyə bərəkət verilmişdir”.

Sələfdən bəzilərinin adətinə görə əgər çətinlik zamanı dua qapısı ona açılardısa, cavabın tez verilməsini istəməzdi; çünki qorxardı ki, ona açılmış olan bu dua qapısı bağlansın.

Sabit demişdir: “Mömin Allahdan bir şey istədikdə, Allah onun ehtiyacını Cəbrayıla tapşırar və ona belə deyər: “Onun istəyini yerinə yetirməkdə tələsmə! Çünki Mən mömin bəndəmin səsini eşitməyi sevirəm”. Bu rəvayət də zəif sənədlərlə mərfu olaraq nəql olunmuşdur.

Sələfdən bəziləri Allahı yuxuda görüb deyərdi: “Ey Rəbbim! Səni nə qədər çağırıram, amma mənə cavab vermirsən?”Allah buyurardı: “Mən sənin səsini eşitməyi sevirəm”[107].

6. Bəla möminin qəlbinə ona səbir etməyin və ona razı olmağın ləzzətini daddırar. Bu isə çox böyük bir məqamdır və bunun fəzilətinə və dəyərinə daha əvvəl işarə edilmişdir.

[107] Şeyx Muhəmməd Nasir əl-Acmi (Allah onu qorusun) bu risaləyə yazdığı şərhdə (səh. 122) belə demişdir: “Əslində müəllifin – Allah ona rəhmət etsin – belə bir hekayəni zikr etməməsi daha münasib olardı. O, bu kitabını bir çox hekayələrlə doldurmuşdur ki, onların əksəriyyətinin Quranda və səhih sünnədə əsası yoxdur. Əksinə, bunlar müxtəlif uydurma rəvayətlərə əsaslanır. Halbuki səhih sünnədə və sələflərin sözlərində olan nəsihətlər kifayət qədər ibrət və öyüd üçün yetərlidir. Biz Allahdan diləyirik ki, bizi də, onu da bağışlasın”.

7. Bəla mömininin qəlbini məxluqa yönəlməkdən ayırar və onu Allaha üz tutmağa vadar edər.

Allah çətinlik zamanı müşriklərin belə Ona ixlasla dua etdiklərini bizə xəbər vermişdir. Müşrik belədirsə, bəs mömin necə olar?! Deməli bəla bəndənin öz qəlbində tövhidi tam şəkildə bərqərar etməsinə səbəb olar. Bu isə məqamların ən yüksəyi və dərəcələrin ən şərəflisidir.

İsrailiyyatdən gələn xəbərlərdə Uca Allah belə buyurur: "Bəla Mənimlə sənin aranı birləşdirir. Afiyət isə səninlə öz nəfsinin arasını bir araya gətirir".

## Fəsil

Çətinliyin şiddətlənməsinin və vəziyyətin ağırlaşmasının qurtuluşun yaxın olduğunu göstərdiyini unutmamaq gərəkir.

Uca Allah buyurur: **"Nəhayət, peyğəmbərlər ümidsizliyə qapıldıqda və özlərinin yalançı sayıldıqlarını yəqin etdikdə, köməyimiz onlara yetişdi və dilədiyimiz kimsələr də (peyğəmbərlər və onlara iman gətirənlər) nicat tapdı"** ("Yusuf" surəsi, 110).

Həmçinin buyurur:

**"Yoxsa siz əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacağınızımı güman edirdiniz? Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər: "Allahın köməyi nə vaxt gələcək?" – dedilər. Bilin ki, Allahın köməyi yaxındır"** ("Bəqərə" surəsi, 214).

Allah, Yaqub (Allahın ona salamı olsun) haqqında xəbər verərək bildirmişdir ki, o, Yusufu görmək ümidini kəsməmişdi. O, oğlanlarına demişdir: **"Ey oğullarım! Gedin Yusufdan və qardaşından bir xəbər bilin. Allahın mərhəmətindən ümidinizi üzməyin. Allahın mərhəmətindən yalnız kafirlər ümidlərini üzərlər"** ("Yusuf" surəsi, 87).

"**Ola bilsin ki, Allah onların hamısını mənə qaytarsın. Həqiqətən də, O, Biləndir, Hikmət sahibidir"** ("Yusuf" surəsi, 83).

Qurtuluşun sıxıntılara çox yaxın olmasının incə hikmətlərindən biri budur ki, sıxıntılar şiddətlənib ən yüksək həddə çatanda artıq məxluqun (insanların) bunu aradan qaldıra biləcəyinə dair ümid tamamilə kəsilər və bütün yönəliş yalnız Xaliqə (Allaha) olar. Kim məxluqlardan ümidini kəsib yalnız Xaliqə yönələrsə, Allah onun duasını qəbul edər və ondan çətinliyi qaldırar. İmam Əhmədin dediyi kimi: "Həqiqi təvəkkül məxluqlardan ümidini kəsmək – heç bir şey gözləməməkdir". O, bunu Cəbrayılın (Allahın ona salamı olsun) səmada İbrahimə görünüb "Sənin bir ehtiyacın varmı?" deyəndə "Sənə yox!" deməsi ilə izah etmişdir.

Təvəkkül, ehtiyacların əldə olunmasında ən böyük səbəblərdəndir. Allah buyurur: **"Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər"** ("Talaq" surəsi, 3).

Fudeyl demişdir: “Allaha and olsun ki, əgər sən məxluqlardan ümidini kəsib onlardan heç nə istəməsən, Rəbbin sənə istədiyin hər şeyi verər”.

Qulun sıxıntıları şiddətlənəndə o, şeytanla mübarizə aparmağa əzmli olmalıdır. Çünki şeytan onu ümidsizliyə və qəlb sıxıntısına sövq edər. Belə ki, bu cür anlarda bəndə şeytanla daha çox mübarizə aparmalı, onu dəf etməlidir. Əgər bunu bacarsa, içindəki sıxıntılı bəlalardan qurtulmuş olar.

Buna görə də Peyğəmbər ﷺ belə buyurmuşdur**: “Mən dua etdim, ancaq duam qəbul olmadı” deməyən və (duasının qəbul olunmasına) tələsməyən kimsənin duası qəbul olar”**[108]**.**

Belə ki, xüsusilə çoxlu dua edib yalvardığı halda qəbul əlaməti görmədikdə, mömin qurtuluşun geçikməsinə görə dərhal öz nəfsini qınayar və ona belə deyər: “Mən sənin üçün bu qədər dua etdim! Əgər səndə xeyir olsaydı, duaların qəbul olardı!” Bu qınaq, Allah qatında bir çox itaətlərdən daha sevimlidir. Çünki bu hal bəndənin qəlbinin qırıq və boynubükük olduğunu göstərir və Allah tərəfindən duasının qəbuluna layiq olmadığını etiraf etdirir. Buna görə də Allah dərhal onun duasını qəbul edər və sıxıntısını aradan qaldırar. Çünki Allah yalnız qəlbi qırılmış olanlarla bərabərdir. Qəlbin qırılma dərəcəsinə görə də Allah onu bərpa edər.

Vəhb dedi: “Bir adam uzun müddət ibadət etdi. Sonra Allahdan bir hacəti oldu. Yetmiş həftə (hər həftə yalnız bir gün) oruc tutdu, hər həftə yalnız on bir xurma yedi. Sonra Allahdan istəyini dilədi, lakin verilmədi. O da öz nəfsinə dönərək dedi: “Səndən qaynaqlandı! Sənin üçün dua etdim. Əgər səndə xeyir olsaydı, istəyin verilərdi”. Elə bu vaxt bir mələk ona endi və dedi: “Ey Adəm oğlu! Sənin bu halın, indiyə qədər etdiyin ibadətindən daha xeyirlidir. Allah da istəyini qəbul etdi”.

Bir şeirdə deyildiyi kimi:

Öz nəfsimi alçaldıram ki, onu ucaltsınlar,
Alçalmayan nəfs isə ucalmaz heç zaman.

Bu həqiqəti dərk edən və qəlbi ilə şahidlik edən kəs bilir ki, Allahın mömin bəndəyə sıxıntı zamanında verdiyi nemətlər, bolluq vaxtındakı nemətlərindən daha böyükdür. Bu da Peyğəmbərin ﷺ səhih hədisindəki mənanı təsdiqləyir**: “Allah mömin üçün hökm etdiyi hər bir işə xeyir qoyar. Əgər ona sevindirici bir hal verərsə, o şükür edər və bu onun üçün xeyir olar. Əgər ona çətinlik üz verərsə, o səbir edər və bu da onun üçün xeyir olar. Bu yalnız mömin üçündür”**[109]**.**

Buna görə də Allahı tanıyanlar iki haldan birini digərindən üstün tutmazlar. Allah hansını təqdir etsə, ona razı olar və beləcə Ona haqqı ilə qulluq etmiş olarlar.

---

[108] Buxari, 6340. Muslim, 2735
[109] Muslim, 2999

Əbu Ümamədən rəvayət edilir ki, Peyğəmbər ﷺ buyurdu: **"Rəbbim Məkkə vadisini mənim üçün qızıla çevirməyi təklif etdi. Dedim: "Xeyr, ey Rəbbim! Mən bir gün tox, bir gün ac qalım; ac qaldığımda Sənə yalvarım. Səni yada salım, tox olduğumda isə Sənə şükür edim və Səni həmd ilə yad edim"**[110].

Ömər (Allah ondan razı olsun) dedi: "Başıma gələnin nəfsimin xoşladığı, ya da xoşlamadığı bir şey olması mənim üçün fərq etməz. Çünki hansının mənim üçün daha xeyirli olduğunu bilmirəm"[111].

Ömər ibn Əbdüləziz dedi: "Bir gün oyandım və yeganə sevincim Allahın qəza və qədəri ilə qarşılaşmaq idi".

Ey insan! Səni Özümüzə çağırdığımız halda niyə bizdən uzaqlaşırsan? Biz sənə nemətlərimizi bol-bol veririk, sən isə onlarla məşğul olub bizi unudursan! Biz də sənə bəla nazil edirik ki, yenidən bizə dönəsən, qapımızda dayanasan və yalvarışını eşidək! Bəla bizi səninlə bir araya gətirir, rifah isə səni özünlə məşğul edir.

Ey insan! Əgər bizə verdiyimiz nemətlərə şükür etsən, şükürə səni müvəffəq etməyimiz də bir nemətdir, buna da şükür et! Əgər bəlamıza səbir etsən, səbirin özü də bizim bir lütfümüzdür, bunu da yadda saxla! Hər halın bizim nemətimizdir, onu inkar etmə! **"Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur"** ("İbrahim" surəsi, 34).

**Son:** Bütün həmd yalnız Allaha məxsusdur. Muhəmməd peyğəmbərə, onun ailəsinə və bütün səhabələrinə Allahın salavatı və salamı olsun. Bu mətnin tamamlanması, 893-cü ilin Rabiul-əvvəl ayının beşinci gecəsinin səhərinə təsadüf etdi. Bu əsər, Rəbbinin məğfirətinə möhtac olan fəqir İsa ibn Əli ibn Muhəmməd əl-Həvrani əş-Şafinin əli ilə tamamlandı. Allah ona, valideynlərinə, bu əsəri oxuyanlara və mənə bağışlanma və gözəl aqibət diləyənlərə lütfü ilə rəftar etsin. Həqiqətən, O, Mərhəmətli, Kərim və duaları rədd etməyən Rəbdir.

---

[110] Əhməd İbn Hənbəl, "Müsnəd", 5 /254. Tirmizi, 2347. İmam Tirmizi hədisin "həsən" olduğunu demişdir.
[111] İbn Əbi əd-Dünya, 21

**MÜNDƏRİCAT**


**Ön söz……………………………………………………………………………………2**

**Həyatı……………………………………………………………………………………4**

**Ey Kərim olan Rəbbim, asanlaşdır!...............………………………………………………6**

**Allahı qoru ki, Allah da səni qorusun.…………………………………………………....9**

**Allah da səni qorusun………………………………………………………………......12**

**Allahı qoru, Onu qarşında taparsan……………………………………………………..23**

**Xoş günündə Allahı tanı ki, çətinlikdə O da səni tanısın……………………………..25**

**Əgər bir şey istəsən, Allahdan istə……………………………………………………….30**

**Əgər kömək diləsən, Allahdan dilə…………………………………...........…………38**

**Bil ki, olacaq hər şey yazılmış və qələm qurumuşdur……………………………………41**

**Əgər bütün məxluqat bir yerə yığılıb sənə bir fayda verməkistəsə…………….....……44**

**Bilməlisən ki, xoşlamadığın şeyə səbir etməkdə çox böyük xeyir var……………………48**

**Bil ki, qələbə səbirlə birlikdədir………………………………………………………..59**

**Sevinc kədərlə birlikdədir……………………………………………..………………62**

**Şübhəsiz ki, hər çətinliklə birlikdə bir asanlıq vardır……………………………………67**

**Fəsil……………………………………………………………………..……………71**

PEYĞƏMBƏRİN ﷺ İBN ABBASA VƏSİYYƏTİ

Bu kitabda, zahirən qısa bir hədisin izahı olsa da, mahiyyət etibarilə insanın bütün həyatını əhatə edən böyük bir mənəvi məktəbdir. Peyğəmbər ﷺ, gənc yaşlarında olan İbn Abbasa müraciət edərək ona elə kəlmələr öyrədir ki, bu kəlmələr yalnız bir nəsihət deyil, bu kəlmələr yalnız bir zamana deyil, bütün həyatlara xitab edir.

Əsər insanın Rəbbi ilə olan münasibətinin əsaslarını incə bir üslubla açıqlayır. Oxucuya öyrədilir ki, insan qəlbini yalnız Allaha bağlamalı, ehtiyacını yalnız Ondan istəməli, güvənini yalnız Ona yönəltməlidir. Çünki həqiqi qüvvə və qüdrət yalnız Allaha məxsusdur. İnsanlar nə fayda verə bilər, nə də zərər yetirə bilər yalnız Allahın izni ilə. Bu həqiqəti anlayan insan, qorxularından azad olar, qəlbi rahatlıq tapar və həyatın çətinlikləri qarşısında sarsılmaz.

Kitabın əsas xəttini təşkil edən mövzulardan biri də qədərə imandır. Müəllif izah edir ki, insanın başına gələn hər bir hadisə istər sevinc, istər kədər Allahın əvvəlcədən yazdığı bir ölçü ilə baş verir. Bu anlayış, mömini nə ümidsizliyə salır, nə də həddindən artıq sevincə qərq edir. O bilir ki, itirdiyi heç vaxt onun üçün yazılmamışdı, qazandığı isə mütləq ona çatacaqdı.

Əsərdə səbir və təvəkkül xüsusi yer tutur. Oxucuya xatırladılır ki, həyatın çətin anları keçicidir və hər bir sıxıntının ardınca bir asanlıq gəlir. Səbir yalnız gözləmək deyil, Allahın hökmünə razı olaraq möhkəm dayanmaqdır. Təvəkkül isə səbəbləri yerinə yetirdikdən sonra nəticəni Allaha buraxmaqdır. Bu iki xüsusiyyət insanın ruhunu möhkəmləndirir, onu həyatda daha sabit və güclü edir.

Bundan əlavə, kitab insanın daxilində ixlasın formalaşmasına böyük diqqət yetirir. İnsanın etdiyi hər bir əməl yalnız Allah üçün olmalıdır. Gizlində edilən ibadətlər, qəlbdə saxlanılan niyyətlər, səssiz dualar bütün bunlar insanın Allahla olan səmimi əlaqəsinin göstəricisidir. Bu baxımdan, əsər zahiri davranışlardan çox, daxili tərbiyəyə yönəlir.

Kitab həmçinin insana öz dəyərini və yerini anlamağı öyrədir. O, insana xatırladır ki, kim Allahı qoruyarsa, Allah da onu qoruyar; kim Allahın hüdudlarını gözləyərsə, Allah da onun həyatını qoruyar və ona çıxış yolları açar. Bu, insanın həyatında həm mənəvi, həm də praktik bir istiqamət yaradır.

Üslub baxımından əsər sadə, lakin çox təsirli və dərin məna daşıyan bir dillə yazılmışdır. Müəllif, hər bir cümlənin arxasında gizlənən hikmətləri açıqlayaraq oxucunu düşünməyə, öz həyatını yenidən gözdən keçirməyə dəvət edir. Oxucu bu kitabı oxuduqca yalnız məlumat əldə etmir, eyni zamanda öz daxilində bir dəyişiklik hiss edir.

Nəticə olaraq, bu kitab sadəcə bir hədisin şərhi deyil o, insanın imanını möhkəmləndirən, qəlbini saflaşdıran və ona doğru yolu göstərən bir mənəvi bələdçidir. Onu oxuyan hər bir insan, həyatın mənasını daha dərindən anlayar, Rəbbinə daha yaxın olar və dünya ilə axirət arasında düzgün bir tarazlıq qurmağı öyrənər.